

## Mehriban Əliyeva ICESCO-nun tədbirində videoformatda çıxış etdi

*ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə fevralın 11-də videokonfrans formatında tədbir keçirilib. "Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə videoformatda çıxış edib. Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı:*

Səh.3


# UNIKAL

№06 (2044) 12 fevral 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev  www.unikal.org  unikal-1@mail.ru




## Ziya Məmmədova nazir olarkən cinayət işi açılmamasının sirri...



Səh.2

## Türkiyə-Azərbaycan ortaq hərbi təlimində mühüm mesajlar verildi

## Sabiq "nəqliyyat şefi" vəzifədə ikən nə üçün korrupsiya əməllərinə rahatlıqla davam edirdi?

*Son vaxtlar Azərbaycanda gündəmin başlıca mövzularından biri eks məmurların korrupsiya əməlləridir. Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun həbsindən sonra daha da aktuallaşan bu mövzu digər keçmiş nazirlərin, komitə sədrlərinin və başqa iri vəzifə sahiblərinin adını yenidən ön plana çıxarıb. Bu sırada uzun illər Nəqliyyat Nazirliyinə rəhbərlik etmiş və bu müddətdə adı böyük məbləğlərlə ifadə olunan korrupsiya əməliyyatlarında hallanmış Ziya Məmmədovun ətrafında cərəyan edənlər diqqətçəkicidir. Belə ki, S.Müslümovun həbsindən qısa müddət sonra Z.Məmmədovun da istintaqa cəlb edildiyi barədə məlumat yayıldı.*

Səh.6

## "Qarşıdakı dövrdə bütün sahələr üzrə bahalaşma qaçılmazdır"



*Bir sıra məhsulların qiymətində artım olması cəmiyyətdə birmənalı qarşılanmır. Hökumət nümayəndələri bu artımın iqtisadi əsasını arqumentlərlə sübut etməyə çalışsalar da, əhalinin aztəminatlı hissəsi narahatdır. Real Partiyanın icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal" qəzetinə müsahibəsində...*

Səh.4

## Əbülfəs Qarayev cinayət məsuliyyətinə cəlb edilə bilər



*Məlum olduğu kimi, ötən il mayın 9-da Səbail Rayon Məhkəməsində Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sabiq rəisi Zakir Sultanovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq...*

Səh.7

## Dağlıq Qarabağ həqiqətlərində yeni siyasi istiqamətlər...



*Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsi sayılır. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi beynəlxalq...*

Səh.15

# Polis Mətanət İsgəndərlinin oğlu ilə bağlı araşdırmaya başladı - Rəsmi



***Polis müğənni Mətanət İsgəndərlinin oğlu Kərimin öz övladını döyməsi ilə bağlı araşdırmaya başlayıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Kütləvi İnformasiya Vasitələri ilə iş və İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev Unikal.org-a bildirib ki, yayılan iddiaların təfərrüatları Bakı şəhər Baş Polis İdarəsində araşdırılır:

"Vətəndaş Aynur Həmidova polisə dəvət olunaraq izahatı alınıb. Hazırda təhqiqat araşdırmaları davam etdirilir. Araşdırmanın nəticəsindən asılı olaraq, əmələ hüquqi qiymət veriləcək".

Qeyd edək ki, əməkdar artist Mətanət İsgəndərlinin gəlini Aynur Həmidova övladının atası tərəfindən işgəncələrə məruz qaldığı ilə bağlı fotolar yayıb. O, həmçinin işgəncələri əks etdirən fotoları da sosial şəbəkələrdə paylaşıb.

# Samirə "Eurovision"da casus Mata Haridən oxuya bilər



***Müğənni Samirə Əfəndinin "Eurovision" mahnı müsabiqəsi üçün namizəd 6 mahnının adı açıqlanıb.***

Sözügedən bəstələr Əfəndinin ifasında "Focus Group"a təqdim edilib, biri qalib seçiləcək. Bunlar ingilis dilində "Mata Hari", "Ratata", "When I'm gone", "Manifesto", "Breathing You" və "Owe You Pretty"dir. Mahnılar arasında "When I'm gone" və "Breathing you" ballada stilindədir. Digər dördü isə yüksək templidir.

Məlumatı "İnfe Azerbaijan" ictimaiyyətə təqdim edib.

Bundan əlavə, mahnılar arasında ən diqqətçəkən "Mata Hari"dir. Belə ki, sözügedən bəstə əslən Hindistandan olan rəqqasə, alman kəşfiyyatçı Mata Hari (Marqareta Qertruda Zelle) ilə bağlıdır. O, 50 min fransız əsgərin ölümündə təqsirli hesab edilərək 1917-ci ildə edam olunub. 41 yaşlı Mata ölümündən sonra dünyada "Fransanı məhv edən qadın" adı ilə daha da məşhurlaşıb.

Onun haqqında çoxlu sayda filmlər çəkilib. Həmçinin, o, dünyanın axarını dəyişən əfsanəvi kəşfiyyatçı qadın olaraq qalmaqda davam edir.



# Pandemiyada pulsuz qalan Niyam "Range Rover"ini satdı

***Müğənni Niyam Salami pandemiya ərəfəsində maddi sıxıntı yaşadığını söyləyib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi ötən gün avtomobil və evini satacağını açıqlamışdı. "Xəbər-ətər" verilişinə qonaq olan Niyam artıq maşınını satdığını söyləyib:

"Yeni bir layihə edirdim. Pul üçün maşınımı satdım. Heç kimdən borc istəyə bilməzdim. Daha ucuz avtomobil almışam, amma hələ gətirməyiblər".

Qeyd edək ki, Niyamın "Range Rover" markalı avtomobili var idi.

# "Pulu düşünmədim, onsuz da, kasıbam" - Röya

***Bir il pandemiyanı anlamadım hardan gəldi-getdi. Şikayət etmədim ki, işsizlikdir. Mənim üçün önəmlisi valideynlərimin səhhəti idi. Anamı sağaltdım atam getdi, atamı sağaldıram anam gedir. Toyu gözləməyə vaxtım olmadı.***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Röya Ayxan "MTV Azərbaycan"a açıqlamasında deyib. Müğənni digər həmkarları kimi işsizlikdən gileylənməməsindən danışıb:

"Fikirləşmirdim ki, iş nə vaxt başalayacaq. Ailəmi qoruyurdum. Niyə pulu düşünmürəm? Çünki, onsuz, kasıb olmuşam".

Sevgi ilə bağlı suallara isə Röya "Sevməyi gözəl bacarıram, sevilirəm. Şəxsi həyatımdan danışmamışam. Bircə ərə getməyimi gördünüz" cavabını verib.

# "Məni uşaqlarımla vurmaq istədilər" - Roza Zərgərli

***Bu günə kimi heç bir sponsorun köməkliyi ilə çıxmamışam. Zülmlə qazanıb, ağıllı hərəkət edib gündəmə gəlmişəm. Öz övladımdan başqa övladlara da analıq etmişəm. Bunu heç kim bilməyəcəkdi, təsadüflə ortaya çıxdı. Başqa sənət yoldaşlarımız başqa adla bunu gündəmə gətirdilər. Mən də məcbur olub açıqladım. Yetim uşaqların qəlbini sındırdınız.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Roza Zərgərli "Günə bir şou" proqramında deyib. Sənətçi övladlığa götürdüyü oğullarından danışıb:

"Bir dəfə açıqladım ki, məni uşaqlarımla vura bilərsiniz. Bu sözümü götürüb, uşaqlarımla məni vurmağa çalışdılar. Yanılırsınız, yaxşı müəllim tələbəyə hər şeyi öyrətmir. Məni məhv etmək üçün bu dünyadan yox etməlisiz". Qeyd edək ki, Roza Zərgərlinin Bənövşə adlı qızı, iki oğlu var.



## Azərbaycanda karantin dövründə alınan icazələrin sayı açıqlandı

***Əhalinin həyatının və sağlamlığının qorunması, dövlət strukturlarının və mühüm obyektlərin fasiləsiz işləməsi, habelə təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsi üçün “Elektron Hökumətin İnkişaf Mərkəzi” publik hüquqi şəxs Daxili İşlər Nazirliyi ilə birlikdə sistemin tətbiqinə başlayıb.***

Unikal.org xəbər verir ki, bu, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ötən il üzrə hesabatında öz əksini tapıb.

Qeyd olunub ki, sistem sərt karantin rejiminin tətbiq edildiyi dövrlərdə fəaliyyət göstərib.

Belə ki, 2020-ci il 5 aprel-18 may tarixlərində sərt karantin rejiminin tətbiqi zamanı sistem üzərindən 72 000-dən çox qurum 924 000 əməkdaşı üçün icazə alıb, habelə 8103 nömrəsi vasitəsilə isə 29 000 000-dan çox icazə alınıb.

2020-ci il 21 iyun-5 avqust tarixlərində sərt karantin rejiminin tətbiqi zamanı sistem üzərindən 89 000-dən çox qurum 919 000-dən çox əməkdaşı üçün icazə alıb, habelə 8103 nömrəsi vasitəsilə isə 31 000 000-dan çox icazə alınıb.

2020-ci il 14 dekabr-2021-ci il 18 yanvar tarixlərində sərt karantin rejiminin tətbiqi zamanı sistem üzərindən dekabr ayı ərzində 104 000-dən çox qurum 948 000-dən çox əməkdaşı üçün icazə alın, habelə 8103 nömrəsi vasitəsilə isə 16 600 000-dən çox icazə alınıb.

Bununla yanaşı, şəxslərin sistemdən istifadə qaydaları və 8103 nömrəsinə qısa mesaj-SMS göndərilməsi ilə bağlı yaranan suallar ilə əlaqədar Dövlət Agentliyinin 9108 Çağrı Mərkəzinə müraciət etmək imkanı yaradılıb.

Sərt karantin rejiminin tətbiqi zamanı ölkə üzrə 950-dən çox əlilliyi olan şəxsin, o cümlədən dializ xəstələrinin olduqları ərazi üzrə tibb müəssisələrinə rahat müraciət etməsi üçün müvafiq icazələrin alınması 9108 Çağrı Mərkəzi vasitəsilə təmin edilmişdir.

***Famil***

# Etibar Pirverdiyevin həbs qorxusu

## Keçmiş “işıq şefi”yüz milyonlarla manatı necə havaya sovurub?

***Azərbaycanda korrupsiyaya qarşı mübarizə hər gün bir az da genişlənir. Hələ də vəzifədə olan iri məmurlar barədə cinayət işlərinin açılması, onların elə kabinetlərindəcə qandallanıb həbsə atılması ilə müşahidə olunan, cəmiyyət tərəfindən isə təqdirlə qarşılanan proses artıq sabiq məmurları da əhatə etməyə başlayıb.***

Misal olaraq ötən həftə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun həbsini göstərmək olar. Müslümovun ardından onun aparatına rəhbərlik etmiş Əjdər Cəbiyev də də saxlanılıb. Hər iki eks məmur barədə həbs qətimkan tədbiri seçilib. Bununla da keçmiş iri məmurlar arasında həbs qorxusu güclənib. Onlar da eyni aqibəti yaşayacaqlarından narahatdırlar.

Bunlardan biri isə bir zamanlar Azərbaycanın ən qüdrətli məmur-oliqarxlarından olmuş Etibar Pirverdiyevdir. Bilməyən yoxdur ki, “Azərenerji”ASC-nin sabiq prezidenti korrupsiya pulları hesabına qısa vaxtda özünə nəhəng biznes şəbəkəsi yaratmışdı. Sabiq “işıq şefi”məsul olduğu sahəyə ayrılan dövlət vəsaitlərinin, necə deyərlər, “altından girib üstündən çıxırdı”.Nəticədə onun adı ölkənin əsas oliqarxları sırasında çəkilirdi. Lakin 2018-ci ildə 54 yaşlı Pirverdiyevin karyerası biabırçı şəkildə başa çatdı. O, “Azərenerji” ASC- nin prezidenti vəzifəsindən azad edildi.

Pirverdiyevin işdən çıxarılması həmin il iyulun 3-də Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan “Azərbaycan” İES-in 1-ci və 6-cı enerji blokunda partlayışla birbaşa əlaqəli idi. Bütün ölkəni işıqsız qoyan, dövlətə və əhaliyə böyük ziyan vuran bu hadisədən dərhal sonra ölkə başçısı baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı. Dövlət Komissiyasının bir müddət sonra hazırladığı yekun rəydən baş verən hadisədə Pirverdiyevin məsuliyyəti aydın ifadə edilmişdi.

Hələ bir müddət əvvəl “Unikal”olaraq etibarlı mənbələrə istinadən yazmışdıq ki, sabiq “işıq şefi” əslində bu hadisədən üç il öncə - 2015-ci ildə vəzifədən azad ediləbilərmiş. Buna səbəb isə onun rəhbəri olduğu ASC-də misli görünməmiş korrupsiya faktlarının aşkar edilməsi imiş. Belə ki, həmin il Hesablama Palatası “Azərenerji”-də audit aparır. Çox keçmir ki, Palatanın rəsmi saytında auditin nəticələri dərc olunur. Bununla bağlı müvafiq hesabatda “Azərenerji”yə ayrılan büdcə vəsaitlərinin xərclənməsində ciddi pozuntular üzə çıxdığı məlum olur. Məsələn, yoxlama nəticəsində aydınlaşır ki, sözügedən ASC tərəfindən dövlət əsaslı vəsait qoyuluşu üçün tələb olunan büdcə vəsaitlərinin proqnozlaşdırılması zamanı sahə üzrə dövlət investisiya layihələrinin əsaslandırılmasını, ilkin strukturunu və qiymətləndirilməsini özündə əks etdirən investisiya təklifləri tərtib edilməyib. Birbaşa layihə-smeta sənədlərinin hazırlanması, layihənin texniki- iqtisadi əsaslandırılması və qiymətləndirilməsi aparılmayıb.

Tikinti layihələri şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması, həmin tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi üçün ekspertizadan keçirilməyib. Habelə müvafiq qaydaların tələblərinə uyğun olaraq tikintilərin cari qiymətlər səviyyəsində ehtimal olunan dəyəri müəyyən edilməyib. Auditor bir neçə halda paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması layihəsi üzrə obyektlərin layihə-smeta sənədlərinin podratçı təşkilatın sifarişinə əsasən hazırlandığını müəyyən edib. Həmçinin layihə-smeta sənədlərinin hazırlanması xərclərinin podrat müqaviləsinə daxil edildiyini, işlərin yerinə yetirilməsi zamanı podratçıya artıq vəsait ödənildiyini üzə çıxarır.

Yoxlamalar nəticəsində müəyyən olunur ki, Pirverdiyevin rəhbərlik etdiyi qurum işlərin və xidmətlərin satın alınması zamanı bəzi hallarda satınalma proseduru tətbiq edilmədən podratçılarla birbaşa müqavilələr bağlayıb. Hesablama Palatası həmçinin müəyyənləşdirib ki, bir neçə obyektin tikintisi başa çatdırılsa da Dövlət qəbul Komissiyası tərəfindən istismara qəbul edilməyib. Ancaq həmin obyektlərin dəyərinin ASC-nin maliyyə hesabatlarında aktivlərə aid edildiyi üzə çıxır.



Bütün bu ciddi pozuntulara baxmayaraq Hesablama Palatası “Azərenerji”də aparılmış yoxlamaların nəticəsini tədbir görülmək üçün hüquq-mühafizə orqanlarına göndərmir. Palata “Azərenerji”də aparılmış yoxlamaların nəticələrinin müzakirə olunmasına həsr edilmiş kollegiya iclasında ASC-yə tövsiyə edir ki, bu pozuntuları aradan qaldırsın və belə hallara gələcəkdə yol verməsin. Hərçənd ki, ortaya çıxarılmış pozuntulardan ciddi korrupsiya iyi gəldiyi tamamilə aydındır.

Əgər “Azərenerji” heç bir texnki-iqtisadi əsaslandırma aparmadan, ekspertiza keçirmədən, müvafiq şəhərsalma normalarına məhəl qoymadan tikinti layihələrinə büdcə vəsaitlərini xərcləyibsə, bəyəm burada korrupsiya əlamətləri yox idi? Yaxud layihə-smeta xərclərinin podratçı tərəfindən hazırlanması, podratçıya əlavə pul ödənilməsi və ya podratçının tender yolu ilə deyil, birbaşa seçilməsi korrupsiyadan xəbər vermirdi? Hansı ki, adıçəkilən ASC-nin podratçısı əksər hallarda elə bu strukturun rəhbəri Etibar Pirverdiyevin nəzarətindəki şirkətlər olurdu.

Ən acınacaqlısı isə o idi ki, “Deloitte” şirkəti tərəfindən aparılan audit də “Azərenerji”nin maliyyə göstəricilərinin kəskin pisləşdiyini üzə çıxarmışdı. “Deloitte”şirkəti tərəfindən aparılan audit yoxlaması nəticəsində məlum olub ki, səhmdar cəmiyyətin ümumi gəlirləri 2014-cü ildə 4,3 dəfə azalıb - 84 milyon 589 min manatdan 19 milyon 594 min manata enib Operatorun vergilərin ödənilməsindən əvvəlki gəlirləri də kəskin aşağı düşüb. 2013-cü ildə bu gəlirlər 130 milyon 607 min manat təşkil etmişdisə, 2014-cü ildə həmin rəqəm 55 milyon 378 min manata enib. Habelə “Azərenerji”nin əməliyyat fəaliyyətindən daxilolmaların həcmi 237 milyon 748 min manatdan 168 milyon 269 min manata qədər azalıb. Lakin bütün bu aşkar korrupsiya əməllərinə baxmayaraq, Etibar Pirverdiyev hansısa formada “sudan quru çıxmağı”bacarır. Halbuki ondan ən azı bunu soruşmaq olardı ki, niyə sabiq sədrin şəxsi biznesi gündən-günə çiçəklənərkən “Azərenerji”büdcə öhdəliklərini belə yerinə yetirə bilmir və ən iri vergi borcu olan müəssisələrdən biri kimi qalır. Axı bu ASC, ən azından, büdcədən ən iri investisiya qoyuluşlarının yönəldildiyi müəssisədir. 2005-ci ildən 2014-cü ilə qədər dövlət büdcəsindən “Azərenerji”ASC-yə 1 milyard 132 milyon manat investisiya yönəldilib. ASC 2010-cu ilə qədər 1,45 milyard dollara yaxın xarici kreditlər cəlb edib. Bir sözlə, 2015-ci ildə Pirverdiyev hərtərəfli şəkildə çətin suallar və ciddi korrupsiya faktları qarşısında idi. Nəinki işdən azad edilməsi, hətta barəsində daha sərt cəza tədbiri görülməsi qaçılmaz idi.

Ancaq sabiq “işıq şefi”nəyə görəsə (!) qurtulmağı bacarır. Nəticədə üç il sonra bütün ölkə işıqsız qalır və bu bardağı daşıran son damlaya çevrilir. Pirverdiyev işdən kənarlaşdırılır. Halbuki onun qanunlar qarşısında cavab verməli olduğu yetərincə qeyri-qanuni əməlləri vardı. Sabiq “işıq şefi”ən azı 2015-ci ildə aşkarlanan mənimsəmələrə görə məsuliyyətə cəlb olunmalıydı. Olunmadı. Belə görünür, zamana ehtiyac var imiş. Nəticədə bu gün Pirverdiyev həbs təhlükəsi ilə üz-üzədir. Sabiq məmurlara qarşı anti-korrupsiya əməliyyatında növbənin ona da çatacağı ehtimalı hazırda çox yüksəkdir...

***Sənan Mirzə***

# Ermənistan daxilində gərginlik yenidən alovlanır

## Rusiyanın Paşinyan hakimiyyətinə qarşı plana işə salınır

***Son günlər Ermənistanın sabiq prezidenti, "Qarabağ klanı"nın əsas fiqurlarından sayılan Robert Koçaryanın baş nazir Nikol Paşinyanı əvəz edəyəci barədə iddialar irəli sürülür. Koçaryanın Moskva səfərindən sonra onun qayıdışının mümkün olduğu ehtimal edilir və bu mövzu erməni ictimaiyyəti tərəfindən geniş müzakirə predmetinə çevrilib. Lakin onun Moskva səfərindən əliboş geri dönməsi bu ehtimalı xeyli zəifləדib.***

Bu barədə "Unikal"a açıqlama verən Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, Robert Köçəryanın yenidən Moskvada peyda olması, onunla intervyu təşkil edilməsi, Serj Sarkisyanın səfir Kopirkinlə görüşə çağırılması və ötən şənbə "Rusiya ilə birgə güclü Ermənistan. Yeni Birlik Uğrunda" hərakatın yaradılması eyni zəncirin həlqələri təsirini bağışlayır: "Belə belədə bu, artıq onların öz işləri olmaqdan çıxır".

Millət vəkili onu da qeyd edib ki, Rusiya ilə Ermənistan arasında əməkdaşlıq nə qədər dərin olacaq bu onlarlıq məsələdir, amma Azərbaycan bu əməkdaşlığın özünün torpaq bütünlüyünə, təhlükəsizliyinə qarşı yönəlməsinə seyrçi qala bilməz və qalmayacaq da: "Mən cənab İlham Əliyev kimi geosiyasi prosesləri çox düzgün qiymətləndirən və uyğun addm atmağı bacaran təcrübəli, iradəli bir lidermizin olmasına, dövlətimizin potensialına, qardaş Türkiyəmizə, bir də "daha dərin, həddən artıq dərin" əməkdaşlığın təkcə Ermənistanın öz təşəbbüsü kimi meydana çıxmadığını, gələcəkdə digərlərinin də oxşar addımlar atmasına çalışılacağını bilən və bunu istəməyən güclərə dayanaraq belə fikirləşirəm".

Politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində deyib ki, həm də Rusiyaya qarşı münasibət birmənalı deyil. Xüsusən də Qarabağ müharibəsindəki ağır məğlubiyyətin fonunda...".

Məhəmməd Əsədullazadə qeyd edib ki, Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanla münasibətlərin normallaşmasında maraqlıdır: "O, üçtərəfli işçi qrupunun müsbət nəticələr əldə edəcəyinə də ümid edir. Paşinyanın əsas hədəfi Ermənistanı blokadadan çıxarmaqdır. Bu baxımdan, Azərbaycanla münasibətlərin kəskinləşməsində maraqlı deyil. ABŞ və Qərbdən hələ də Paşinyana dəstək var, Amerikanın yeni prezidentinin bölgədəki proseslər diqqət artıracağı istisna deyil. Rusiya bu fonda öz mövqelərinin zəifləyəcəyindən ciddi narahatlıq keçirir. Belə bir situasiyada proseslərə nəzarət etmək üçün Köçəryanı qabağa verməsi mümkündür. Rusiya maksimum çalışacaq ki, Köçəryan vasitəsilə görünür ki, hərbi xuntanı Köçəryanın rəhbərliyi altında yenidən Ermənistanda hakimiyyətə gətirmək planlaşdırılır və həmən hərakat da daşnaklarla birgə bu prosesdə yer almaq üçün yaradılıb. Serj Sarkisyana gəldikdə yəqin ondan tələb budur ki, partiyası ən azından Köçəryanın yenidən hakimiyyətə gətirilməsinə maneçilik yaradacaq, Paşinyan əleyhdarlarını parçalayacaq hər hansı bir hərəkətə yol verməsin. Sual oluna bilər ki, ötən əsrin axırlarında regionda baş qaldıran qarşıdurmada öndə gedənlərdən biri-əli azərbaycanlıların qanına batan Köçəryan kimi yaramaz indi hansı məqsədlə meydana atılıb? Bunu bilmək üçün onun geniş paylaşılan sonuncu intervyusunda yer alan bir cümləyə fikir vermək yetər: "Ermənistan Rusiya ilə daha dərin, həddən artıq dərin əməkdaşlığı haqda çox ciddi fikirləşməlidir". "Rusiya ilə daha dərin, həddən artıq dərin əməkdaşlıq" nə ola bilər? Yəqin bu sözdə dövlətin de-fakto quberniyalığının de-yureləşdirilməsidir ki, "Rusiya ilə birgə Güclü Ermənistan. Yeni Birlik Uğrunda" hərəkatın proqramından da bu açıq-aydın görünür. Proqramda "Rusiya-Ermənistan əlaqələrini birlik dövlətinin yaradılmasınadək yeni keyfiyyət mərhələsinə çıxarmaq"dan dəm vurulur.

Əlbəttə, Rusiya-Ermənistan əməkdaşlığı Köçəryanın təbirincə desək, "həddən artıq dərin", hətta ölkəsinin başı görünməyəcək qədər dərin ola bilər və bu onların öz işidir. Ancaq həm Köçəryan, həm də onun üçün Qarabağdakı oyuncaq rejimə "baş nazir"lik və ardından da Krım Parlamentinə sədrlik etmiş Anuşavan Danielyan kimi tiplərdən formalaşdırılan yan-yörəsi sözü gedən "dərin" əməkdaşlığa "rusiyalı sülhməramlılarla birgə Qarabağın təhlükəsizliyinin təmini, Ermənistan ordusunun gücünün bərpası, yeni çağdaş silahlarla təchiz olunması" pəncərəsindən baxırlar ki,



Ermənistanda baş verən son siyasi proseslərin Azərbaycanla münasibətlərə təsiri qaçılmazdır. Onun sözlərinə görə, hazırda Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli işçi qrupu fəaliyyət göstərir: "Bu işçi qrupunun işi sərhədlərin müəyyənləşməsi və regionda nəqliyyat-kommunikasiya xətlərinin açılmasına hesablanıb. Hesab edirəm ki, Ermənistanda hakimiyyət dəyişikliyi baş verib, sabiq prezident Robert Köçəryan iqtidarı ələ keçirərsə, poroseslər 180 dərəcə dəyişə bilər. İlk növbədə, Azərbaycana qarşı münasibətlər kəskinləşərək, Qarabağa separatçı iddialar yenidən baş qaldıracaq. Qənaətimə görə, Rusiya Köçəryanın hakimiyyətə gəlməsində maraqlıdır. Kənardan təlimat alan Köçəryanın Paşinyanı seçki yolu ilə məğlub etməsi bir qədər problematikdir, bu səbəbdən də o, hərbi çevriliş taktikasına əl ata bilər. Ermənistanın ikinci prezidentinin fəallaşması, Ermənistanda gərgin olan situasiyanı bir qədər də mürəkkəbləşdirəcəyi dəqiqdir. "Rusiya ilə birlikdə güclü Ermənistan: yeni ittifaq uğrunda" hərəkatın yaradılması da Köçəryanın planıdır. Amma onun cəmiyyətdən dəstək alacağını demək çətindir. Cəmiyyətdə həm ona, silə müxalifəti toparlasın və parlament seçkilərində ciddi iğtişaşlara gətirib çıxaracaq bir xaos formalaşdırsın. Rusiya əldən çıxmaq üzrə olan regiona tam nəzarətini bərpa etmək istəyir. Paşinyan isə həm bunun, həm də hakimiyyətin əldən çıxmasının qarşısını almaq üçün Qərbdən aldığı dəstəyi artırmağa çalışacaq. Paşinyanın "Qarabağ klanı" ətrafında formalaşan müxalifəti zəiflətmək və Rusiyanın siyasi müqaviməti qırmaq üçün apreldə kütləvi mitinqlərə başlayacağı da gözləniləndir".

Rusiyalı politoloq Oleq Kuznetsov bildirib ki, Kremlin diqqətini cəlb etmək üçün Robert Köçəryan ucuz və bayağı vasitələrdən istifadə edir. Politoloq hesab edir ki, o, bir neçə gün əvvəl Nikol Paşinyanı Aleksey Navalnı ilə müqayisə etdi. Belə bir sadəlövh müqayisə ilə rus siyasi elitasının diqqətini çəkəcəyini düşünür. Onun sözlərinə görə, ancaq Kreml Paşinyanın deyil, Köçəryanın Navalnı ilə eyni olduğunu yaxşı bildiyi üçün bu eyhamlara səssiz qaldı. "Köçəryanın bu keçidi bir daha sübut edir ki, Rusiyadan dəstək xaricində, onun Ermənistan siyasətində güvənəcəyi bir şey yoxdur və bu cür baqajla ölkədə gücünün bərpasına ümid edə bilməz. Bu gün yeri tarixin zibilliyində olan Köçəryan Kremlin rədd etdiyi bir ləkədir. Onun nə xalqına, nə Ermənistanın coğrafi mühitinə, nə də qlobal dünya birliyinə təklif edəcəyi heç nə yoxdur. Köçəryanın Ermənistanı müharibədən sonrakı xaosdan çəkindirmək üçün sistemli bir siyasi və iqtisadi modeli də yoxdur. Böyük siyasətə qayıtdığını elan etməsi ilə nasist "Qarabağ klanının" çürümüş leşinə əsas verməyə çalışdı. Faktiki olaraq bütün ortaqlarını qaçılmaz siyasi repressiyalara məruz qoydu", - deyə tanınmış rusiyalı politoloq əlavə edib.

***Z.Məmmədli***

# Beynəlxalq Türk Dili Günü təsis edilir - Türkdilli ölkələr razılığa gəldi

***"Beynəlxalq Türk Dili Günü"nün təsis edilməsinə dair yekun onlayn məsləhətləşmələr keçirilib.***

Azərbaycan Xarici İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, iclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin UNESCO üzrə Milli Komissiyaları, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı, Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyasının rəsmiləri, Türkiyənin aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Ölkəmizi sözügedən tədbirdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri - UNESCO üzrə AR Milli Komissiyasının Baş katibi Elnur Sultanov təmsil edib. O, "Beynəlxalq Türk Dili Günü"nün təsis edilməsi təşəbbüsünün ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini və məsələnin UNESCO-da baxılması prosesinin intensivləşdirilməsi üçün dəstək verməyə hazır olduğumuzu diqqətə çatdırıb. Baş katib, bu təşəbbüsün türkdilli ölkələrin ortaq tarixi və mədəni dəyərlərinin yaşadılması, gələcək nəsillərə ötürülməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

İclas zamanı "Beynəlxalq Türk Dili Günü"nün təsis edilməsi ilə bağlı məsələlər geniş şəkildə müzakirə edilib, müvafiq iş aparılması və birgə səylərin artırılması barədə razılıq əldə olunub.

Məlum olduğu kimi, dillərin beynəlxalq səviyyədə tanıdılmasını təşviq etmək məqsədilə müvafiq beynəlxalq dil günləri qeyd olunmaqdadır. Bununla əlaqədar, UNESCO üzrə Türkiyə Milli Komissiyası UNESCO çərçivəsində "Beynəlxalq Türk Dili Günü"nün (International Turkic Language Day) təsis olunması təşəbbüsü ilə çıxış edib.

# "Azərbaycan PUA-ları peşəkar tankçılarımızı məhv edib" - Gevorqyan

***Erməni ictimai fəal Aram Gevorqyan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilən tankçı Erik Hacıkyan haqqında məlumat paylaşıb.***

"Unikal" xəbər verir ki, Vanadzordan olan Erik Ermənistandakı Amerika Universitetinin 2-ci kurs tələbəsi olub və 2019-cu ilin yayında orduya çağırılıb:

"O, Rusiyada keçirilən "Kavkaz-2020" təlimlərindən qayıtdıqdan dərhal sonra döyüşlərdə iştirak etmək üçün tankçı kimi cəbhəyə yola düşüb. 16 oktyabr Erik üçün ağır gün oldu. Onun idarə etdiyi tank Xanlıq yaxınlığında Azərbaycan PUA-sı tərəfindən vuruldu. Erik yerindəcə ölüb. Qəribədir ki, elə həmin gün onun qardaşı da ayağından yaralanıb. Yenə də PUA amili. Həmin dövrdə verilən vədlərə inansaq, havaya qalxa bilməyən dron... Komandanlıq heyətinin yarıtmaz işi və nəticədə biz bu xaotik durum üçün bütöv bir nəslin ölümünü ödədik. Biz hər biri ayrıca şəxsiyyət olacaq oğlanları itirdik. Erik isə cəmi 19 yaşında idi".

Məlumatda, həmçinin bildirilib ki, Azərbaycan Ordusunun arsenalında olan yeni nəsil silahlar-PUA-lar Erik kimi güclü təlimlər görmüş xeyli sayda peşəkar tankçını məhv edib.

# Prezident onları təltif etdi - Siyahı



***Prezident İlham Əliyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illiyi münasibətilə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının aşağıdakı əməkdaşları təltif ediliblər:

**"Şöhrət" ordeni ilə**

Hacıyev Fuad Hacı oğlu

**"Tərəqqi" medalı ilə**

Adıgözəlova Leyla Xudat qızı
Cabbarlı Bəhruz Ərzuman oğlu
Əbiyev Qalib Şamil oğlu
Əbiyev Telman Qulam oğlu
Hüseynov Fərhad Cəfər oğlu
Quliyev Yusif Nazir oğlu
Mahmudova Zümrüd Arif qızı.

# Fevralın 15-dən bu şəxslərə ikinci doza vaksin vurulacaq




***Fevralın 15-dən səhiyyə işçilərinə ikinci doza vaksinin vurulmasına başlanılacaq.***

Unikal.org xəbər verir ki, ikinci doza vaksin ilk peyvənd vurulmasından 28 gün sonra tətbiq olunur.

Qeyd edək ki, Azərbaycanda vaksinasiya prosesinə yanvarın 18-dən başlanılıb. İlk mərhələdə səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq mühafizə orqanları tərəfindən əksepidemik tədbirlərə cəlb olunan heyət, ikinci mərhələdə isə tibbi yüksək riskli olanlar (tənəffüs sistemi, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar), 50 yaş və daha yuxarı ən az bir xroniki xəstəliyi olan şəxslər, Təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, ASAN Xidmət və DOST mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərinin və poçt sahəsində birbaşa əhali ilə təmasda olan işçilərin və bank sektorunun birbaşa əhali ilə təmasda olan hissəsi, yüksək riskli şəraitli işlərdə (cəmiyyətin fəaliyyəti üçün həyati vacib sahələrdə çalışan və əhəmiyyətli dərəcədə daha yüksək riskli sahələrdə çalışan - milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s.) şəxslərin peyvənd olunacaq.

Ölkədə Çinin SinoVac şirkətinin istehsal etdiyi "Coronavac" peyvəndindən istifadə olunur.

# Türkiyə-Azərbaycan ortaq hərbi təlimində mühüm mesajlar verildi

***Türkiyənin Qars şəhərində Türkiyə-Azərbaycan ortaq hərbi təlimləri keçirilib. Təlimdə iştirak etmək üçün Azərbaycan Müdafiə Naziri Zakir Həsənov Türkiyəyə səfər edib. Türkiyə və Azərbaycanın müdafiə nazirləri artıq təlimlərin gedişini izləmək üçün Qarsda olublar.***



Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və türkiyəli həmkarı Hulusi Akar Qarsda keçirilən "Qış təlimi-2021" Türkiyə-Azərbaycan birgə təlimlərini izləyəndən sonra ərazidəki səhra çörəkxanasına baş çəkiblər. Türkiyəli nazir çörəklərdən birini götürərək onu həmkarı Z.Həsənovla bölüşüb. Bundan başqa, nazirlər əsas müşahidə məntəqəsində təlimlərlə bağlı məlumat alıblar. Daha sonra hər iki nazir qış mövsümündə ordunun təchizatı ilə məşğul olan heyətin hərbi andını dinləyiblər. Hərbi marş bitdikdən sonra H.Akar və Z.Həsənov birlikdə "Allah türk ordusunu qorusun!" deyiblər.

Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Bunu Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Qars şəhərində keçirilən "Qış təlimi-2021"-in yekun mərhələsində deyib. Nazir çıxışında bildirib ki, bunun təkcə sözdə olmadığını Qarabağdakı 44 günlük müharibə göstərdi. "Minsk qrupu 30 ildə heç bir iş görmədi. Düşmən yeni hücumlara başladı, Azərbaycan yetər artıq deyib, öz torpaqlarını işğaldan azad etdi və bu mübarizəni zəfərlə taclandırdı. Azərbaycanlı qardaşlarımız güvən və rifah içində həyatlarını davam etdirəcəklər. Biz bir millət, iki dövlət, bir yumruq, bir ürək olmaqda qərarlıyıq. Hər zaman Azərbaycanın yanında olduq, bundan sonra da olacağımızı bütün dünyanın bilməsi lazımdır".

"Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularındandır. Qardaş ölkə ilə güclü əməkdaşlığımız mövcuddur. Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən faydalanmaq bizim üçün önəmlidir. Azərbaycan və Türkiyə arasında dərin tarixi, dini və mədəni bağlar var. Ümummilli lider Heydər Əliyev tərəfindən "bir millət, iki dövlət" olaraq ifadə edilən Türkiyə-Azərbaycan münasibətləri bu gün də dövlət başçılarımızın rəhbərliyi altında ümidlə davam edir. Azərbaycanla Türkiyə arasında əlaqələrin və qardaşlığımızın davam etməsində dövlət başçılarımızın töfhəsi böyükdür". Bunu Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Qarsda keçirilən "Qış təlimi-2021" təlimlərində çıxışı zamanı söyləyib. "Müharibə dövründə Türkiyə siyasətini nümayiş etdirdi və bizim yanımızda idi. Siyasi, mənəvi və diplomatik dəstəklərlə yanımızda oldu. Türkiyə bu duruşu ilə dünyaya bu mesajı verdi: Türkiyə Azərbaycanın yanındadır. Bütün dünya bir daha gördü ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır və əbədidir. Türkiyənin yanımızda olması bizi daha da qürurlandırdı, bizə güc verdi. Biz bu gücdən istifadə edərək işğal altındakı torpaqlarımızı azad etdik. Azərbaycan xalqı bunu çox qiymətləndirdi. Türkiyənin bizə verdiyi böyük dəstəkdən dolayı təşəkkürümü bildirmək istəyirəm", - nazir vurğulayıb.

Z.Həsənov İkinci Qarabağ müharibəsində Türkiyə-Azərbaycan münasibətlərini daha da möhkəmləndiyini bildirib: "Azərbaycan və Türkiyə hərbçiləri Azadlıq meydanında Zəfər paradında oldular. Bu tarixi gündə Azərbaycan xalqı da Türkiyə və Azərbaycan bayraqları ilə dəstəyini nümayiş etdirdi. Qış təlimlərimizin də uğurlu, xeyirli keçməsinə ümid edir və hamınızı təbrik edirəm. Əminəm ki, qardaşlığımız, birliyimiz, münasibətlərimiz belə davam edəcək. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!".

***İnformasiya şöbəsi***

# Azərbaycanda vəzifəli şəxs həbs edildi

***Ölkəmizdə həyata keçirilən islahatlara kölgə salan vəzifəli şəxslər tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək qanun pozuntuları törədilməsi hallarına qarşı prokurorluq orqanlarının mübarizə tədbirləri davam etdirilir.***

Mingəçevir şəhər prokurorluğundan Unikal.org-a verilən məlumata görə, həmin tədbirlərdən biri kimi, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin (DƏDRX) 17 saylı Yevlax Ərazi İdarəsinin baş mühəndisi Rövşən İsmayılovun qanunsuz hərəkətləri barədə daxil olmuş müraciət əsasında Mingəçevir şəhər prokurorluğunda araşdırma aparılıb.

Aparılmış araşdırmalarla DƏDRX-nin 17 saylı Yevlax Ərazi İdarəsinin baş mühəndisi Rövşən İsmayılovun Mingəçevir şəhəri, Q.Nəbi küçəsində yerləşən və AzərSu ASC-nin balansında olan 0,20 ha torpaq sahəsinə xüsusi mülkiyyət hüququnu təsdiq edən çıxarışı Elçin Abbasova 700 manat pul müqabilində verməsinə, habelə həmin torpaq sahəsinə Mingəçevir bələdiyyəsinin sabiq sədrinin adından saxta "torpaq sahəsinin cizgisi" sənədini hazırlayaraq vəzifə saxtakarlığı etməsinə əsaslı şübhələr



müəyyən edilib.

Faktla bağlı Mingəçevir şəhər prokurorluğunda cinayət işi başlanmaqla, Rövşən İsmayılov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin müvafiq qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir.

# "Hərbi əsirlərin qaytarılması ilə bağlı Azərbaycan və Ermənistanla iş aparılır" - Zaxarova



***"Hərbi əsirlərin qaytarılması ilə bağlı həm Azərbaycan, həm də Ermənistandan olan həmkarlarımızla iş aparılır".***

Unikal.org xəbər verir ki, bunu Rusiya Xarici işlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, eyni zamanda, regiondakı Rusiya sülhməramlılarının xətti ilə də hərbi əsirlərin qaytarılması istiqamətində iş aparılır.

"Bir müddət öncə Rusiya sülhməramlı qüvvələrinin komandanının vasitəçiliyi ilə hərbi əsirlərin mübadiləsi baş tutub. Bir azərbaycanlı və beş erməni əsir evlərinə qaytarılıb. Ümumilikdə hesab edirik ki, bu problemin optimal həll variantı "hamının hamıya" prinsipidir. Bu, bizim mövqeyimizdir və bu barədə Rusiya Prezidenti və xarici işlər naziri də bəyan edib", - deyə M. Zaxarova vurğulayıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NABO1350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Mehriban Əliyeva ICESCO-nun tədbirində videoformatda çıxış etdi

***ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə fevralın 11-də videokonfrans formatında tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə videoformatda çıxış edib. Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı:

-Hörmətli ICESCO-nun Baş direktoru doktor Salim Al Malik. Xanımlar və cənablar. Əziz dostlar. İlk olaraq belə bir mötəbər tədbirdə fəxri qonaq qismində iştirak üçün nəzakətli dəvətə görə Baş direktora təşəkkürümü bildirmək istərdim.



Bu, mənim üçün böyük şərəfdir və mən bu dəvəti bizim qadınların təhsil və elmdə iştirakının inkişafı ilə bağlı siyasətimizin yüksək qiymətləndirilməsinin təzahürü hesab edirəm.

Mən İslam mədəni irsinin qorunması və müsəlman dünyasında təhsil və elmin təşviqi ilə bağlı İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının nəcib missiyasını təqdir edir və Azərbaycan ilə ICESCO arasında məhsuldar əməkdaşlığı minnətdarlıqla qeyd edirəm.

BMT Baş Assambleyasının qəbul etdiyi, 11 fevral tarixini "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edən qətnaməyə uyğun olaraq, bugünkü müzakirə mövzusuna Baş direktor tərəfindən diqqətin yönəldilməsini alqışlayıram.

Əziz dostlar, qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiya zərurətə çevrilib. Elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" daxil olmaqla, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir.

ICESCO-nu 2021-ci ilin "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsünə görə təbrik etmək istəyirəm. Bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Biz bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik. Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı qadınlarımızla fərəhlənə bilərik.

Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır.

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini və elmi tədqiqatçıların 56 faizini təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizi qadınlardan ibarətdir.

Bununla yanaşı, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Qeyd etdiyim kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələ qızlar və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır.

Bir nümunə olaraq bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız "Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda" adlı mentorluq proqramını qeyd edə bilərəm ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir.

Xanımlar və cənablar, razılaşaq ki, elm, texnologiya və innovasiya dünyada cəmiyyətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsidir. ICESCO-nun xoşməramlı səfiri qismində mən bütün üzv dövlətlərə bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və birgə fəaliyyət planları işləyib hazırlamağa dair çağırış edirəm. Biz qadınlar və qızların sabahın əmək bazarına lazımı bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmləri yaratmalıyıq. Azərbaycan bu mənada öz töhfəsini verməyə hazırdır.

Hörmətli tədbir iştirakçıları, qeyd edilənlərlə yanaşı, mən fürsətdən istifadə edərək, Ermənistanın işğal etdiyi ərazilərimizin 30 ildən sonra Azərbaycan tərəfindən azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnən ötən ilki 44 günlük Vətən müharibəsi zamanı dəyərli dəstəyinə görə ICESCO-ya, şəxsən onun Baş direktoru doktor Salim Al Malikiyə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Bir ay bundan əvvəl Azərbaycan Prezidentinin dəvətinə əsasən Baş direktorun rəhbərliyi ilə ICESCO-nun nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Qonaqlarımız azad olunmuş bəzi ərazilərə səfər etmək imkanı əldə etmiş və onlarla məscidlərimizin təhqir olunması və yüzlərlə tarixi abidələrimizin dağıdılması daxil olmaqla, ümumi dağıntı və vandalizmin miqyasının şahidi olmuşlar.

Hazırda dövlət qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır. Biz bunun öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik. Biz işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ICESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğunu yüksək qiymətləndiririk. Eyni zamanda, ICESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə xüsusi minnətdarlığımızı bildiririk. Həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınlar və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığımızı gücləndirə bilər.

Sonda ICESCO-ya nəcib və mühüm işində uğurlar diləyir, bütün iştirakçılara və onların yaxınlarına cansağlığı, səadət və xoşbəxtlik arzu edirəm. Sağ olun.

***İnformasiya şöbəsi***

# İşdən çıxarılan direktor Ramiz Mehdiyevi məhkəməyə verdi

***AMEA-nın müxbir üzvü Əlövsət Quliyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Ramiz Mehdiyevi məhkəməyə verib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, buna səbəb Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Ə.Quliyevin bülletendə olduğu müddətdə onun R.Mehdiyev tərəfindən işdən çıxarılması olub. Onun yerinə keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, akademik Qərib Məmmədov təyin olunub.

Bundan sonra Ə.Quliyev işə bərpa olunması üçün Yasamal rayon məhkəməsinə müraciət edib. Məhkəmə prosesi davam edir.

***Orxan Həsənli***

# Qərib Məmmədov özünə müavin təyin etdi

***AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru akademik Qərib Məmmədov özünə müavin təyin edib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Q.Məmmədovun əmri ilə, Mürsəl Məmmədov adıçəkilən institutun Ümumi İşlər üzrə direktor müavini təyin edilib. O, bu təyinata qədər həmin institutda sektor müdiri vəzifəsində çalışıb.

Qeyd edək ki, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun sabiq Ümumi İşlər üzrə direktor müavini Afiz İdris oğlu Həsənov bir müddət öncə dünyasını dəyişmişdi.

***Famil Fərhadoğlu***

# FHN əhaliyə azad olunan ərazilərlə bağlı çağırış etdi

***Fövqəladə Hallar Nazirliyi vətəndaşları xüsusi icazə olmadan işğaldan azad edilmiş ərazilərə səfər etməməyə çağırıb.***

FHN-dən "Unikal"a verilən məlumata görə, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, qətiyyətli iradəsi və ordumuzun rəşadəti nəticəsində xalqımızın ən böyük arzusunun gerçəkləşməsi, ərazi bütövlüyümüzün bərpa edilməsi dövlətçiliyimizin ən şərəfli səhifəsidir:

"Bu tarixi Zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoymaqla yanaşı, dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü təsdiqlədi.

Təbii ki, əbədi və əzəli torpaqlarımıza qovuşan hər bir vətəndaşımız səbirsizliklə həmin əraziləri ziyarət etmək istəyir. Lakin mənfur düşmənin törətdiyi əməllərin fəsadları qalmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarımıza xüsusi icazə olmadan gedən mülki vətəndaşlar arasında minaya düşərək həlak olan və ya yaralananlara, təəssüf ki, rast gəlinir.

Mülki əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində üzərinə düşən vəzifəni yerinə yetirən Fövqəladə Hallar Nazirliyi bu təhlükənin mövcudluğunu nəzərə alaraq, bir daha əhalini müvafiq təhlükəsizlik qaydalarına ciddi riayət etməyə, həmin ərazilərə mina və digər partlayıcı maddələrdən təmizlənilməsi əməliyyatları bitənədək icazəsiz səfər etməməyə çağırır və bunun həm də hüquqi məsuliyyət yaratdığını xatırladır".

# Nazir bu rayonun Təhsil Şöbəsinə yeni müdir təyin etdi

***Samux rayon Təhsil Şöbəsinə yeni müdir təyin olunub.***

Unikal.org-un Qərb mərkəzinin verdiyi məlumata əsasən, bununla bağlı Təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Əmrə əsasən, Nurlana Həsənova bu vəzifəni icra edəcək.

N.Həsənova daha öncə Samux rayon 3 nömrəli məktəbin direktoru vəzifəsində çalışıb.

***Elvin Rüstəmov***

# “Qarşıdakı dövrdə bütün sahələr üzrə bahalaşma qaçılmazdır”

## Natiq Cəfərli: “Bəzi məmurlar, deputatlar məntiqə zidd olan müqayisələrlə cəmiyyətdə olan narazılığı daha da artırdıqlarının fərqində deyillər”

***Bir sıra məhsulların qiymətində artım olması cəmiyyətdə birmənalı qarşılanmır. Hökumət nümayəndələri bu artımın iqtisadi əsasını arqumentlərlə sübut etməyə çalışsalar da, əhalinin aztəminatlı hissəsi narahatdır. Real Partiyanın icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli “Unikal” qəzetinə müsahibəsində bu məsələlər barədə fikirlərini bildirib.***

***-Natiq bəy, son dövrlər bir sıra sahələrdə qiymət artımı sosial durumu bir qədər ağırlaşdırıb. Bu barədə fikirlərinizi öyrənmək istərdik.***

-Ölkədəki qiymət artımının hər zaman obyektiv, subyektiv səbəbləri olub. Son illərin analizi göstərir ki, əsasən noyabr ayının sonlarından başlayaraq Novruz Bayramı bitənə qədər ölkədə qiymət artımı yüksələn xətt ürə davam edib. Amma bu il başqa səbəblər də onun üzərinə gəldi. Yanacağın qiymətinin artması, logistikanın bahalaşmasına səbəb oldu. Amma onu da deyim ki, dizel yanacağının qiymətinin artması qiymətlərə təsirini tam göstərməyib. Yerli məhsullar bazara çıxarılanda, təqribən yaz aylarından başlayaraq, əkin-biçin işləri dizel yanacağı ilə olduğundan bahalaşma bu məhsulların maya dəyərində oturacaq. Çox güman ki, kənd təsərrüfatı məhsullarının bahalaşmasını yaz aylarından başlayaraq hiss edəcəyik. Onu da qeyd edim ki, son dövrlər dünyada da qiymətlərin artımının şahidi oluruq. Ərzaq məhsullarının indeksi son bir il ərzində 10 faizə qədər yüksəlib. Bu, həm pandemiya, həm də bəzi ölkələrin qoruyucu tədbirləri ilə əlaqədardır. Ərzaq məhsullarının ixracatına bəzi məhdudiyyətlər qoyulub. Bu da dünya birjalarında ərzaq indeksinin yüksəlməsinə səbəb oldu. Bütün bunlar obyektiv səbəblərdir və Azərbaycan hökumətinin bunun qarşısını almaq imkanları yoxdur.

***-Bəs subyektiv səbəblər hansılardır ki, hökumət ona müdaxilə edə bilərdi?***

-Subyektiv səbəblər Azərbaycandakı ənənəvi xroniki xəstəliklərlə bağlıdır. Çünki Azərbaycanda pərakəndə satış kifayət qədər rəqabətli olsa da, topdansatış mərkəzlərində inhisarçılıq meylləri, bazara nəzarət mexanizmləri qalmaqdadır. Yəni, topdansatış bazarında ölkəyə mal gətirilməsində, ölkə daxilində mal istehsalında böyük şirkətlər dominant rol oynayırlar, xırda və orta sahibkarların həmin bazara girməsi çətinləşir, yaxud da mümkünsüz olur.

***-Bir sıra sosial ödənişlərin artırılması ilə bağlı qərar verilib. Amma təbii ki, qiymət artımı ilə müqayisədə olduqca azdır.***

- Əlbəttə. Prezidentin fərmanına görə ölkə üzrə təqaüdçülərin 93%-nin - 1 milyon 143 min nəfərin pensiyası 11,4% artırılır. Ayın əvvəlində dizelin qiymətinin 34%-ə yaxın artması bütün ərzaq məhsullarının ortalama 10% civarında, bəzi məhsullarda 20-30% bahalaşmasına səbəb olub. Bu hələ son deyil: Yazdan başlayaraq yerli aqrar məhsullar artıq yeni, 2020-ci ilin yaz-yayına nisbətən daha baha qiymətə bazara çıxarılacaq - çünki, aqrar sektorda maya dəyərinin 30-40% arasını məhz dizel yanacağı təşkil edir. Suyun qiymətinin 100%, ərzağın isə 10-15% artması təqaüd artımını bəri başdan “yeyir”. Qarşıda isə bizi qaz-işıq qiymətlərinin, nəqliyyat tariflərinin artması gözləyir. Bir sözlə, qarşıdakı dövrdə bütün sahələr üzrə bahalaşma qaçılmazdır.

***-Ancaq hökumət nümayəndələri, bəzi deputatlar qiymət artımı ilə bağlı önləyici addımların atıldığını bildirirlər...***

-Azərbaycanda bəzi deputatlar, məmurlar ölkədə olan kommunal xərcləri, ictimai nəqliyyatda gediş haqqını teztez Avropa ölkələri ilə müqayisə edərək, “görürsüz, bizdə ucuzluqdu”, deyirlər. Amma heç biri Avropadakı maaşları, sosial yardımları, təqaüdləri yada belə salmırlar. Bu alma ilə armudu deyil , alma ilə süzməni müqayisə etmək kimi bir şeydi. Azərbaycanda minimum əmək haqqı 250 manatdır - bugünkü məzənnə ilə 124 avro. Avropanın ən kasıb ölkəsi olan Bolqarıstanda isə minimum əmək haqqı 332 avrodur, yəni 680 manat. Keçmiş SSRİ Respublikalarından Litvada minimum əmək haqqı 642 avro - 1315 manat, Estoniyada 584 avro -1197 manat, Latviyada isə 500 avrodur - 1025 manat. Mən bilərəkdən Şərqi Avropa və keçmiş SSRİ-yə aid olan ölkələrdən misal çəkdim. Amma bizim bəzi qalstuklu müəllimlər Almaniyanı, Fransanı misal çəkirlər, Almaniyada minimum əmək haqqı 1614 avro - 3308 manat, Fransada isə 1555 avro - 3187 manat təşkil edir. Yəni, hökumət nümayəndələri müqayisə aparanda özlərinə uyğun açıqlama vermək lazım deyil. Ağıla, məntiqə ziyanlı olan müqayisələrlə bəzi məmurlar, deputatlar cəmiyyətdə olan narazılığı daha da artırdıqlarının fərqində belə deyillər.

***-Natiq bəy, paralel olaraq korrupsiyaya qarşı mübarizə tədbirləri də gücləndirilib. Keçmiş nazirlərin və onlara bağlı məmurların həbsi gündəmə gəlib. Sizcə, ciddi nəticələr olacaq, yoxsa...***

-Azərbaycanda büdcə vəsaitlərinin məmurlar tərəfindən mənimsənilməsi, korrupsiyaya yem olması yenilik deyil. Sadəcə, bu həbslər müəyyən ümid yaradır ki, bu sahədə hansısa yeniliklər ola bilər. Büdcədən xərclənmələrə nəzarət olunması sahəsində başlanğıc və sair. Amma bu həbslər də yetərli deyil. Cəza mexanizmləri təkmilləşdirilməlidir. Uzun illər cəzasızlıq mühiti bu problemlərə yol açıb. Tək həbslərlə bunun qarşısını almaq çətin məsələdir. Ölkədə sistemli və struktur islahatlara ehtiyac var. Elə mexanizm qurmağa çalışmalıyıq ki, bu cür əməllərə ümumiyyətlə yer qalmasın. Bu artıq böyük dəyişikliklər tələb edir. Məsələn, icra hakimiyyətləri strukturunda nə qədər həbslər, nə qədər işdən çıxarma olmalıdır ki, bu təsisatın nüfuzdan düşdüyü, qarşıya qoyulmuş tələblərə uyğun gəlmədiyi sübut olunsun. İnstitusional islahatlar lazımdır. Nazirlər Kabinetində, digər orqanlarda idarəçilik sistemi yenilənməlidir. Bu sahədə qanunvericilik bazası formalaşdırılmalıdır. Korrupsiya və mənimsəmələrin qarşısını almaq üçün cəza yetərli deyil. Vətəndaşların ictimai nəzarətini artırmaq üçün QHT-lərlə bağlı qanunvericiliyə pozitiv dəyişikliklər edilməlidir. KİV haqqında qanuna da. Jurnalistlərin və media orqanlarının effektiv ictimai nəzarətini təmin etmək lazımdır. Yəni kompleks yanaşmaya ehtiyac var. Bu vaxta kimi edilmiş cinayətlərin cəzası ilə yanaşı, bundan sonra baş vermə ehtimalı olan bu cür cinayətlərin qarşısını almaq üçün mexanizmlər yaradılmalıdır.

***-Bu dəyişikliklərin edilməsinə mane olan nədir? Bir fərmanla, sərəncamla buna nail olmaq mümkün deyilmi?***

-Düşünürəm ki, bu çox qəliz məsələdir. Ona görə də konstitusion dəyişikliklərə ehtiyac var. Bir nəfərin fərman-sərəncamı , onun məsələyə münasibəti ilə olmamalıdır. Yeni konstitusiya yazılmalıdır. Yerli özünüidarəetmə orqanları gücləndirilməli, icra hakimiyyətləri ləğv olunmalıdır. Məsələn, istənilən sayda təyin olunması mümkün olan vitse-prezident institutu var. Əgər bu tətbiq edilmirsə, - doğru olaraq tətbiq edilmir, çünki onda Nazirlər Kabineti lüzumsuz quruma çevrilər - onu konstitusiyada saxlamağın nə mənası var? Ləğv olunmalıdır. Nazirlər Kabinetinin statusu dəyişdirilməlidir. Onun parlamentlə bağları yaranmalı, hesabatlılıq



təmin olunmalıdır. Parlamentin özündə say tərkibindən tutmuş funksional səlahiyyətlərə qədər dəyişikliklərə ehtiyac var. Proporsional seçki sisteminə keçid baş tutmalıdır ki, siyasi partiyalar effektiv nəzarət mexanizminin parçasına çevrilsinlər. Yəni konstitusional dəyişikliklərə ehtiyac var.

***-Yenə də, bunlar o qədər çətin işlər deyil.***

-Əlbəttə. Sadəcə siyasi iradə lazımdır.

***-İddia olunur ki, hakimiyyətin içində olan müəyyən qüvvələr, “5-ci kolon” adlandırılanlar var ki, islahatların həyata keçirilməsinə mane olur. Bu barədə nə düşünürsünüz?***

-Əslində bu söhbət yeni deyil. Çoxdan yayılmış məsələdir və müəyyən mənada əsası da var. Amma hakimiyyət ciddi dəyişikliklərə getmək istəyirsə, keçmişdə qanunsuzluqlar törətmiş bəzi qüvvələr özünü qoruma instinktinə keçə bilər. Söhbət keçmiş məmurlardan gedir. Onların kifayət qədər maliyyə və inzibati resursları mövcuddur. Çünki zamanında çoxlarını işə götürüblər, çoxlarının işini görüblər. Resursları var. Ona görə də sistemli və institusional mübarizə aparılmasa, tədbirlər fərdi qaydada davam etdirilsə, bu qüvvələrin müəyyən təxribatlar törətməsi, çaxnaşma yaratması ehtimalları var. Bu ciddi təhlükədir. Düşünürəm ki, institusional dəyişikliklər və konstitusion islahatlar şərtdir ki, onların təsir imkanı zəifləsin və ölkədə baş verən siyasi proseslərə təsirləri getdikcə sıfra ensin.

***Z.Məmmədli***

# Fazil Məmmədovun müəmmalı gedişi...

## Keçmiş vergilər naziri obyektlərini niyə ucdantutma satır?

***Yola salmaq üzrə olduğumuz həftə yerli KİV keçmiş vergilər naziri Fazil Məmmədovun yaşadığı Şəmkir rayonunda olan mülklərini satışa çıxardığı barədə məlumat yayıb. Bildirilib ki, Məmmədovun özü də hazırda bu rayondakı malikanəsində yaşayır və səhhəti normallaşıb.***

Sabiq nazirin satışa çıxardığı mülklərdən birinin məşhur "Excelsior Hotel Shamkir" olduğu qeyd edilir. Vurğulanır ki, F.Məmmədov oteli hansı qiymətə satdığı haqda heç bir məlumat yoxdur. Sözügedən otel Cəyirçay çayının sahilində, Dəllər kəndinin 4 km-də yerləşir. Bu beşulduzlu otel "Excelsior" şəbəkəsinə daxildir. Eks-nazirin mülklərini qəfil şəkildə satışa çıxarması maraq doğurub. Onun belə bir addım atmasının hansı ehtiyacdan irəli gəldiyi yaranan əsas suallardandır.



"Unikal" bu suala cavab tapmaq üçün araşdırma aparıb. Keçmiş "vergi şefi"nə yaxın qaynaqlardan əldə etdiyimiz məlumata görə, sağlamlığındakı ağır problemləri xeyli dərəcədə aradan qaldırsa da, F.Məmmədov biznesinin üzləşdiyi çətin durumu yoluna qoya bilmir. "Fazil müəllim nazir vəzifəsini itirəndən sonra onun biznesində ciddi geriləmə müşahidə olunurdu.

Son iki ildə isə bu geriləmə daha da sürətlənib və qarşısıalınmaz prosesə çevrili" deyən mənbələrin sözlərinə görə, bir müddət əvvəl eks "vergi şefi"nə məxsus "Synergy Group"un batmaqda olduğu barədə qəzetimizdə dərc olunan məlumatlar tamamilə həqiqəti əks etdirir. " Bir neçə il əvvələdək şirkətlər qrupunda rəsmi olaraq, 30-a yaxın, qeyri-rəsmi isə 60-dan çox şirkət birləşmişdi. Həmin şirkətlərin bəzisində xarici kapital da iştirak edirdi. Lakin Fazil müəllimin "vurulmasından sonar" bu şirkətlərin çoxu tədricən fəaliyyətini dayandırdı. Keçmiş nazir əsasən Şəmkir rayonundakı biznesinə üstünlük verməyə başladı.

"Synergy Group"un tərkibindəki "Excelsior Hotel Shamkir", "AzAqro" qızılgül istixanaları, Zəyəm Texnologiyalar Parkı, "Zəka" Gənclər Mərkəzi kimi bəzi şirkətlər məhz vəzifədə olarkən Fazil Məmmədovun kurasiyasında olan Şəmkirdə yerləşir. Fazil müəllim nazir postunu itirdikdən bir müddət sonra hələ də bu rayonda söz sahibi idi. Ancaq son iki ildə onun Şəmkirdəki təsir imkanları kəskin azaldı. İndi onun Şəmkirdəki mülklərini satışa çıxarması həm eks nazirin biznesinin böhranlı vəziyyətə düşməsi, həm də bir zaman kuratoru olduğu rayonun onun təsir dairəsindən tam çıxması ilə izah edilə bilər" deyə mənbələrimiz vurğulayıblar.

Xatırladaq ki, ötən ay "Unikal" olaraq 2010-cu ildə təsis edilən, dörd il öncə isə sabiq "vergilər Şefi"nə aid başqa bir şirkətlər qrupunu - "ATA Holdinq"i də öz tərkibinə keçirən "Synergy Group" MMC-nin Fazil Məmmədov nazir olarkən istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar etdiyini vurğulamışdıq. Yazmışdıq ki, holdinq qısa vaxtda Azərbaycanda fəaliyyət göstərən ən iri özəl investisiya şirkətlərindən birinə çevrilib, qeyri- neft sektorunda müxtəlif və inkişaf yönümlü şirkətlərdən ibarət holdinq kimi tanıdılıb. İki-üç il öncəyədək qrupa daxil olan şirkətlərin böyük əksəriyyəti Bakıdan kənarda yerləşməklə, regionların sosial-iqtisadi inkişafında mühüm paya malik olduğu bildirilirdi.

Lakin F.Məmmədovun "vurulmasından" sonra zəifləməyə doğru gedən bu holdinq təxminən iki ildir ki, fəaliyyətini böyük ölçüdə itirib, bir az da konkretləşdirsək iflic vəziyyətinə düşüb. Başqa bir qaynaqdan yeni əldə etdiyimiz məlumata görə isə F.Məmmədovun Şəmkirdəki mülklərini satışa çıxarması onun biznesinin çöküşü, iri borclarının olması, yaxud da adıçəkilən rayonda təsiri imkanlarını itirməsi ilə izah edilə bilməz. Mümkündür ki, son vaxtlar sabiq məmurlara qarşı da anti- korrupsiya əməliyyatlarına start verilməsi sabiq "vergi şefi"ni həyəcanlandırıb. İstisna deyil ki, özünə qarşı təhlükə hiss edən Məmmədov mülklərini sataraq ya bu "korrupsiya yükündən" qurtulmaq, nəticə etibarilə əslində deyildiyi kimi böyük varidata sahib olmadığı barədə rəy formalaşdırmaq, ciddi böhran və ehtiyac içində olduğu haqda qənaət yaratmaq istəyir, ya da bu mülkləri hər hansı formada itirəcəyini düşünərək bəri başdan əldən çıxarmağı hesablayıb.

İstənilən halda keçmiş nazirin məhz genişmiqyaslı korrupsiya həbsləri fonunda mülklərini satması düşündürücüdür...

***Orxan Həsənli***



# Baş həkimin həbsindən sonra xəstəxana bağlanıb, əlillər müayinədən keçə bilmir

***Məlum olduğu kimi, ötən ay Masallı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Cəlil Nəzərov və baş mühasibi Sətulla Məmmədov Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılıblar. Hazırda xəstəxanada korrupsiya faktları ilə bağlı araşdırma gedir. Bu səbəbdən də xəstələrin müayinəsi məhdudlaşdırılıb. Nəticədə, rayonda əlilliyə görə təkrar müayinədən keçmək istəyən sakinlər üçün ciddi problemlər yaranıb.***

Bu şikayətlə "Qafqazinfo"ya Masallı rayon sakinləri tərəfindən bir neçə müraciət daxil olub. Onlar bildirirlər ki, əlilliyə görə pensiya və sosial müavinət alan şəxslər təkrar müayinədən keçmək üçün Masallı Rayon Mərkəzi Xəstəxanasına müraciət etsələr də, onlara hazırda araşdırma aparıldığını və xəstəxanada əlilliklə bağlı müayinələrin dayandırıldığını deyiblər.

Bəs müayinə vaxtı çatan şəxslər hara müraciət etməlidirlər? Müayinələr hansı müddətdən sonra bərpa olunacaq? Vaxtında müraciət etmədiyinə görə vətəndaşlarla bağlı hər hansı cərimə nəzərdə tutulurmu?

Bu barədə məlumat almaq üçün Masallı rayon Mərkəzi Xəstəxanasında baş həkimin səlahiyyətləri həvalə olunan Rasim Əzizovla əlaqə saxladıq. O bildirdi ki, korrupsiya faktları ilə bağlı araşdırma aparıldığından xəstəxana müvəqqəti bağlanıb. Təxminən 10 günə xəstəxana açılacaq və əlilliyə görə müayinə olunmaq istəyən şəxslər də həmin vaxt müraciət edə bilərlər:

"5-10 gün sonra bütün sənədlər aidiyyatı üzrə ötürüləcək. Əlillik meyarlarına uyğun olanlar pensiya ala biləcəklər".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyindən isə bildirilib ki, vətəndaş müəyyən müddət itirəcək və həmin müddət ərzində pensiya və ya sosial müavinət almayacaq.

"Vaxtında səhiyyə müəssisəsinə müraciət edib, həkim komissiyasından keçərək Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminə göndəriş (forma 88) daxil edilməlidir. Təyinat vaxtında aparılsa, vətəndaş vaxtında sosial müavinət və ya əmək pensiyası ilə təmin olunar. Lakin bu halda müəyyən müddət itəcək və vətəndaşın vaxtında arasıkəsilmədən sosial müavinət almaq şansı azalacaq".

Agentlikdən həmçinin bildirilib ki, qanunvericiliyə əsasən, "forma 88" Alt Sistemə daxil edildikdən sonra əlillik 10-15 iş günü ərzində qiymətləndirilir.

# Baş Prokurorluqda "Qanun keşikçiləri" filminin təqdimatı oldu

***Fevralın 11-də paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə ünvanında yerləşən Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti ilə yerində tanış olmaq, habelə bu barədə geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi ilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən media-tur təşkil edilmişdir.***

Unikal.org xəbər verir ki, mediaturdan sonra "Qanun keşikçiləri" adlı bədii sənədli filmin təqdimatı həyata keçirilmiş, daha sonra Baş Prokuror Kamran Əliyevin rəhbərliyi, prokurorluq əməkdaşlarının, o cümlədən kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə film seyr edilmişdir.

Filmin təqdimatı zamanı qeyd olunmuşdur ki, prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onları məmnun edən kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Bildirilmişdir ki, vətəndaş məmnunluğunun təmin edilməsi, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlığın təmin edilməsi, maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə daim prokurorluq orqanları tərəfindən kompleks tədbirlər görülməkdədir.

Nəzərə çatdırılmışdır ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, Azərbaycan Prokurorluğunun keçdiyi bir əsrlik inkişaf yolunu özündə əks etdirən "Qanun keşikçiləri" adlı bədii sənədli film ərsəyə gətirilmişdir.

Vurğulanmışdır ki, dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları arasında mühüm rola malik olan prokurorluq orqanlarının 102 illik fəaliyyətinə qısa səyahət olan bu film onun dünəni və bu gününü əks etdirir.



Bildirilmişdir ki, Baş Prokurorluğun Mətbuat xidmətinin təşkilatçılığı ilə ərsəyə gəlmiş filmin rejissoru Ramil Ağasıyev, ssenarist jurnalist Lalə Ədalət qızıdır. Filmin baş qəhrəmanı-prokuror rolunun ifaçısı aktyor, əməkdar artist Elşən Rüstəmovdur.

Vurğulanmışdır ki, respublika prokurorluğunun əməkdaşlarının da iştirak etdiyi bu film prokurorluqda aparılan son islahatları, müsbət inkişafı əhatə edir.

# Daha bir qazi özünüməşğulluq proqramına cəlb edildi

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətən müharibəsi qazisini özünüməşğulluq proqramına cəlb edib.*

Nazirlikdən "Unikal"a verilən məlumata görə, Astara rayon sakini Quliyev Eldar Fərzəli oğlu da Vətən müharibəsində iştirak edərək, Qələbəmizə öz töhfəsini verib.

95 min pensiya və təqaüd təyinatı e-qaydada aparılıbDöyüşlər zamanı xəsarətlər almış qazimizi bu günlərdə evində ziyarət edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları onun əlilliyinin qiymətləndirilməsinin aparılacağı barədə məlumat veriblər. Bildirilib ki, əlillik dərəcəsi təyin edildiyi halda qaziyə birdəflik və aylıq sosial ödənişlər veriləcək.

Ailənin sosial vəziyyəti öyrənilib. Müəyyən olunub ki, E.Quliyev müddətdən artıq hərbi xidmət edən şəxsdir. Anası I dərəcə əlilliyi olan şəxs kimi aylıq pensiya və təqaüdlə təmin edilir.

Ailəli olan Eldarın həyat yoldaşının hazırda işləmədiyi və istəyi nəzərə alınaraq o, un məmulatlarının istehsalı sahəsi üzrə kiçik müəssisəsini qurmaq üçün özünüməşğulluq proqramına cəlb olunub. Biznes planı uğurla müdafiə etdikdən sonra aktivlərlə təmin olunacaq.

# Xocavənddə minalar aşkar edildi

*Laçın Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən minaların aşkar edilməsi istiqamətində uğurlu tədbir həyata keçirilib.*

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a verilən məlumata görə, Laçın Rayon Polis Şöbəsinin əməkdaşları xidməti fəaliyyətlə əlaqədar Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində olan zaman orada düşmən tərəfindən qoyulmuş xeyli sayda mina aşkar ediblər.

Dərhal bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlarına məlumat verilib. Əraziyə baxış keçirilən zaman müxtəlif adda tank və piyada əleyhinə 33 ədəd mina müəyyən edilib və müvafiq tədbirlərlə həmin minaların təhlükəsiz şəkildə partladılması təmin olunub.

# Magistraturaya sənəd qəbulu davam edir

*2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına sənəd qəbulu davam edir.*

Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, qəbul imtahanında iştirak etmək üçün bakalavrların ərizələrinin qəbulu internet vasitəsilə aparılır.

1700-dən çox bakalavr ərizəsini təsdiqlədibİmtahanda iştirak etmək üçün bakalavr DİM-in internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği (50 AZN) "Şəxsi kabinet"indəki hesabına əlavə edir. Hesaba məbləği əlavə etmək üçün ödəniş üsulları ilə epayment.dim.gov.az internet səhifəsində tanış olmaq mümkündür.

Bakalavr "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə fevralın 18-i saat 23:59-dək DİM-in internet saytının müvafiq səhifəsinə (https://azvision.az/redirect.php?url=http://eservices.dim.gov.az/erizemag/erize) daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurur və təsdiq edir. Bu gün saat 10:30-a olan məlumata görə, 3399 bakalavr (Azərbaycan bölməsi - 3061, rus bölməsi - 338) ərizəsini təsdiqləyib.

# Fevral ayının pensiyaları artımla birgə ödənildi

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə fevral ayının pensiyaları ödənilib.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Unikal.org-a verilən məlumata görə, vətəndaşlar pensiyalarını onlara verilmiş bank kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

Yaxın günlərdə respublikamızın digər şəhər və rayonları üzrə, həmçinin dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslərə pensiyaların ödənişi aparılacaq.

Xatırladaq ki, yanvar ayının pensiyalarına indeksasiya nəticəsində edilmiş artımlar fevral ayının pensiyalarına əlavə edilib.

# Ziya Məmmədova nazir olarkən cinayət işi açılmamasının sirri...

## Sabiq "nəqliyyat şefi" vəzifədə ikən nə üçün korrupsiya əməllərinə rahatlıqla davam edirdi?

***Son vaxtlar Azərbaycanda gündəmin başlıca mövzularından biri eks məmurların korrupsiya əməlləridir. Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun həbsindən sonra daha da aktuallaşan bu mövzu digər keçmiş nazirlərin, komitə sədrlərinin və başqa iri vəzifə sahiblərinin adını yenidən ön plana çıxarıb. Bu sırada uzun illər Nəqliyyat Nazirliyinə rəhbərlik etmiş və bu müddətdə adı böyük məbləğlərlə ifadə olunan korrupsiya əməliyyatlarında hallanmış Ziya Məmmədovun ətrafında cərəyan edənlər diqqətçəkicidir.***

Belə ki, S.Müslümovun həbsindən qısa müddət sonra Z.Məmmədovun da istintaqa cəlb edildiyi barədə məlumat yayıldı. Ardınca isə onun Bakıdakı tubnellərdən birinin inşasına fantastik məbləğdə - yarım milyon manatdan çox vəsait xərclədiyinə dair iddia gündəmə gəldi. Bütün bunlardan belə anlamaq olar ki, eks məmurlarla bağlı anti-korrupsiya əməliyyatlarında sıra Ziya müəllimə də çatacaq. Hərçənd onun yola salmaq üzrə olduğumuz həftə Unikal.org-a verdiyi və ölkədə böyük rezonans doğuran açıqlamadan elə anlamaq olar ki, sabiq nazir vəzifədə olduğu müddətdə dövlətin bir qəpiyinə belə yan gözlə baxmayıb. Hazırda doğulduğu rayonda, Ucarda yaşadığını deyən, kənd təsərrüfatı ilə məşğul olduğunu, arpa, buğda, yonca əkib mal-qara saxladığını deyən Məmmədov ardınca əlavə edirdi: "... dolanmaq lazımdır. İndiki dövrdə dolanmaq asan deyil".



Yuxarıda da vurğuladığımız kimi, sabiq nazirin fəaliyyətindən xəbərsiz olanlar bu sözləri oxuduqdan sonra düşünə bilər ki, o, artıq ləğv edilmiş Nəqliyyat Nazirliyinə rəhbərlik edərkən büdcədən bir qəpik belə mənimsəməyib, tam şəffaf fəaliyyət göstərib, indi isə dolana bilmək üçün kənd təsərrüfatına baş vurub!

Halbuki reallıq tamamilə başqadır: Ziya müəllim nazir olarkən fantastik dərəcədə böyük büdcə pullarını xərcləmək səlahiyyətinə malik idi və xərcləyirdi! Lakin həmin pulların böyük hissəsinin korrupsiya predmetinə çevrildiyi vəsaitlərin yönəldildiyi layihələrin keyfiyyətsiz icrasından hamıya yaxşı məlumdur. Məsələn, onmilyonlarla manata başa gələn və 25-30 illik istismar müddəti qoyulan yolların cəmi bir neçə ay sonra dağılmağa başladığını, təmirə dayandığını xatırlamaq kifayətdir.

Qısası, Ziya müəllimi elə vəzifədə olarkən istintaqa cəlb etmək üçün kifayət qədər şübhələr, faktlar, iddia və ittihamlar vardı. Mətbuat səhifələrini bəzəyən həmin korrupsiya iddialarının, şübhələrinin zamanında araşdırılmamasının isə səbəbi kifayət qədər ilgincdir. Belə ki, onun Nəqliyyat Nazirliyinə rəhbərliyi zamanı bu qurum xüsusilə Bakı şəhərində yolların, tunel və körpülərin inşasını əsasən "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-yə həvalə edirdi. Məsələn, "Gənclik" metro stansiyasının ətrafındakı "Qələbə meydanı" adlanan ərazidə və onunla kəsişən yollarda nəqliyyatın hərəkətinin nizamlanmasını, tıxacların aradan qaldırılmasını və işıqforsuz hərəkət rejiminin təminini nəzərdə tutan, kifayət qədər böyük büdcəyə malik layihənin icrasını məhz "Akkord" həyata keçirmişdi. Yaxud çəkildikdıən qısa müddət sonra bir neçə dəfə çökən Bakı-Quba-Rusiya yolu da adıçəkilən şirkət tərəfindən istismara verilmişdi. Həmin yolun onillərlə davamlı olacağı barədə açıqlama verilsə və yolun tikintisi 147 milyon manata (hər kilometri 1,1 milyon manata!) başa gəlsə də, açılışından aylar sonra tez-tez təmirə ehtiyac yaranmışdı. Üstəlik, yolun beton örtüyü xüsusi istilik sistemilə quraşdırılmalı olsa da, sonradan bu ideya reallaşmadı, yeni yol elə adi beton örtüklü yol çəkildi və istifadəyə verildi.

Ziya Məmmədovla "Akkord"un işbirliyinə dair nümunələrin sayını artırmaq olar. Bəs onun məhz bu ASC ilə sıx əməkdaşlığının səbəbi nə idi? Məsələ burasındadır ki, həmin şirkət keçmiş baş prokuror Zakir Qaralovun nəzarətində idi. Elə ona görə də sabiq nazir korrupsiya əməllərinə qorxuhürküsüz davam edirdi. Çünki şirkətinə hər il on milyonlarla manatlıq sifariş verdiyi üçün baş prokurorun Nəqliyyat Nazirliyini çulğamış yeyinti, mənimsəmə halları ilə bağlı cinayət işi qaldırmayacağına əmin idi. Necə ki elə bu cür də oldu...

İndi isə vəziyyət tamamilə dəyişib. Baş prokurorluq digər hüquq-mühafizə orqanları ilə birgə genişmiqyaslı anti-korrupsiya tədbirlərinə start verib. Bu tədbirlər yalnız hazırda vəzifədə olan və büdcə vəsaitlərini talayan, rüşvətə bulaşan şəxslərə yönəlməyib, eyni zamanda vaxtilə misli görünməmiş korrupsiya əməllərinə imza atan sabiqlərə də yönəlib. Onların arasında məhz Ziya Məmmədovun olacağına isə nə cəmiyyət, nə də mətbuat artıq zərrə qədər şübhə eləmir...

***Elvin Rüstəmov***

# Əbülfəs Qarayev cinayət məsuliyyətinə cəlb edilə bilər

## Sabiq nazir davam edən istintaqın sonunda sürpriz gözləməsi istisna deyil



***Məlum olduğu kimi, ötən il mayın 9-da Səbail Rayon Məhkəməsində Mədəniyyət nazirinin sabiq müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sabiq rəisi Zakir Sultanovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının təqdimatına baxılıb. Hakim Şahin Abdullayevin sədrlik etdiyi iclasda qərar elan edilib. Qərara əsasən, hər iki şəxs barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.***

Hər iki şəxs Cinayət Məcəlləsinin 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 179-cu (mənimsəmə) maddələri ilə ittiham olunur.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları mayın 8-də Mədəniyyət Nazirliyində əməliyyat keçirib və əməliyyat zamanı hər iki şəxs saxlanılıb.

Ertəsi gün Rafiq Abbasov və Zakir Sultanovun vəzifələrindən azad edilməsi barədə sərəncamlar imzalanıb.

Bundan bir müddət sonra isə Unikal.org saytı Mədəniyyət Nazirliyində yoxlama aparılması barədə xəbər yayıb. Məlumatda bildirilib ki, Hesablama Palatası sabiq nazir Əbülfəs Qarayevin işlədiyi dövrü təftiş edir. Qeyd olunub ki, yoxlamaya səbəb olan faktlar arasında Rusiyanın titullu şəxslərindən birinə qanunsuz ödəniş edilməsi də var. Adı açıqlanmayan həmin şəxs Azərbaycan Dövlət Rəqs Ansamblının yeni konsert proqramına hazırlıq və komandada islahatların aparılması ilə əlaqədar Bakıya dəvət olunub. Rusiya Federasiyasının Xalq rəssamının Bakıda olmadığı və dövlətə heç bir xidmət göstərmədiyi beş ay və 15 gün ərzində onun bank hesabına 26,2 min manat köçürülüb, mənzil kirayəsi üçün isə 7,2 min manat ödənilib.

Bundan əlavə, Hesablama Palatası tərəfindən aparılan yoxlamalar nəticəsində Mədəniyyət Nazirliyinin nəzdindəki Azərbaycan Dövlət Filarmoniyasında vergidən yayınma halları aşkar edilib. 2017-2018-ci illər üçün maliyyə hesabatlarında filarmoniya xərcləri müvafiq olaraq 59 min 759 manat və 64 min 259 manat artım göstərilib. Nəticədə filarmoniya dövlət büdcəsinə mənfəət vergisini müvafiq olaraq 11,952 manat və 12,848 manat ödəməyib. Palata Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının 2017-ci ildə gəlir vergisi üçün 2,760 manat, 2018-ci ildə isə 14,580 manat ödəmədiyini aşkarlayıb.

Əslində keçmiş Mədəniyyət naziri ilə bağlı korrupsiya faktlarının miqyası daha genişdir. Elə həmin faktlar da Əbülfəs Qarayevin istintaqa cəlb edilməsini və barəsində qanunvericiliyin müvafiq tələblərinə uyğun ciddi ölçülərin götürülməsini qaçılmaz zərurətə çevirirdi. Lakin o, hələlik yaxasını kənara çəkməyi bacarır.

Ancaq son zamanlar eks məmurlara qarşı anti-korrupsiya əməliyyatları Qarayevin saxlanılmış işləri ilə bağlı davam edən istintaqa cəlb edilməsinin mümkünlüyünü gündəmə gətirib. Belə iddialar var ki, istintaqın sonunda sabiq nazirin özünün də cinayət məsuliyyətinə cəlb edilməsi sürpriz olmazdı. Əlbəttə, bu ehtimalın özünü doğruldubdoğrultmayacağını zaman göstərəcək.

Lakin dediyimiz kimi, əgər həmin iddia gerçəkləşərsə nə cəmiyyətdə, nə də mətbuatda təəccüblə qarşılanmayacaq. Çünki hər kəs bilir ki, Mədəniyyət Nazirliyində yeyintilər dərin kök salıb, bu barədə təkzibolunmaz faktlar mövcuddur. Həmin faktların bir ucu isə məhz Əbülfəs müəllimə çıxır. Eyni zamanda sabiq nazirin mədəniyyət sektorunu bataqlığa çevirməsi, korrupsiya və mənimsəməni az qala idarəçilik normativi halına gətirməsi ilə bağlı çoxdandır cəmiyyət arasında müzakirələr gedirdi, yerli KİV-də bir-birinin ardınca maraqlı məlumatlar dərc olunurdu. Bu mənada yüksək rütbəli kadrlarının həbsə atılmasına baxmayaraq, Əbülfəs müəllimin sadəcə nazir vəzifəsindən uzaqlaşdırılmaqla canını qurtarması ictimai rəydə təəccüb doğurardı, nəinki cinayət məsuliyyətinə cəlb edilməsi!

***Sənan Mirzə***

# Siyavuş Novruzov DİN-i məhkəməyə vermək istədi, sonra geri çəkildi

***Milli Məclisin deputatı Siyavuş Novruzov Daxili İşlər Nazirliyini məhkəməyə verir.***

Bu barədə Unikal.org-a S.Novruzovun özü məlumat verib. O bildirib ki, Daxili İşlər Nazirliyi tərəfindən karantin qaydalarının pozulması iddiası ilə onun inzibati qaydada cəzalandırılması və cərimələnməsi tamamilə qanunsuzdur: "Görünən odur ki, aidiyyatı qurumların və səlahiyyətli şəxslərin qanundan xəbərləri yoxdur. Halbuki həmin qanunu biz qəbul etmişik. Orada açıq şəkildə qeyd olunur ki, bu qaydalar Milli Məclisin deputatına şamil olunmur. Yəni, hara istəyir gedə bilər. Ona görə də millət vəkili kimi həmin qanunun müvafiq madddəsi ilə deputat olaraq mənim barəmdə cərimələnmək qərarı vermək qanunsuzdur. Onu da qeyd edim ki, qanun Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarla-



rından üstündür. Bu səbəbdən də mən Daxili İşlər Nazirliyini məhkəməyə verirəm".

Deputat onu da bildirib ki, artıq iddia ərizəsi hazırdır və Nəsimi Rayon Məhkəməsinə müraciət edəcək: "Bu məsələdə geri addım atmaq, güzəştə getmək olmaz. Avropa Məhkəməsinə qədər gedəcəyəm. Mən öz şəxsiyyətimi qoruyan adamam və heç kimə imkan vermərəm ki, mənimlə bu şəkildə davransın. Qanunsuzluq edənlərin hər biri elə qanunla cavablarını alacaqlar. Təzminat kimi 400 min manat tələb edirəm və həmin pulu şəhid ailələrinə bağışlayacağam".

Maraqlıdır ki, bir qədər sonra Milli Məclisin deputatı Siyavuş Novruzov Daxili İşlər Nazirliyini məhkəməyə vermək niyyətindən daşınıb. O bildirib ki, Daxili İşlər Nazirliyinin əməkdaşlarının həm pandemiya dövründə, həm də Vətən Müharibəsi zamanı göstərdikləri fədakarlığa görə bu qərara gəlib.

Xatırladaq ki, Ramiz Mehdiyevin nəvəsinin toyunda iştirak edən Siyavuş Novruzov DİN tərəfindən 400 manat cərimələnmişdi.

***Orxan Həsənli***



# Azərbaycan və İran gömrük işçiləri arasında görüş keçirildi

***İran İslam Respublikasının Astara şəhərində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilib. Tədbir İran İslam Respublikası Gömrük Administrasiyasının dəvəti əsasında baş tutub.***

"Unikal" xəbər verir ki, Azərbaycan tərəfindən görüşdə Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov, Cənub Ərazi Baş Gömrük İdarəsinin rəisi Mirmahmud Miratayev, Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev, Komitənin digər məsul şəxsləri və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı Qalib Əbdüləliyev iştirak edib.

İran tərəfindən isə görüşə Gömrük Administrasiyası Beynəlxalq Əlaqələr İdarəsinin rəisi Hossein Kakhki, Ərdəbil Ostanının Gömrük İdarəsinin rəhbəri Pərviz Təqəvi, Astara, Biləsuvar və Culfa gömrük-keçid məntəqələrinin rəhbərləri və İran İslam Respublikası Baytarlıq Xidmətinin məsul vəzifəli şəxsləri qatılıb.

Tədbirdə Azərbaycan və İran arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyi, iki ölkə arasında təsdiq olunmuş beynəlxalq baytarlıq sertifikatı əsasında İran İslam Respublikasının ərazisindən tranzit keçməklə iri və xırdabuynuzlu heyvanlar, atlar, diri quş və quşçuluq məhsullarının, birgünlük cücələr və damazlıq yumurtaların Azərbaycan Respublikasından Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə daşınmasının təmin edilməsi məsələləri müzakirə olunub.

Giriş sözü ilə çıxış edən İran İslam Respublikasının Gömrük Administrasiyası Beynəlxalq Əlaqələr İdarəsinin rəisi Hossein Kakhki Azərbaycan və İran arasında mövcud əlaqələrdən danışıb, Azərbaycan-İran əlaqələrinin möhkəm dostluq və yüksək strateji tərəfdaşlıq səviyyəsində olduğunu bildirib. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq əlaqələrinin inkişaf etdiyi, ticarət dövriyyəsinin həcminin artdığı qeyd edilib.

Dövlət Gömrük Komitəsi Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev Azərbaycan və İran arasında qarşılıqlı münasibətlərin strateji əməkdaşlıq səviyyəsində daha da genişləndiyini, gömrük orqanlarının da bu əlaqələrin inkişafına öz töhfəsini verdiyini deyib.

Görüş zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri Qalib Əbdüləliyev iki ölkənin gömrük xidmətləri arasında sıx əməkdaşlığın digər qurumların işinə də müsbət təsir göstərdiyini bildirib, iki ölkənin müvafiq qurumları arasında əvvəlcədən aparılmış səmərəli danışıqlar nəticəsində beynəlxalq baytarlıq sertifikatının tətbiqinə razılıq verildiyini diqqətə çatdırıb.

Görüşdə Naxçıvan Muxtar Respublikasından Azərbaycanın digər bölgələrinə və əks istiqamətdə göndərilən diri heyvanların və quşların İran İslam Respublikasının ərazisindən tranzit keçidinin təmin edilməsi məsələsinin icrasına başlanılması ilə bağlı razılıq əldə edilib. Artıq fevralın 10-dan etibarən sadalanan məhsulların tranzit keçidi təmin edilir.

Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## "Qarabağ" ordenli şəhid mayorun doğum günüdür

***Bu gün torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlamış Vətən müharibəsində canından keçən qəhrəmanlardan birinin - Ramid Nəriman oğlu Hacıyevin doğum günüdür.***

Modern.az-ın məlumatına görə, Ramid Hacıyev 11 fevral 1987-ci ildə Cəbrayıl rayonunun Mirək kəndində anadan olub. 1994-cü ildə Xətai rayon 48 saylı tam orta məktəbin 8-ci sinfini başa vurduqdan sonra C.Naxçıvanski adına hərbi məktəbə daxil olub, həmin məktəbi müvəffəqiyyətlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub.

Ramid Hacıyev Ali Hərbi Məktəbi bitirdikdən sonra müxtəlif hərbi hissələrdə xidmət edib, Tabor komandiri olub. 2010-cu ildə leytenant, 2012-ci ildə baş leytenant, 2016-cı ildə kapitan, 2020-ci ildə mayor rütbəsi alıb. Üç hərbi medal, çoxlu sayda fəxri fərmanla təltif olunub.

R.Hacıyev Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən İkinci Qarabağ savaşında 18 oktyabr 2020-ci il tarixdə Talış kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına həlak olaraq Şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Ailəli idi, üç övladı yadigar qalıb.

Azərbaycan Prezidentinin sərəncamları ilə torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə, mayor Hacıyev Ramid Nəriman oğlu ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Allah rəhmət eləsin...

## Hər iki ayağını itirən qazi protezlə təmin edilir

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Zəfərimizin qəhrəmanlarından biri olan, Vətən müharibəsində ağır yaralanaraq hər iki ayağını itirən Alxasov Camal İlqar oğlunun da yüksək texnologiyalı protezlə təmin edilməsi işlərinə başlanıb.***

Nazirlikdən verilən məlumata görə, müharibədə şərəfli döyüş yolu keçən C.Alxasov Prezident İlham Əliyevin Sərəncamları ilə "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Sumqayıt sakini olan qazi bu günlərdə Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində ilkin müayinə olunub. Müvafiq ölçülər götürülüb, lazımi təlimatlar verilib.

Protezləşməyə tam hazır olandan sonra C.Alxasov yüksək texnologiyalı protezlə təmin ediləcək.

# Azərbaycanın məşhur bankının şok zərəri...

## Yelo bank təhlükəli gedişatdan qurtula biləcəkmi?

***Bu il yanvarın sonlarında Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov bir neçə bankın xüsusi nəzarətdə olduğunu, koronavirus epidemiyasının həmin banklara da mənfi təsir etdiyini və vəziyyətlərinin Maliyyə Sabitliyi Şurasında müzakirə edildiyini bildirdi.***

Rüstəmovun həmin açıqlamasından sonra qarşıdakı aylarda bəzi bankların bağlana biləcəyi ilə bağlı iddialar ortaya çıxıb. Xüsusilə son illərdə davamlı şəkildə zərər edən bankların sonrakı taleyi maraq doğurur.

Məsələn, son 5 ildə zərərdən xilas ola bilməyən banklardan biri Yelo Bankdır. Bir çox qalmaqallar səbəbilə cəmiyyətdə neqativ assosiasiya yaradan "Nikoil Bank" adından imtina edilib "Yelo Bank" adına keçilsə də, qurum zərərdən xilas olmayıb.

2015-2020-ci il dövründə Yelo Bank yalnız 2019-cu ili çox cüzi - 69 min manat xalis mənfəət ilə başa vurmuşdur. Bank 2015-ci ili 9 milyon manat, 2016-cı ili 148 milyon 539 min manat, 2017-ci ili 2 milyon 709 min manat, 2018-ci ili 135 milyon 200 min manat, 2020-ci ili isə 39 milyon 749 min manat xalis zərər ilə bağlayıb. Son 5 il ərzində Yelo Bankın cəmi xalis zərəri 326 milyon 206 min manat təşkil edib. Kapital çatışmazlığı ilə üzləşməməsi üçün həmin dövrdə səhmdarları Banka 343 milyon 500 min manat əlavə sərmayə qoyublar. Qısası, Bankın nizamnamə kapitalı 34 milyon 500 min manatdan 378 milyon manatadək artırılıb. Yığılmış zərər ilə Bankın nizamnamə kapitalının 86%-i "buxarlanıb". O cümlədən, səhmdarları Banka 2020-ci ildə 30 milyon manat maya qoyublar, lakin Bankın 2020-ci ildəki 39 milyon 749



min manat zərəri bu sərmayəni tamamilə silib.

İqtisadiyyat portallarının yazdığı kimi, ötən ilin sonunda Yelo Bankın məcmu kapitalı Mərkəzi Bankın banklara qarşı minimal tələb olan 50 milyon manatdan bir qədər çox olub (53 milyon 805 min manat). Əgər Bankın nizamnamə kapitalı əlavə artırılmasa, 2021-ci ildə yarana biləcək bir neçə milyon manatlıq zərər Bankı kapital çatışmazlığı ilə üzləşdirəcək və normalara cavab verməyəcək. Yelo Bank riskləri uzaqlaşdırmaq üçün xalis mənfəət əldə etməli və ya nizamnamə kapitalı artırılmalıdır.

Yelo Bankın kapital adekvatlığı da pisləşməkdədir. Əgər 2018-ci ilin sonunda I dərəcəli kapitalın adekvatlıq əmsalı 21,15% ikən, 2020-ci ilin sonunda 16.04% təşkil edib. Məcmu kapitalın adekvatlıq əmsalı isə 24,62%-dən 18.34%-ə geriləyib. Bu əmsallar bank kapitalının riskli aktivlərə olan nisbətini ifadə edirlər. Qanunvericilik ilə bu nisbətlərin müəyyən həddlərdən (I dərəcəli kapitalın adekvatlıq əmsalının 5%-dən və məcmu kapitalın adekvatlıq əmsalının 10%-dən) aşağı enməsinə icazə verilmir. Əmsalların aşağı düşməsi risklərin artdığına işarədir və əgər normalardan aşağı düşərsə bank müflisləşə bilər.

Bəs adıçəkilən xüsusilə son ildə böyük məbləğdə zərər etməsinə səbəb nədir? Qurumun İdarə Heyəti sədrinin müavini və maliyyə direktoru Emil Duşdurov yerli KİV-ə açıqlamasında bu suala cavab olaraq iki məqama diqqət çəkib. Birincisi, pandemiya ilə əlaqədar gəlirlər azalsa da, bununla belə, əməliyyat xərclərində azalma olmamışdı: Əməliyyat xərclərinin böyük hissəsi işçi heyətinə çəkilən xərclərin payına düşür. Bank pandemiya səbəbilə əməkdaşlarının sayını azaltmayıb və bu xərcləri optimallaşdırmayıb, əksinə, onlara münasibətdə sosial məsuliyyətli mövqe tutub.

İkinci: yaradılmış zəruri ehtiyatlar vaxtı keçmiş borcların (karantin tədbirlərinin gücləndirilməsindən irəli gələn) qaytarılmasını üstələyib. Duşdurovun sözlərinə görə, yaradılan ehtiyatların gələcəkdə geri qayıtması bankın maliyyə nəticələrinə müsbət təsir göstərəcək.

Yeri gəlmişkən, 2021-ci ilin yanvar ayında Yelo Bankın İdarə Heyətinin sədri vəzifəsini icra etməyə başlamış Anar Həsənov və komandası qurumu mənfəətə çıxarıb. Yelo Bank 2021-ci ilin yanvar ayını 2.1 milyon manat xalis mənfəət ilə başa vurub. Lakin bankın müflisləşmə riskini aradan qaldıra bilməsi üçün bu proses davamlı olmalı, nəhayət ki, qurum ili mənfəətlə tamamlamalıdır. Əks halda bədbin ehtimalların özünü doğrultması, təəssüf ki, kifayət qədər real görünür...

***Toğrul Əliyev***

# Məhkəmə islahatları yekunlaşdı?...

***Prezident İlham Əliyevin 3 aprel 2019-cu il tarixində məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərman imzalayıb. Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilsin ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.***

Maraqlıdır, hazırda məhkəmə islahatlarında son vəziyyət necədir?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru, sabiq deputat Çingiz Qəni-



zadənin sözlərinə görə, məhkəmə islahatları hələ davam etdirilməlidir: "Cənab prezidentin məhkəmə-hüquq sahəsində islahatlarla bağlı 3 aprel 2019-cu il tarixli fərmanın icrası davam edir. Düzdür, müəyyən qədər hakim korpusu formalaşıb, əlavə 2-3 ştat verilib və yeni məhkəmələr yaradılıb. Keçirilən hüquqi və kadr islahatları davam edir. Düşünürəm ki, bu sahədə görülməli işlər çoxdur".

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev: "Azərbaycan Prezidentinin 3 aprel 2019-cu il fərmanı məhkəmə sistemində islahatların dərinləşməsi ilə əlaqəli olmuşdu. Fərmanda məhkəmələrin nüfuzunun artırılması ilə bağlı 40-a yaxın tədbir nəzərdə tutulmuşdu. Müxtəlif qurumlar qarşısında bir sıra vəzifələr müəyyənləşdirilmiş və bəzi qurumlara tövsiyələr verilmişdi. Kommersiya məhkəmələrinin yaradılması məsələsi ortaya qoyulmuşdu. Artıq həmin məhkəmələri fəaliyyətdədir.

Qeyd etmək lazımdır ki, alternativ icra qurumlarının da yaradılması ilə bağlı məsələlər var idi. Hazırda bununla bağlı İcra Məcəlləsi hazırlanır. Ümid edirəm ki, Milli Məclisin bu yaz ssesiyasında müzakirəyə çıxarılacaq.

Ümumillikdə, islahatlar davam edir, bir çox işlərin təklifi hazırlansa da, hələ öz həllini tapmayıb".

***Fidan İlqarqızı***

# “Peyvənd vacibdir, bununla bir çox xəstəliklərin kökü kəsilib” - Baş həkim



***Fevralın 8-dən “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq 65 və daha yuxarı yaşda şəxslərin peyvəndləmə prosesinə başlanılıb. Bu yaşda vətəndaşlar randevu.its.gov.az saytından və ya ərazi üzrə poliklinikanın qeydiyyat şöbəsi ilə telefon əlaqəsi saxlayıb öz məlumatlarını verərək qeydiyyatdan keçirlər. Qeydiyyata alınan şəxslər ərazi üzrə polklinikalara və ya müvafiq xəstəxanalara müraciət edərək peyvənd olunurlar. Vaksinasiyadan keçən vətəndaşlar həkimlər tərəfindən nəzarətdə saxlanılır.***

Paytaxtın 1 saylı şəhər polklinikasının baş həkimi Kübra Cabbarova Azvision.az -a bildirib ki, strategiyaya uyğun olaraq vaksinasiya üçün müraciət edən 65 və daha yuxarı yaşda şəxslər öncə həkim müayinəsindən keçirilir, təzyiq, temperatur ölçülür, daha sonra peyvəndləmə prosesi aparılır.

“Xəstənin vəziyyəti peyvənd olunmağa imkan verirsə, peyvənd otağına yönəldilir. Vaksinasiya olunduqdan sonra xüsusi gözləmə otağında 30 dəqiqə qalırlar. Əgər peyvənddən sonra reaksiya baş vermirsə, şəxs evə yola salınır. İndiyə qədər olan vaksinasiyada 99,9 faiz heç bir reaksiya olmayıb”.

K.Cabbarova bildirib ki, bu günə qədər 150-dən çox şəxs poliklinikada vaksinasiya olunub.

“Bu gün də aktivlik müşahidə edilir. Bir çox vətəndaşlar peyvənd olunmaq üçün polklinikaya müraciət edir, könüllü olaraq vaksin vurdurmaq istədiklərini bildirirlər”.

Baş həkim onu da qeyd edib ki, insanlarımız öz sağlamlıqlarına diqqət yetirirlər və tezliklə bu xəstəlikdən xilas olmağa çalışırlar:

“Vaksinasiya prosesi aktiv gedir. Əhaliyə tövsiyəm odur ki, koronavirus pandemiyasından tezliklə qurtulmaq üçün peyvənd olunmaq vacibdir. Biz bir illik dövrdə bunun fəsadları, ölümləri müşahidə etdik. İnsanlarımız diqqətli olub, vaksinasiya olunsun. Koronaviruslu xəstə ilə kontaktda olanda da xəstəliyi yüngül keçirə bilsinlər. Peyvənd vasitəsilə tarix boyu bir çox xəstəliklərin kökü kəsilib. Əminəm ki, vaksinasiya ilə tezliklə koronavirus bəlası da yer üzündən yoxa çıxacaq”.

Qeyd edək ki, Azərbaycanda koronavirusa qarşı vaksinasiyaya yanvarın 18-dən başlanılıb. Birinci mərhələdə tibb işçiləri peyvənd olunub. Ölkə üzrə 70 minə yaxın vətəndaş bu dövrdə vaksinasiyadan keçib.

Azərbaycanda Çinin ”Sinovac Biotech” şirkətinin istehsalı olan “CoronaVac” vaksinindən istifadə olunur. ”CoronaVac” peyvəndi tələb olunan standartlara uyğun bütün sınaq mərhələlərindən uğurla keçib. İndiyədək bu vaksinin ciddi fəsadlara səbəb ola biləcək yan təsirlərinə rast gəlinməyib. Sözügedən vaksin ənənəvi, etibarlı və sınanmış inaktiv platformada hazırlanıb.

# “Bu, yeni imkanların başlanması deməkdir” - Pərviz Şahbazov

***Qlobal əməkdaşlığı təşviq edən Avrasiyanın yeni xəritəsini yaradırıq.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VII iclasında deyib.



Nazir bildirib ki, TAP-ın istismara verilməsi Cənub Qaz Dəhlizi layihəsinin sonu deyil, əksinə, bu, yeni imkanların başlanması deməkdir.

”Biz öz tərəfdaşlarımızla birgə yeni geoiqtisadi mühiti və dayanıqlı inkişafı, qlobal əməkdaşlığı təşviq edən Avrasiyanın yeni xəritəsini yaradırıq. Həmçinin qeyd edilməlidir ki, Azərbaycan enerji dəhlizinin fiziki təhlükəsizliyini artırmışdır və bu layihəyə hərbi hədələri aradan qaldırmışdır, öz ərazilərini Ermənistan Respublikasının 30 illik işğalından azad edərək ərazi bütövlüyünü bərpa etmişdir.

İndi isə biz Cənub Qaz Dəhlizinin birinci fazasını başa çatdırdıqdan sonra növbəti faza üzərində düşünürük. İkinci faza nəticəsində Azərbaycan qazının işlənilməyən yataqlardan hasilatı təmin ediləcəkdir və bu da artıq yeni təchizatçılar üçün yeni tranzit imkanları yaradacaq. Əminəm ki, Məşvərət Şurasının bugünkü iclasında biz nəinki ümumi nailiyyətlərimizi qeyd edəcəyik, o cümlədən gələcək imkanlarla bağlı birgə müzakirələr aparacağıq”, - deyə nazir vurğulayıb.



# “YAŞAT” Fondu üç qazini Türkiyəyə müalicəyə göndərdi

***Ağır yaralanan qazilərimiz İsayev Valeh Mehrac oğlu, Həmidov Məhərrəm Əliəşrəf oğlu və Rəsulov Elşad Əlmurad oğlu “YAŞAT” Fondu tərəfindən bu gün səhər saatlarında Türkiyəyə göndəriliblər.***

Bu barədə Unikal.org-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək.

Qeyd olunub ki, “YAŞAT” Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin ediləcək. Eyni zamanda Fond tərəfindən hazırda Türkiyə və İsraildən həkimlərin ölkəmizə dəvət olunması istiqamətində müvafiq tədbirlər görülür. Dəvət olunan həkimlər tərəfindən qazilərimizin müayinə, müalicə və əməliyyatının həyata keçirilməsi nəzərdə tutulur.

Allah qazilərimizə şəfa versin!

Qeyd edək ki, “YAŞAT” Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 “Çağrı” Mərkəzi fəaliyyət göstərir.

# Hərbi hissə komandirlərinə göstərişlər verildi

***Azərbaycan Ordusunda yeni tədris ilinin başlanması ilə əlaqədar Hərbi Dəniz Qüvvələrinin (HDQ) birləşmə, hərbi hissə və idarəetmə orqanlarında müvafiq tədbirlər keçirilir.***

Müdafiə Nazirliyindən “Unikal”a verilən məlumata görə, yeni tədris ilində HDQ qarşısında qoyulan tapşırıqlar öyrənilir və onların icrası ilə bağlı hərbi hissə komandirlərinə müvafiq göstərişlər verilib.

HDQ-nin bütün hərbi hissələrində şəxsi heyətə sıra baxışı keçirilir, bölmələrin maddi-texniki və tədris bazası, həmçinin şəxsi heyətin təchizatı yoxlanılır.

Yeni tədris ilində əsas diqqət Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, komandirlər, qərargahlar və şəxsi heyətin bacarıqlarının, gəmi qruplarının, hissə və bölmələrin qarşılıqlı fəaliyyətinin və döyüş uzlaşmasının təkmilləşdirilməsi, gəmi heyətlərinin döyüş hazırlığı səviyyəsinin artırılması və döyüş növbətçiliyinin daha keyfiyyətli təşkilinə yönəldiləcək.

HDQ-nin sərəncamında olan döyüş gəmiləri, katerlər, müasir silah və digər döyüş vasitələrinin öyrənilməsi üzrə gəmi heyətləri ilə nəzəri və praktiki dərslər keçirilir. Hərbi dənizçilərin sağlamlığına xüsusi diqqət göstərilir.



# Cərimələr, hərbi xidmət, ailə vəziyyəti barədə bu portaldan öyrənin

***"myGov" elektron hökumət portalının mobil tətbiqi istifadəyə verilib. Bu barədə "ASAN xidmət"dən "Unikal"a verilən məlumatda bildirilib.***

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən yaradılan mobil tətbiqin məqsədi dövlət xidmətlərinin vətəndaşlar üçün daha əlçatan olmasını təmin etmək, reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçidi sürətləndirməkdir:

"Artıq mobil telefonda da vətəndaşlar üçün tələbə-məzun məlumatları, ailə tərkibi, cərimələr, daşınmaz əmlak məlumatları, diplomlar, etibarnamələr, hərbi xidmət haqqında məlumatlar, iş yeri, məcburi köçkün statusu haqqında məlumatlar, qeydiyyatda olan nəqliyyat vasitələri, şəxsi məlumatlar, stasionar telefon məlumatları, sürücülük vəsiqəsi, ümumvətəndaşlıq pasportu və yaşayış yeri kimi məlumatlarla tanış olmaq "myGov" tətbiqi üzərindən mümkündür. Həmçinin bu məlumatların bəzisini arayış formasında mobil telefona yükləmək və aidiyyatı istiqamətdə istifadə etmək mümkündür.

"myGov" mobil tətbiqini həm "Android", həm "IOS" əməliyyat sistemlərindən yükləmək olar.

Portalda olduğu kimi mobil tətbiqdə sorğulanmış məlumatlarım xidməti mövcuddur ki, sizin məlumatlarınıza baxan banklar, təşkilatlar və s. qurumlar haqqında məlumat əldə edə bilərsiniz".

Rəsmi məlumata görə, hazırda "myGov"un 465 000-dən çox istifadəçisi var: ""myGov" istifadəçiləri, həmçinin bura inteqrasiya olmuş bir çox qurumların və sistemlərin xidmətindən də yararlana bilirlər. Portalda qeydiyyatdan keçmək istəyən vətəndaşlar my.gov.az internet səhifəsinə daxil olaraq "Ana səhifə"də yerləşdirilmiş "Giriş qaydaları" ilə tanış ola bilərlər.

Qeyd edək ki, "myGov" elektron hökumət portalı ilkin olaraq "Beta" versiyada vətəndaşların istifadəsinə verilib. Qabaqlayıcı hökumət konsepti əsasında yaradılmış portalın əsas məqsədi təqdim edilən elektron xidmətlər vasitəsilə vətəndaşların işlərini asanlaşdırmaq, şəffaflıq və operativliyi təmin etməkdir".

***Famil***

# Yeni təhsil-tədris formasına necə uyğunlaşmalı? -Ekspertlərdən rəy

***Fevralın 1-dən etibarən Azərbaycanda təhsil müəssisələrində tədris mərhələli şəkildə bərpa olunub. Bir çox şagirdlər onlayn dərsləri mənimsəməkdə çətinlik çəkirdilər. Bu amil, həmçinin virusa yoluxma hallarının azalması nəzərə alınaraq, üzbəüz tədrisin qismən bərpa olunması qərarı verildi.***

Beləliklə, şağirdlər həftədə üç dəfə məktəbə gəlmək, təhsil müəssisəsinə daxil olarkən hərarətlərinin ölçülməsi, dezinfeksiya vasitələrindən istifadə etmə, siniflərin yarıya bölünərək iki növbədə dərs keçməsi, sinif otaqlarında hər partada bir nəfər şagirdin oturması, 1,5 metr məsafənin gözlənilməsi kimi yeni təhsil qaydaları ilə rastlaşdı. Zərurətdən irəli gələn bu təhsil forması şagirdlərlə yanaşı müəllimlər və valideynlər üçün də yenilik oldu. Bu yeniliyə cəmiyyətin təhsil-tədris tələbində iştirak edən tərəflər (valideyn-şağird-müəllim) necə uyğunlaşmalıdır?

"Unikal" xəbər verir ki, xeberlent.az-a danışan təhsil eksperti Samirə Həsənzadə bildirib ki, əslində, qeyd etdiyiniz məsələlərin bəziləri pandemiya dövründən kənarda da həyata keçirilməyə ehtiyac duyulan məsələlərdir: "Azərbaycanın, xüsusən Bakının bir çox məktəblərində yer çatışmazlığı olduğu üçün bir sinifdə (xüsusən ibtidai siniflərdə) normadan artıq sayda şagird müşahidə olunur. Pandemiya qaydalarına əsasən ara məsafənin qorunması və dərsə gedən şagirdlərin sayının az olması (qruplara bölünməsi), habelə gigiyena qaydalarının qorunması əslində müsbət bir haldır. Müəllimlər şagirdlərə fərdi qaydada daha çox vaxt ayıra və diqqət yetirə biləcəklər, şagirdlər isə bir-birinə mane olmadan tədris prosesində rahat iştirak edə biləcəklər.

Məsələnin digər müsbət tərəfi odur ki, uzun müddət qapalı şəraitdə həyat sürən və ünsiyyəti xeyli məhdudlaşmış şagirdlərin yenidən öz həmyaşıdları ilə canlı ünsiyyət qurmaq və kommunikasiya bacarıqlarını təkmilləşdirmək imkanları yaradılır.

Yaşadığımız dövrdə texnologiyaların həyatın bir çox sahəsində insan amilini əvəz etməsini nəzərə alsaq, təlim və tədris prosesində emosional intellektin inkişafına xeyli diqqət yetirmək və ünsiyyət bacarıqlarını təkmilləşdirmək çox mühümdür. Ona görə mövcud şəraitdə şagirdlərin qısa zaman çərçivəsində olsa belə məktəblərdə təhsil almasını çox vacib hesab edirəm.

Lakin bununla yanaşı, onlayn tədrisi və qiymətləndirmə sahəsində xeyli işlərin görülməsi çox vacibdir. Onlayn təhsil yalnız pandemiya dövründə deyil, digər zamanlarda da diqqət mərkəzində saxlanılacaq məsələdir.

Müəyyən səbəblərə görə onlayn təhsilə hazırlıqsız başlamalı olduğumuz üçün bu sahədə bir çox çatışmazlıqlar aşkar olundu. Təbii ki, bu çatışmazlıqları aradan qaldırmaq üçün xeyli işlər görülsədə, əslində bir o qədər problem aktual olaraq qalmaqdadır. Pandemiyanın bitməsini gözləyib, düşünməyək ki, hər şey əvvəlki məcrasına qayıdacaq. Təhsil artıq pandemiyadan əvvəlki və pandemiyadan sonrakı dövrlərə bölünüb. Bu tək Azərbaycanda deyil, bir çox ölkələrdə, demək olar ki, ölkələrin hamısında belədir. Ona görə onlayn təhsil sahəsində də innovasiyaları, mövcud olan sistemləri araşdırma və cəmiyyətimizə uyğunlaşdırma işlərini davam etdirməliyik".

Məsələnin psixoloji tərəfinin əhəmiyyəti ilə bağlı isə Xeberlent.az-a psixoloq Emiliya İgidova danışıb. O



bildirib ki, bütün dünya dövlətlərində olduğu kimi, ölkəmizdə də koronovirus pandemiyasının qarşısını almaq məqsədilə müxtəlif sosial sferalarda çoxsaylı tədbirlər görülmüşdür: "Xüsusilə orta məktəblərdə canlı dərslərdən onlayn təhsil sisteminə keçilməsi ilə əlaqədar olaraq kiçik və böyük yaşlı məktəblilərin emosional şəxsiyyət sferasında dəyişikliklər əmələ gəlmişdir. Sosial əlaqələrin azalması, ünsiyyət tələbatının ödənilməməsi məktəblilərin psixi inkişafına, emosional sahələrinə təsirsiz ötməmişdir. Bütün yaş dövründə olan insanlarda olduğu kimi, məktəblilərdə də qoyulan qadağalar nevrotik pozuntuların üzə çıxmasına səbəb olmuşdur.

Artıq bildiyimiz kimi, Təhsil Nazirliyi tərəfindən ibtidai siniflərdə təhsil qismən bərpa olunmuşdur. Bu bərpa olunma uzun müddət canlı dərslərdən uzaq qalan şagirdlərin məktəbə yenidən adaptasiya olunmasında bir sıra çətinliklər yaratmaqdadır. Uşağını məktəbə göndərən hər bir valideyn pandemiya vəziyyətinin tam bitməməsi ilə əlaqədar olaraq təşviş içindədir. Artıq psxioloqların apardığı tədqiqatlar da bunu təsdiqləyib ki, valideyinlərdə mövcud olan təşviş vəziyyəti onların övladlarına da sirayət etməkdədir. Qeyd etdiyim bütün qadağalar, təhsilin formasının dəyişilməsi şagird və valideynlərlə yanaşı, müəllimlərin də xroniki stress vəziyyəti yaşamasına, gündəlik rejimlərinin pozulmasına səbəb olmuşdur. Məlumdur ki, valideyin-şagird-müəllim arasında əməkdaşlığın, ortaq məxrəcin olması daha yetkin, bilikli, emosional cəhətdən sağlam şəxsiyyətin yetişməsində böyük rol oynayır. Bütün bu çətinlikləri aradan götürmək məqsədilə şagirdlərlə ailədə və məktəbdə düzgün maarifləndirici söhbətlərin aparılması olduqca mühüm əhəmiyyət daşıyır. Şagirdlərin psixi sağlamlığının qorunması onların təlim materiallarını düzgün mənimsəməsinə,müəllim və valideynlərin stressinin azalmasında böyük rol oynayır. Valideynlərə tövsiyyəmiz: bütün bu qadağaları həddindən artıq vurğulayaraq, şagirdlərdə təşviş vəziyyətinin artmasına şərait yaratmasınlar. Müəllimlər isə istər onlayn, istər canlı dərslərdə şagirdlərə fərdi yanaşmağı bacarmalı, hər bir şagirdin özünəməxsus fərdi psixoloji xüsusiyyətlərinin olduğunu unutmamalı və mövcud vəziyyətin hər bir şagirdə müxtəlif formada təsir etdiyini nəzərdə saxlamalıdır. Bu baxımdan, sosial təcrid olunmanın şagirdlərin psixi inkişafına ciddi mənfi təsir edə biləcəyi, onların yetkin şəxsiyyət kimi inkişafını ləngidəcəyini, onlarda sosial fobiya yarada,özgüvən səviyyəsini aşağı sala biləcəyini nəzərə alaraq, məktəblilərin qismən açılmasının əhəmiyyətini inkar edə bilmərik. Gələcək nəsillərin fiziki sağlamlığı ilə yanaşı, psixi sağlamlığının da qorunması hər birimiz üçün olduqca vacibdir".

***Bəhruz Salmanov***

# Azərbaycan muğamlarının fəlsəfəsi miniatürlərdə



***Fəxrəddin Əlinin "Şərq-Qərb" Nəşriyyat evi tərəfindən 2015-ci ildə çap olunmuş "Azərbaycan muğamı miniatürlərdə" kitabı elmi, ədəbi və mədəni mühitimizdə bir hadisədir. Heç şübhəsiz ki, muğamın fəlsəfəsini doğru, düzgün anlamaq üçün bu kitab ən mötəbər mənbədir. Bu kitab muğamın daxili zənginliklərini, təbiətini, məzmun və mahiyyətini, fəlsəfəsini öyrənməkdə əvəzsiz bir qaynaqdır. Bir çox dəyərlərimiz kimi, muğam da öz zahiri cəhətləri ilə insanları ovsunlamış, ecazkar təsiri altına salmış, ancaq onun daxili zənginlikləri, daxili hikməti, daxili gücü hələ indiyə qədər sirr olaraq qalmışdır.***

Muğamın daxili zənginliyini, daxili gücünü, bir sözlə, fəlsəfəsini açmaq hər kəsin işi deyil. Və hər muğamşünasın, muğam ifaçısının da gücü çatacaq bir məsələ deyil. Bunun üçün kifayət qədər ensiklopedik biliyə malik olmaq, dünya xalqlarının tarixini, ədəbiyyatını, mədəniyyətini dərindən bilmək, mədəni dəyərlərin özünü müqayisə etmək bacarığına malik olmaq, böyük əksəriyyətdən fərqli orijinal düşüncəyə qadir olmaq və böyük əksəriyyətdən fərqli təhlil etmək bacarığına sahib olmaq vacibdir, həm də gərəklidir. Hələ muğamı tədqiq etmək, muğam ifaçısı olmaq işin yarısıdır. Ancaq muğamın tam mahiyyətinə, məzmununa, ruhuna və fəlsəfəsinə varmaq muğamşünas, eləcə də muğam ifaçısı olmaqla mümkün deyildir. Muğam aləminin bütün sirlərinə dərindən bələd olmaq üçün ensiklopedik biliyə, geniş dünyagörüşə, uzun illərlə bu mövzu barədə düşünmək, daşınmaq, bu mövzunu beyində bişirmək, həyat təcrübəsinə malik olmaq da böyük rol oynayır. Bu mənada Fəxrəddin Əli əvəzsiz miniatür ustası, rəssam və ziyalı kimi heç kəsə bənzəmir, fərqli bir yaradıcılıq üslubuna malikdir. Onun "Azərbaycan muğamı miniatürlərdə" kitabının elmi redaktoru akademik İsa Həbibbəyli, elmi məsləhətçisi akademik Teymur Kərimli, məsul redaktoru, ön sözün müəllifi və miniatürlərə izah verən sənətşünaslıq doktoru, professor Rafiq İmrani, muğamların tarixi izahına aydınlıq gətirən pedaqoqika elmləri üzrə master, biokimya üzrə doktor Tariyel Azərtürkdür.

Azərbaycanda musiqi mədəniyyətinin tarixi qədimdir. Həm musiqişünasların, həm də muisiqi ifaçılarının Azərbaycan musiqiləri barədə, o cümlədən muğamları barədə öz görüşləri var. Bu görüşlərin daha da zənginləşməsində Fəxrəddin Əlinin bu kitabı müstəsna rol oynayır. Respublikamızda bir çox sahələr kimi muğama dövlət səviyyəsində diqqət və qayğının olması muğamşünasların da, muğam ifaçılarının da peşəkarlıq məsuliyyətini daha da artırır. Bu sahənin elmi-praktik əsaslarının gənc nəslə aşılanması istiqamətində son dövrlərdə xeyli müsbət işlər görülmüş və irəliləyişlər əldə olunmuşdur. Muğam müsabiqələrinin keçirilməsi və hər dəfə yeni-yeni istedadlı gənclərin üzə çıxarılması bu istiqamətdə görülmüş işlərin uğurları kimi qiymətləndirilməlidir. Artıq neçə illərdir ki, muğam musabiqələri televiziya vasitəsilə birbaşa yayımlanır. Bu da muğamın da, muğam müsabiqələrinin də dövlətin diqqət mərkəzində olduğunu təsdiq edir. Heydər Əliyev Fondunun prezidenti, İSESKO-nun və YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın sözləri ilə desək: "Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq. Məhz muğam bizim varislərimizdə köklərə bağlılıq, milli ləyaqət, qürur, emosional zənginlik, iztirab çəkməyi və başqalarının iztirabına şərik olmağı bacarmaq, muğamın özünün malik olduğu mənəvi kamillik, tamlıq kimi keyfiyyətlər aşılamağa qadirdir". Doğrudan da, milli kökə bağlı olanlar, milli ləyaqəti, qüruru ilə fərqlənənlər, emosional zənginliyi ilə seçilənlər, iztirab çəkməyi və başqalarının iztirabını duymağı bacaranlar, mənəvi kamilliyi və tamlığı ilə üstün olanlar muğamın nə olduğunu daha yaxşı anlayır və bilirlər. Beləlləri muğamı daha dürüst və düzgün ifa edirlər. Belələri muğamdan daha müfəssəl yazmağı bacarırlar. Belələri muğamı miniatürlərdə daha inandırıcı və real nümayiş etdirə bilirlər. Belələri sayca çox olmur. Ancaq şükürlər olsun ki, belələri var, olub və olacaqdır. Onlardan biri də Fəxrəddin Əlidir. Fəxrəddin Əli bu kitabdakı miniatürlərinə qədər xeyli işlər görmüşdür. Onun "Atəşpərəstlər", "Payız", "Azərbaycan madonnası", "Üç gül" qobeleni, "Biçindən sonra", "Ağ karvan", "Narahat oba" və s. yağlı boya ilə çəkdiyi əsərləri respublikada və xarici ölkələrdə nümayiş olunubdur. O, M.Şəhriyarın "Heydərbabaya salam" poemasının bütün bəndlərini miniatürlərlə işləmişdir. "Kitabi-Dədə Qorqud" mövzusunda çəkdiyi 25 miniatür M.Füzuli adına Əlyazmalar İnstitutunda, "Şəhidlər" xalçası miniatürü Tarix Muzeyində saxlanılır. Fəxrəddin Əlinin Azərbaycan şairi və yazıçılarının əsərlərinə çəkdiyi miniatürlər də orijinallığı və nəfis tərtibatı ilə fərqlənir. Məsələn, Nizami Gəncəvinin (20 ədəd), Xaqani Şirvaninin (10 ədəd), İmaməddin Nəsiminin (5 ədəd), Yunus İmrənin (6 ədəd), Məhəmməd Füzulinin (15 ədəd), Molla Pənah Vaqifin (10 ədəd), Nəsirəddin Tusinin (10 ədəd), Mirzə Fətəli Axundzadənin (5 ədəd), Əliağa Vahidin (150 ədəd), Əbdülqadir Marağalının (5 ədəd), Baba Kuhi Bakuvinin (4 ədəd), Hacı Mayılın (10 ədəd), Həmzə Vəlinin (10 ədəd) və digərlərinin əsərlərinə çəkdiyi miniatürlər bu qəbildəndir. Fəxrəddin Əli çəkdiyi bu miniatürlərlə öz dəst-xəttini və üslubunu təsdiq etmiş bir rəssamdır. Onun duyum qabiliyyəti, duyğusallığı və çəkdiyi miniatürlərdəki sənətkar kimi imkanları heç kəsə bənzəmir. O, özünəməxsus üslub sahibidir. Həm də Fəxrəddin Əli imzası ilə tanınan miniatür ustası, rəssamdır. Fəxrəddin Əli çəkdiyi hər hansı bir miniatürü sadəcə olaraq çəkmir. Çəkdikləri ilə bağlı mövcud olanları mənimsəyir, ürəyindən keçirir, beyninin məhsuluna çevirir, çəkdiklərinin hər birinin məzmununu aid olduğu sahə mütəxəssisləri ilə yüz dəfələrlə saf çürük edir. Onun çəkdiyi miniatürlərin özünəməxsusluğunu, bənzərsizliyini məhz bu cəhətlər fərqli və qeyri-adi edir.

"Azərbaycan muğamı miniatürlərdə" kitabı təkcə muğamlarla bağlı miniatürləri əks etdirmir, həm də musiqinin, o cümlədən muğamın fəlsəfi mahiyyətini xarakterizə edir. Xalqın yaratdığı milli-mənəvi dəyərlərin, eləcə də peşəkarların yaratdığı milli-mənəvi dəyərlərin bədii-estetik cəhətləri müəyyən olunur. Musiqi əsərlərində melodiyanın, melodik dil ünsürlərinin, metrik ölçünün, ritmik quruluşun bədii-estetik dəyərlərə daxil olduğu məxsusi bir hal kimi səciyyələndirilir. Xalq mahnılarının, xalq rəqslərinin, rəng və təsniflərin şifahi professional musiqi janrı kimi bədii-estetik dəyərlər sisteminin zənginliyini artırdığı qeyd olunur. Əkinçinin, balıqçının, toxucunun, zərgərin, çobanın və digərlərinin dünyagörüşündən doğan nəğmələrin mənəvi dəyərlər sistemində oynadığı rolun bədii-estetik cəhətdən böyük əhəmiyyət daşıdığı xalq şüurunun, bədii düşüncəsinin nailiyyəti hesab olunur.

İnsan təbiət üzərində hakim olmaq istəyini, ilkin növbədə təbii mühitə uyğunlaşmağı bir ölçüyə çevirmişdir. Təbiətə uyğunlaşan insanlar uyğunlaşdıqları təbiətə uyğun əmək fəaliyyəti ilə də məşğul olmuşlar. Müxtəlif coğrafi ərazilərdə yaşayan insanların əmək fəaliyyəti müxtəlif olmuşdur. Həm əmək fəaliyyətinin özəllikləri, həm də xalqların danışdıqları dillərin özəllikləri (ahəngi, səs quruluşu və s.) imkan vermişdir ki, onlar fərqli əmək nəğmələri, rəqslər, bir sözlə musiqi yarada bilsinlər. Qədim insanlar, ümumiyyətlə, insanlar yaratdıqları nəğmələrdə, rəqslərdə, musiqidə öz istəklərini, arzularını, duyğularını, hiss və həyəcanlarını, iztirablarını ifadə edə bilmişlər. Ona görə də musiqişünas xalqın yaratdığı musiqi əsərlərində xalqın təfəkkürünü, dünyagörüşünü, istək və arzularını hiss edə bilir. Həm də peşəkarların yaratdığı musiqidə də peşəkarların təfəkkürünü, dünyagörüşünü, duyğu və hisslərini analiz edə bilir.

Xalqın yaratdıqlarına, eləcə də peşəkarların yaratdıqlarına bir model kimi baxmaq lazımdır. Bu mənada istər xalq musiqisi, istərsə də peşəkarların yaratdıqları musiqi modeldir. Bu modeldə insanın mənəvi dünyasının bir harmoniyası özünü göstərir. Ona görə də musiqini dinləyən hər bir kəs həmin harmoniyadan (insanın düşüncəsi, istəyi, arzusu və s.) qidalanır. Əgər həmin harmoniyada insanın hissinə, duyğusuna, istək və arzusuna təsir edən, əyləndirən məqamlar varsa, onda insan təsirlənə və əylənə bilir. Burada, təbii ki, zövqlər, duyğu və düşüncə səviyyəsi də müxtəlif olur. Ancaq yüksək səviyyəli musiqi nümunələri hər bir kəsin zövqünü oxşaya bilir, hər bir kəsə təsir edə bilir, hər bir kəsi düşündürə bilir, hər bir kəsi duyğulandıra bilir. Bu mənada muğam da, aşıq musiqisi də estetik zövqləri, insanların mənəvi tələbatını həmişə təmin edibdir. Həm muğamın, həm də aşıq musiqisinin fəlsəfəsində bir sıra xarakterik məqamlar var ki, onlar hər bir insanın mənəvi tələbatı kimi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçir və yaşayır. Buraya muğam və aşıq musiqisinin insan şüuruna təsiri, əhval-ruhiyyəsinə təsiri, temperamentinə təsiri, xarakterinin formalaşmasına təsiri və s. daxildir. Muğam və aşıq musiqisi insanları kamilləşdirir, onların zövqünü və dünyagörüşünü formalaşdırır. İnsanları haqqa, ədalətə, sevgi və məhəbbətə bağlayır. Deməli, muğam və aşıq musiqisi sosial əhəmiyyət kəsb edərək insanları tərbiyələndirir, onların arasındakı münasibəti tənzimləyir, onları mənəvi cəhətdən qidalandırır, onlara saflıq və təmizlik hissləri aşılayır. Muğam və aşıq musiqisi insanlar arasında ünsiyyət yaradır. Hər bir muğamda və aşıq musiqisində ünsiyyət yaratmaq üçün kodlaşdırılmış informasiya özünü göstərir. Həmin kodlaşmış informasiya insanların mənəvi tələbatını ödəyir. Sevgi, məhəbbət, istək, arzu, duyğu, düşüncə və s. barədə insan tələbatını təmin edir. İnsan bu yolla kamilləşir, rahatlaşır, mənəvi rahatlıq tapır.

***Buludxan Xəlilov***



# ATATÜRKÜN SAHİB ÇIXDIĞI TÜRK-MACAR BİRLİYİ

## 2024-cü ilə doğru daha bir strateji hədəf

***Macarların türk olub-olmadığına yönəlik diskussiyalar zaman-zaman aparılır. Bir çox fərqli görüşün olmasına baxmayaraq, mütəxəssislərin birgə razılaşdığı xüsus onların turan (turani) xalqlarından biri olmasıdır. Vaxtilə türk adı ilə anıldıqları sənədlərlə ortaya qoyulur. Və macarların Orta Asiyadakı izləri də elmi işlərə mövzu olur. Məsələn, onların Qazaxıstanın Torgay bölgəsində yaşayan maidarlar ilə tarixi bağları araşdırılır. Hamımızın köksünü qabardan türk qurultaylarının təməlləri də əsası etibarı ilə burada atılmışdır. 1913-1941-ci illər arasında Macarıstanda "Turan" adı ilə nəşr edilən bir jurnal da var idi.***

Atatürk dövründə, eynilə bu gün olduğu kimi, Türkiyə-Macarıstan əlaqələri çox yaxşı durumda idi. Birbaşa Atatürkün əmri ilə Ankara Dil, Tarix və Coğrafiya fakültəsi nəzdində hunqarologiya kafedrası qurulmuşdu. Atatürkün vəfat etməsi münasibətilə dəfn mərasiminin keçiriləcəyi gün Macarıstanda milli matəm günü elan edilmiş və binalardan qara bayraqlar asılmışdır.

1934-cü ildə öz etimadnaməsini təqdim etmək üçün Atatürklə görüşən Macar Krallığının Ankaradakı səfiri Yunqert Arnoti görüş zamanı əldə etdiyi təəssüratlarını bir raport halında nazirliyə təqdim etmişdir. Həmin raportdan kiçik bir bölümdə belə yazılıb: "Ona etimadnaməmi təqdim etdikdən sonra mənə yer göstərdi və mənimlə düz bir saat danışdı. Bu, indiyədək olmayan bir haldır. Məsələn, bu münasibətlə ən son alman səfirini qəbul edərkən görüş yalnız 12 dəqiqə çəkmişdi. Fövqəladə uzun müddət ərzində qəbulda olmağım türklər arasında olduğu kimi, səfirlər camiyəsində də diqqəti cəlb etdi O, mənimlə xalqların irqi qohumluğu haqqında danışmaqdan, belə fikir mübadiləsi etməkdən məmnun olduğunu dilə gətirdi. Atatürk dedi ki, iki xalq, ölkələrimiz bir-birilə sərhəd qonşusu olduğu zaman qohum olduqlarını bilərək, bir-birinə söykənərək qorunmuş, güclərini inkişaf etdirmiş olsaydılar, son əsrlərdə Şərqi Avropa tarixi tamamilə başqa yön alardıq" (Prof. Dr. Melek Çolak, Türkiyat Araştırmaları Dergisi).

Atatürkün bu ifadələri, həqiqətən, bu gün üçün də çox önəmlidir. Əgər kimdəsə "Nə üçün?" sualı yaranırsa, onda Ankarada rəsmi görüşlər keçirən Macarıstan Xarici işlər və ticarət naziri Piter Sijyartonun dünən verdiyi açıqlamaya baxsın. O dedi:"Biz Türkiyə ilə münasibətlərimizə çox böyük önəm veririk. Avropanın təhlükəsizliyi Türkiyədən keçir. Türkiyə Mərkəzi Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verməkdədir".

Aradan keçən zaman diqqətə alınarsa, iki ölkənin yalnız Avropanın deyil, Şərqlə Qərb arasındakı "rəqsi hərəkət"in - get-gəlin təhlükəsizliyi baxımından da anlamlı bir birlik ortaya qoyduqları söylənə bilər. Həqiqətən, 2004-cü ildə Avropa Birliyinə üzv olan Macarıstan 2018-ci ildə də müşahidəçi statusu ilə Türk Şurasına daxil oldu. Macarıstan Baş naziri Viktor Orbanın 2019-ci ildə Qırğızıstanda keçirilən sammitdə söylədikləri milyonlar tərəfindən izlənmişdir. Orban demişdi: "Macar dili türk dilinə qohum bir dildir. Xristian türk eliyik. Qıpçaq-türk prinsipləri əsasında dimdik dururuq. Atillanın nəvələri olaraq yaşamaqdan şərəf duyuruq. Biz əslən türk mənşəliyik".

Dünən Macarıstan türk dərman sektoruna birbaşa sərmayə qoyulması ilə bağlı çox önəmli bir qərar verdi. İki ölkə arasındakı xarici ticarət dövriyəsi 2,7 milyard dollardır, lakin hədəf bunu 6 milyard dollar səviyyəsinə çıxarmaqdır. Hər şeydən önəmlisi də odur ki, Macarıstan, Türkiyənin və Türk Şurasının, bir növ, Avropaya proyeksiyasıdır. Bu əlaqənin güclənməsi Türk Dünyasının Asiyadakı sıçrayışına ciddi bir töhfə verməkdədir.

Son olaraq da 2024-cü ilin Türk-Macar ili olaraq planlaşdırılması haqqındakı xəbəri çatdıraq.

***Professor Gürşad Zorlu***
***"Habertürk", Türkiyə, 09 fevral 2021-ci il***

# KREML SAHİBİNƏ NƏSİHƏTAMİZ MƏKTUB

## Üçü bir arada: Mahmud Əhmədinejad, Vladimir Putin və Kim Kardaşyan

***Gün yoxdur ki, Mahmud Əhmədinejadın adı gündəmdə olmasın. Budur, yenə o və Vladimir Putinə yazdığı məktubla diqqətləri özünə çəkib.***

Əhmədinejad bir sıra dövlət və hökumət başçılarına ünvanlanmış məktublar qələmə alıb: oğul-Corc Buş, Angela Merkel, Jak Şirak, Nikolya Sarkozi, Səudiyyə vəliəhd şahzadəsi Bin Salman, Donald Tramp, Co Bayden və hazırda İran parlamentinin sədri Məhəmməd Baqir Qalibafı qəbul etməkdən imtina edən Putin.

Yeri gəlmişkən, yaxşı qələmi var, ifadələri sərrastdır, kəlmələri hədəfi dəqiq nişan alır.

Vladimir Putinə məktub heyrətamizdir, eks-prezident Rusiya həqiqətlərini dolğun əks etdirir və əslində, Kremlin sahibinə nəsihət verir: 2024-cü ilin prezident seçkilərində namizədliyini bir daha irəli sürərək hakimiyyət müddətini uzatma!

Ənənəvi Şərq üslubunda "Bismillah"la başlayan namədə Mahmud Əhmədinejad yazır:

"Rusiya və İran xalqları və bütün millətlərə salam və ehtiram, can sağlığı, uğurlar və dərin dostluq arzusu ilə, səlahiyyətimi icra etdiyim dövrdəki çox səmərəli, konstruktiv və ciddi görüşlərə dair xatirələri yada salmağı məqsədəuyğun hesab edirəm.



Bir tərəfdən, dünyada baş verən çox mühüm inkişafları və uzun illərdir prezidentliyinizin davamlılığı üçün edilən hüquqi tənzimləmələri nəzərə alaraq, digər tərəfdən, siz və digər hökmdarlar, eləcə də bəşər cəmiyyətinin mütəfəkkirləri və onun üçün canı yananlarla bəzi mətləbləri bölüşmək istəyirəm.

Suverenlik və öz müqəddəratını təyinetmə hüququ fərdlərə məxsusdur. Bu təməl haqqı insanlara Allah verib və heç bir fərdin, qrupun və ya qüvvənin onu hakimiyyətdən məhrum etmək və ya məhdudlaşdırmaq haqqı yoxdur.

Bu həqiqət daimi, açıq, qətiyyətli və universal bir xatırlatma tələb edir. Çünki başlanğıcdan bu günə qədər cəmiyyət problemlərinin əsas hissəsi bu hüquqa təcavüz etmə və onu pozmağa köklənib.

Hökumət, hakimiyyət və bu kimi şeylər xalqa məxsusdur və yalnız xalqın səlahiyyətli nümayəndəsi bu hüququn yaradılması və həyata keçirilməsi üçün lazımi vasitələrlə azadlığın, ədalətin inkişafı naminə və ona sahib olanların iradəsini həyata keçirmək üçün səy göstərir. Bu əhatə dairəsindən kənarda hökumətlərin heç bir özünəməxsusluğu, statusu və lisenziyası yoxdur. Sosial mexanizmlər və bütün siyasi, mədəni və iqtisadi işlər bu hüquqa, onun konsolidasiyası, həyata keçirilməsi və təşviqi üçün uyğun bir platformaya əsaslanmalıdır.

Təəssüf ki, tarix boyu hökumətlərin böyük əksəriyyəti, bu özüözlüyündə açıq olan həqiqətdən asılı olmayaraq və xalqın iradəsinə zidd olaraq, özləri üçün geniş səlahiyyətlərdən faydalanıb, hər biri müəyyən dərəcədə ardıcıl olaraq insanların əsas hüquqlarını qəsb və ya iltifatını israf edib.

Praktiki təcrübə və nəzəri təhlillər göstərir ki, fərdlərin, qrupların və ya partiyaların səlahiyyət müddətinin qeyri-ənənəvi şəkildə uzadılması, hətta demokratik yolla aparılsa belə, insanlarda islahat motivasiyasının azalması, qüdrət və sərvətə malik quldur dəstələrinin formalaşması, sosial-siyasi və iqtisadi coşğu itkisi, ədalətli tənqid və qiymətləndirmə məkanının qapanması, qaçılmaz xəbər partlayışına səbəb olan korrupsiya və istismar hallarının gizlədilməsi, siyasi, mədəni və iqtisadi gerilik, yeni və artan istedadların və fikirlərin boğulması, qapalı iqtidar çevrəsi xaricindəki güc və imkanların artımı və böyüməsi yolunun bağlanması da daxil olmaqla, bir çox mənfi nəticələrə səbəb olur; məsələnin izahında uzunçuluq etməkdən çəkinərək bu baxımdan yalnız "diktatura" sözünü xatırlatmaq kifayətdir.

Siyasi və sosial inkişafın gedişində insan cəmiyyətləri, baha başa gələn təcrübələrə əsaslanaraq, cəmiyyətdə fərdlərin əsas hüquqlarını qorumaq, bu hüquqdan sui-istifadə hallarının baş verməsi və artmasının qarşısını almaq üçün uyğun mexanizmləri formalaşdırmağa və tətbiq etməyə çalışıblar.

Başqa şeylər arasında, rəhbər orqanların öz öhdəliklərini pozma ehtimalının yüksək olduğunu və ya onların zəifliyini və ictimaiyyətə proqram təqdim edə bilməməsini nəzərə alaraq, insanların öz iradələrini sərgiləməsi, idarəçiləri daha təsirli və yeni şəxslərlə əvəzləməsi, eyni zamanda, idarəçilikdə daha ali fikirlərdən istifadəsi vacib və zəruridir.

Səlahiyyət müddətlərini uzatmaqda israr edən hökmdarlar, adətən, özlərini cəmiyyəti idarə və onu inkişaf etdirmədə uğurlu sayır, problemlər və zəif tərəfləri daxili və xarici düşmənlərin, sui-qəsdçilərin məkri və müdaxiləsi, cəmiyyətin təhlükəliliyi ilə əlaqələndirirlər. Bu proses getdikcə islahatların və inkişafın yolunu bağlayır, xalqları böyümə, firavanlıq və tərəqqi imkanından məhrum edir. Belə bir şəraitdə xalqla hökmdarlar arasındakı məsafə artır, aldatma və məxfilik hökmdarların davranışında mübahisəsiz bir prinsipə çevrilir. Bu hökmdarlar davamlı olaraq öz xalqı içində, eyni zamanda, öz xalqı və digər millətlər arasında xəyali sərhədlər yaradırlar.

İdarəetmə müddəti müəyyən və uyğun səviyyəni keçdikcə, geri qayıtmaq və xalq iradəsinə tabe olmaq fürsəti bir o qədər çətinləşir. Xalqa rəva gördüyü ilə qarşılaşmaq qorxusu bu hökmdarları öz hakimiyyətlərini qorumaq və onu uzatmaq üçün daha qətiyyətli edir.

Sizin fikrinizcə, böyük Rus xalqı Sovet İttifaqının dağılmasından dərin və geniş böhran keçirir. Bir çox xalqın siyasi tarixi, onların müstəqillik və öz müqəddəratını təyinetmə hüququndan istifadə etmək naminə azadlıq mübarizəsi ilə tanışsınız. Süqut halları həmin hökmdarlar üçün xalqdan üzr istəmək imkanı doğurur.

Hətta əgər hökmdarlar uğurlu olarsa və ya özlərini uğurlu hesab etsələr belə, ən yaxşı həll - məhdud, uyğun bir müddətdən sonra yeni, daha motivasiyalı gənc qüvvələrə yol verməkdir. Bu vəziyyətdə, birincisi, sosial statusu qoruyaraq, idarəçilik dövründəki müsbət nailiyyətlər sonrakı dövrlər üçün cəmiyyətin kapitalı olacaq; ikincisi, iqtidar və təcrübələrini yeni hökmdarların köməyi ilə cəmiyyətin daha sürətli və daha yüksək böyüməsinə xidmət edə bilərlərg"

Bu cür məktubu son dəfə Putinə kim yazıb?

Üstəlik, bu namə ilə eks-prezident kimin gözündə ucalmaq istəyir?

Yeni Aleksey Navalnının timsalında Rusiyadakı müxalifətə təzyiqdən narahat olan Qərbin?

Bəzi şərhçilər açıq şəkildə deyir: "Əhmədinejadın məktubu parlament sədri vasitəsilə Putinə namə yollamış Xamnəiyə əleyhdarlıqdır".

Mövzunun kinayəli tərəfi budur ki, Rusiya dövlət başçısına hakimiyyətini uzatmamaq nəsihəti verən Mahmud Əhmədinejadın özü prezident kürsüsünə yenidən yiyələnmək niyyətindədir. Hətta "Seçkilərdə iştirak üçün qeydiyyatdan keçəcəm", - deyərək buna tam əmindir.

Təəccüblü olsa da rəy sorğularında populist eks-prezident bir çox mümkün namizədləri qabaqlayır. Doğrudur, bu populyarlığa şübhə və kinayə ilə yanaşanlar az deyil.

Biri - 2017-ci ildə namizədliyini irəli sürmüş və 2021-də də bu iddiada olan mühafizəkar siyasətçi İzzətullah Zərğamidir. "Entexab"a verdiyi müsahibədə o, Mahmud Əhmədinejadın anketlərdəki üstünlüyü və qlobal bir siyasi fiqur olduğuna lağ edərək deyib: "Kim Kardaşyanın da 200 milyon pərəstişkarı var, deməli, o da qlobal bir fiqurdurg"

***Əziz Rzazadə***
***"Strateq", 10.02.2021***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağ həqiqətlərində yeni siyasi istiqamətlər...

## Zahid Oruc: "Qarabağ üzrə bizim növbəti strategiyamız elan olunmalıdır!"

***Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsi sayılır.***



Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi beynəlxalq hüquq tərəfindən də dəstəklənir. Çünki, 30 ilə yaxın işğal altında saxlanılan torpaqlar beynəlxalq sənədlərlə Azərbaycan ərazisi olaraq öz təsbitini tapıb. Bəs görəsən Azərbaycan bundan sonra Dağlıq Qarabağla bağlı həqiqətləri beynəlxalq aləmdə necə təqdim etməli, bu istiqamətdə hansı siyasi xətti seçməlidir.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin (STM) rəhbəri Zahid Oruc "Unikal" qəzetinə açıqlamasında deyib ki, Qarabağ üzrə bizim növbəti strategiyamız elan olunmalıdır. STM rəhbəri Dağlıq Qarabağ həqiqətlərinin 44 günlük müharibədən, Azərbaycan xalqının qazandığı zəfərdən sonra dünyaya necə çıxardılmalı olduğundan danışıb.

Z.Oruc bildirib ki, Azərbaycanın ilk işi işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi bərpa etdikdən sonra o torpaqlara qayıdışı təmin etməkdir: "Biz çalışmalıyıq ki, ilk növbədə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə böyük qayıdış, böyük quruculuq, böyük Azərbaycan planı həyata keçsin. İkinci görülməli olan əsas iş isə bölgədə kommunikasiyaların açılması, bölgədə fərqli iqtisadi arxitekturanın yaranmasıdır. Bundan sonra Dağlıq Qarabağ ifadəsindən imtina etmək lazımdır. Ölkə rəhbəri "bu konflikt mövcud deyil" sözlərini söyləyərkən, bu məlum ifadənin özündən tutmuş digər addımları da nəzərdə tutur. Dağlıq Qarabağ ifadəsindən imtina etməklə müəyyən informativ və siyasi reallıq yaradacağımızı zamanla görəcəyik. Dağlıq Qarabağın hazırda Rusiya sülhyaradıcı qüvvələrinin məsuliyyət zonasına aid olan ərazidə yaşayan azərbaycanlıların dönüşü, bizim konstitusiyamızı, qanunlarımızı, bütövlüyümüzü tanıyan, cinayət törətməmiş ermənilərlə birgəyaşayış məsələsinə baxılmalıdır. Bütün bunlardan öncə isə sözsüz ki, Qarabağdan erməni hərbi birləşmələrinin çıxardılması həllini tapmalıdır. Hazırda erməni cəmiyyətində elə bir durumdur ki, biz yalnız revanşları qabardanda buna qarşı çıxırıq. Biz görürük ki, hazırda Ermənistanda nələr cərəyan edir. Görün erməni xalqının əvvəlki siyasi iqtidarlara nifrəti, xüsusilə işğalda rol oynayanlara nifrəti o həddədir ki, hətta onlar Azərbaycana məxsus ərazilərin əllərindən çıxmasında günahlandırdıqları Nikolu köhnə rejimin əvəz etməsini istəmirlər. Bu üzdən də biz bunu nəzərə alaraq elə bir siyasi xətt sərgiləməliyik ki, beynəlxalq aləmdə öz mövqelərimizi güclü şəkildə qoruyub saxlaya bilək. ATƏT-in Minsk qrupunun fəaliyyətindən qarşıdakı dövrdə hüquqi və siyasi cəhətdən imtinanın yolları tam hazırlanmalıdır. Biz türklərin dili ilə desək feli vəziyyəti hüquqa keçirməliyik. Gerçək durum Rusiya və Türkiyənin regionun gələcəyində rol oynadığı, Minsk qrupunun sanki qeyri-rəsmi iki üzvü var mənzərəsi meydana çıxıb. Bu vəziyyətdə biz qərblə də münasibətlərimizi qorumalıyıq. Amma Qarabağ üzərindən deyil. Ona görə də dövlət və cəmiyyət olaraq siyasi qüvvələr, bütün hakimiyyət institutları vahid bir xətt seçməlidirlər. Yəni, Qarabağ üzrə bizim növbəti strategiyamız elan olunmalıdır. Hər bir kəs Qarabağla bağlı öz fərdi baxışını dəməməlidir. Ölkə rəhbərliyi bəyan edir ki, bu münaqişə artıq bitib! Yəni, həm müharibə, həmçinin də münaqişə bitib. Ona görə də növbəti dövr üçün bizim Qarabağ üçün bir baxışlar sənədi, siyasət sənədinə, bir konseptual sənədə böyük ehtiyacımız var. İşğal dövründə hamımız silahlanmışdıq ki, işləməyən dörd qətnamə mövcuddur, qərarlar var, Avropa birliyinin belə müəyyən sənədləri var. Amma Qarabağ məsələsində onun Qarabağ rayonu statusunu özündə ehtiva etməsi daxil yenidən ümumxalq mövqeyinə çox ciddi ehtiyac var. Fərqli mövqe və fərqli fikirlər ola bilər. Amma Azərbaycan dövlətinin bəyan etdiyi məsələ bütün qüvvələrin vahidləşməsi, hətta dünyaya və ermənilərə bildirilməsi üçün biz uzaq məqsədlərimizi açıq bəyan etməliyik. Ümidvarıq ki, Azərbaycan Ermənistanın antitürk və antiazərbaycan iddialarından geri durmağa və ərazi bütövlüyümüzə məcbur edə biləcəkdir. O zaman biz diplomatik tanınmaya gedəcəyik yoxsa getməyəcəyimiz sualına ordu, xalq və Ali Baş Komandan olaraq cavab verəcəyik. Bölgədə iqtisadi, ticarət və kommunikasiya yollarının açılması sonradan siyasi durum yaradacaq. Yəni, alt basis siyasi hərəkətlər tələb edəcək. O zaman bizim ölkəmiz ona çalışacaq ki, regionda maraqlarımıza, təhlükəsizliyimizə cavab verən siyasəti ortaya qoya bilək. Bunun üçün də dövlətin bütün sektorları, cəmiyyət bir araya gələrək qarabağ savaşından sonra gələcəyimizin hədəflərini müəyyən edəcəyik" deyə Z. Oruc əlavə edib.

Qeyd edək ki, Azərbaycan 28 ildir ki, Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkdiyini dünyaya bəyan edir. Münaqişəyə ikili münasibət nəticəsində Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmağa məcbur edilməsə də, dövlətimizin hərbi gücü sayəsində biz buna nail olduq. Prezident İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın imzaladıqları 10 noyabr 2020-ci il tarixli razılaşma sənədi regionda qarşıdurmalara və müharibəyə son qoyan, nahaq qanların axıdılmasını dayandıran, Azərbaycan xalqına qarşı edilmiş böyük ədalətsizlikləri aradan qaldıran, bölgədə sülh və əməkdaşlığa yol açan əhəmiyyətli bir deklorasiyadır. Razılaşma sənədindəki müddəalara əsasən, müharibənin dayandırılması, qəhrəman Azərbaycan əsgərinin əzmi ilə azad edilmiş ərazilərdən başqa, işğal olunmuş Ağdam, Kəlbəcər və Laçın rayonlarının silahsursat işlədilmədən, şəhid verilmədən geri qaytarılması mühüm diplomatik qələbə və böyük tarixi hadisədir.

Eyni zamanda, razılaşma sənədinin müddəalarına əsasən, Naxçıvan Muxtar Respublikasına gedən nəqliyyat dəhlizinin açılması ölkəmizin qardaş Türkiyə Cümhuriyyəti ilə, oradan da Avropa və əksinə, Asiya ölkələri ilə əlaqələrinin daha da genişləndirilməsinə, Pekindən Londona qədər uzanan tarixi İpək yolunun yenidən bərpa edilməsinə geniş imkanlar açılıb. Bu, Naxçıvan Muxtar Respublikasının illərdən bəri davam etməkdə olan çətin blokada şəraitindən xilas edilməsinə və Azərbaycanın ayrılmaz bir parçası olan bu diyarın ölkəmizin digər rayonları ilə əlaqələrinin yenidən formalaşmasına xidmət edəcəkdir. Bundan başqa, İlham Əliyevin Vətən müharibəsindəki tarixi Zəfəri Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı mat vəziyyətinə salmış, onun başçılıq etdiyi başabəla ölkəni sonu görünməyən müddətdə dərin iflasa uğratmışdır. Ermənistan Respublikasının mövcud hərbi-siyasi böhrandan xilası üçün bu ölkəyə on illiklərlə vaxt tələb olunur. Ermənistan hazırda dünyadan təcrid olunmuş, siyasi-iqtisadi və mənəvi böhranın məngənəsində çapalayan, məhv olmağa doğru gedən bir ölkəyə çevrilmişdir. Ermənistanın hazırkı hərbi-siyasi mənzərəsində onu bu dərin böhrandan xilas edəcək hər hansı bir "xilaskar" görünmür. Süni şəkildə ərazi iddiaları xülyasına uymuş, koronavirusdan da betər ifrat millətçilik xəstəliyinə yoluxmuş erməni başbilənlərindən birinin digərini əvəz etməsi ilə Ermənistanda vəziyyətin əsaslı şəkildə dəyişdiriləcəyinə inanmaq mümkün deyildir.Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakter etibarilə Vətən müharibəsi adlandırılır. Bu müharibənin qalibləri Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və müzəffər Azərbaycan Ordusu, Azərbaycan əsgəridir.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Xaçmazda gizli toy edənlər cərimə olundu

***Xaçmazda gizli şəkildə keçirilən toy məclisinin qarşısı alınıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Quba rayonunda regional qrupundan bildirilib.

Xaçmaz rayon polis şöbəsinin əməkdaşları rayon ərazisində xidmət aparan zaman restoranlardan birində gizli şəkildə toy mərasiminin keçirildiyini aşkar ediblər. Şöbə əməkdaşları tərəfindən məclis dərhal dayandırılıb, məclisin təşkilatçısı və orada iştirak edən 50-ə yaxın şəxs barəsində qanunvericiliyə uyğun olaraq tədbirlər görülüb.

Məclis iştirakçılarından 19 nəfərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə protokolları tərtib olunub, qadınlar və azyaşlılarla isə profilaktiki söhbətlər aparılaraq karantin rejimi qaydalarına riayət etmələri barədə məlumat verilib.

# Hacıqabulda kürəkən qayınata və qaynını bıçaqladı

***Hacıqabulda bıçaqlanma hadisəsi baş verib. Hadisə Abdulabad kəndində qeydə alınıb.***

Kənd sakini, 1976-cı il təvəllüdlü Musa Novruzəli oğlu Hüseynov və oğlu, 1996-cı il təvəllüdlü Gündüz Musa oğlu Hüseynovla kürəkənləri arasında münaqişə olub. Münaqişə zamanı kürəkən üzərində gəzdirdiyi bıçaqla M.Hüseynovun çənəsinə və G.Hüseynovun isə başına xəsarət yetirib.

Yaralılar Şirvan Şəhər Mərkəzi Xəstəxanasına çatdırılıb və hər ikisi Cərrahiyyə şöbəsinə yerləşdirilib.

Hadisənin səbəbi hələlik məlum deyil.

Faktla bağlı araşdırma aparılır.

# YDM-də quldurluq edən şəxs saxlanıldı

***Xaçmaz rayonunda quldurluq edən şəxs saxlanıldı.***

DİN-in Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan Unikal.org-a verilən məlumata görə, Xaçmazda yerləşən yanacaq doldurma məntəqələrinin birində operator işləyən E.Quliyev Rayon Polis Şöbəsinə müraciət edərək, fevral ayının 10-da gecə saat 03:30 radələrində bir nəfər şəxsin ona bıçaqla hədə-qorxu gəldiyini və üzərində olan 1450 manat pulu quldurluq yolu ilə ələ keçirdiyini bildirib.

Polis əməkdaşlarının "isti izlərlə" keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə E.Quliyevə qarşı quldurluq əməlini törətməkdə şübhəli bilinən rayon sakini Sərxan Qabulov qısa müddətdə müəyyən edilərək saxlanılıb.

Dindirilmə zamanı saxlanılan şəxs törətdiyi hadisəni etiraf edərək, quldurluq yolu ilə əldə etdiyi pulların bir qismini xərclədiyini bildirib. Polis əməkdaşları tərəfindən 700 manat pul isə maddi sübut kimi ondan götürülüb.

Faktla bağlı Xaçmaz Rayon Polis Şöbəsində cinayət işi açılıb, araşdırma aparılır.

# Axtarışda olan 19 nəfər saxlanıldı

***Fevral ayının 10-da daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.***

DİN-in Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən, gün ərzində törədilmiş 36 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 17 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 37 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 19 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 1 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 1 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 22, qanunsuz saxlanılan silah-sursatla bağlı 7 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 57 nəfər saxlanılıb.

# Akif Əliyev və onun dəstəsinin istintaqı başa çatdı - İş məhkəmədə

***Abşeron rayon icra hakimiyyəti Memarlıq və tikinti şöbəsinin müdiri (baş memar) Akif Əliyev, Abşeron rayon icra hakimiyyəti MKTB-nin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin rəisi Murad Əhmədov, onlarla birlikdə mühakimə olunanlar - Cəfər Əkbərov, Babək Zalıyev, Seymur İsmayılzadə, Emin Süleymanov, Novruz Əliyev, Tural Ağaməmmədov və Şamil Xəlilovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***



Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş araşdırılması üçün hakim Əli Məmmədovun icraatına verilib.

İttihama görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə Abşeron Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciətlər araşdırılıb.

Bununla əlaqədar keçirilən kompleks əməliyyat-istintaq tədbirləri ilə Abşeron rayon icra hakimiyyəti Memarlıq və tikinti şöbəsinin müdiri (baş memar) Akif Əliyevin vətəndaşa tikinti üçün hər hansı layihə hazırlanmadan və rayon İcra hakimiyyətinə tikintiyə icazə üçün rəsmi qaydada müraciət olunmadan, müvafiq zəruri sənədləşmə aparılmadan tikinti aparılması üçün ümumi himayədarlığı həyata keçirəcəyini bildirib, Abşeron rayon icra hakimiyyəti MKTB-nin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin rəisi Murad Əhmədovun vasitəsilə 3000 manat məbləğində pul vəsaitini rüşvət qismində istəyib almasına, daha sonra tikinti obyektində aparılan tikinti-quraşdırma işləri zamanı ümumi sahə həcminin artmasını bildirib əlavə olaraq vətəndaşdan 1500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına, Murad Əhmədovla aralarında bölməklə şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən edilib.

Bununla əlaqədar Akif Əliyev 23 iyun 2020-ci il tarixdə Cinayət Məcəlləsinin 311.2-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona həmin maddədə nəzərdə tutulan ittiham elan olunub.

Həmçinin, istintaqla Murad Əhmədovun özünün Akif Əliyevlə yaxın münasibətlərinin olmasını, həmin münasibətindən istifadə edərək vətəndaşın Xırdalan şəhərində yerləşən "AAAF Park" yaşayış kompleksinin nəzdində 96 kv/m qeyri yaşayış sahəsinin texniki şərtlərinə dəyişiklik edilməsi və eskiz layihəsinin hazırlanması imkanına malik olmasını, bunun müqabilində 2500 manat məbləğində pul vəsaitinin rüşvət qismində verilməsinin zəruri olmasını yalandan bildirərək vətəndaşı aldatmasına, qeyd edilən məsələnin müsbət həlli üçün onun 1000 manat məbləğində pul vəsaitini ələ keçirməsinə, o cümlədən vətəndaşın xeyrinə edəcəyi hərəkətə görə sonuncunu 2500 manat məbləğində pul vəsaitini rüşvət qismində verməyə təhrik etməsinə şübhələr üçün əsaslar müəyyən edilib.

Müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirlərinə təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində Murad Əhmədov vətəndaşı aldadaraq 1000 manat məbləğində pulu 20 iyun 2020-ci il tarixdə ondan alarkən cinayət başında yaxalanıb.

Qeyd olunan qanunsuz əməllər məhkəmə qərarı əsasında keçirilmiş əməliyyat-axtarış tədbirlərinə uyğun olaraq audio-video çəkilişlərlə təsdiq olunub.

Murad Əhmədov Cinayət Məcəlləsinin 32.4, 312.1 (rüşvət verməyə təhrik etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

İstintaq araşdırması zamanı Cəfər Əkbərov, Babək Zalıyev, Seymur İsmayılzadə, Emin Süleymanov, Novruz Əliyev, Tural Ağaməmmədov və Şamil Xəlilovun barəsində də cinayət işi açılıb.

# Lətif Nəbiyevin işi hakim icraatına verildi

***Uzun müddət Bakı Apelyasiya Məhkəməsinin və Suraxanı rayon Məhkəməsinin hakimi olmuş Lətif Nəbiyevin cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə daxil olub.***



Teleqraf.com xəbər verir ki, cinayət işi araşdırılması üçün hakim İlham Mahmudovun icraatına verilib. Yaxın günlərdə məhkəmə başlanacaq.

Qeyd edək ki, Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrliyi ilə baş tutan iclasda hazırlıq iclasında prokuror vəsatətlə çıxış edib.

Prokuror cinayət işinin baxılmasının Gəncə Ağır Cinayətlər Məhkəməsinə adiyyatı olmadığı qeyd edib. Bildirib ki, cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə aid olan cinayət işidir.

Prokuror Lətif Nəbiyevin barəsində olan cinayət işinin Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilməsi barədə vəsatət verib.

Hakimlər vəsatəti təmin edib.

Xatırladaq ki, cinayət işi üzrə iki nəfər zərərçəkən şəxs qismində tanınır.

Belə ki, Lətif Nəbiyev iş düzəltmək adı ilə vətəndaşlara qarşı 100 min manatdan artıq dələduzluq etməkdə təqsirli bilinir.

Lətif Nəbiyev barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqda) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham verilib.

Qeyd edək ki, 2008-ci ildə Məhkəmə-Hüquq Şurasının qərarı ilə Lərif Nəbiyev statusundan və vəzifə səlahiyyətlərindən istifadə etməklə korrupsiya hüquqpozmasına yol verdiyinə görə intizam məsuliyyətinə cəlb edilməklə səlahiyyətlərinə xitam verilib. Daha sonra Prezidentin sərəncamı ilə vaxtından əvvəl hakimlikdən azad olunub.

# Maliyyə Nazirliyi 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatı açıqlayıb

***Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatı açıqlayıb.***

Nazirliyin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, operativ məlumatlara əsasən, 2020-ci il üzrə dövlət büdcəsinin mədaxili 24 milyard 124 milyon manat proqnoza qarşı 24 milyard 679,2 milyon manat və ya 102,3 faiz icra olunub, bu da 2019-cu illə müqayisədə 461,1 milyon manat və ya 1,9 faiz çoxdur. Ötən il qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 10 milyard 677,2 milyon manat və ya 105,4 faiz icra edilib. Bu, 2019-cu illə müqayisədə 63,7 milyon manat və ya 0,6 faiz çoxdur.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 7 milyard 387,2 milyon manat vəsait təmin edilib ki, bu da proqnoza nisbətən 197,2 milyon manat və ya 2,7 faiz çoxdur. Həmin vəsaitin 75,6 faizi və ya 5 milyard 585,1 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşməklə proqnoza nisbətən 185,1 milyon manat və ya 3,4 faiz, 2019-cu illə müqayisədə 153,1 milyon manat və ya 2,8 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 3 milyard 938,2 milyon manat vəsait təmin edilib ki, bu da proqnoza nisbətən 108,2 milyon manat və ya 2,8 faiz çoxdur. Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozlaşdırılmış məbləğdə transfert, yəni 12 milyard 200 milyon manat vəsait daxil olub.

Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 596,1 milyon manat təşkil edib ki, bu da proqnozdan 207,9 milyon manat və ya 25,9 faiz az, 2019-cu illə müqayisədə isə 17,2 milyon manat və ya 3 faiz çoxdur.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti dövlət büdcəsinə dövlət əmlakının icarəyə verilməsindən daxilomalar üzrə 10,3 milyon manat vəsait təmin edib ki, bu da proqnoza nisbətən 2,3 milyon manat və 28,8 faiz çoxdur. Dövlət büdcəsinə sair daxilolmalar üzrə 547,4 milyon manat vəsait daxil olub.

Operativ məlumatlara əsasən, 2020-ci ildə dövlət büdcəsinin xərcləri təsdiq olunmuş proqnoza nisbətən 96,1 faiz və ya 26 milyard 416,3 milyon manat icra olunub ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 990,4 milyon manat və ya 8,1 faiz çoxdur.

Dövlət büdcəsi vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsinə, əməkhaqları, müavinətlər, pensiyalar, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin tam və vaxtında maliyyələşdirilməsinə nail olunub.

2020-ci il dövlət büdcəsi xərclərinin 16 milyard 364 milyon manatı və ya 62 faizi cari xərclərə yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 835,1 milyon manat və ya 21 faiz çoxdur. Cari xərclər üzrə artım əsasən 2019-cu ildə dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışanların əməkhaqlarının və ölkədə pensiya və sosial ödənişlər üzrə baş vermiş artımların qarşılanmasına 2 milyard 39,9 milyon manat, koronavirus (COVID-19) pandemiyasının iqtisadiyyatda yaratdığı mənfi təsirlərin azaldılmasına və mübarizə tədbirlərinə 609 milyon manat, ali təhsilin maliyyələşdirilməsinə 186,2 milyon manat vəsait yönəldilib.

2020-ci ilin dövlət büdcəsindən 8 milyard 326,1 milyon manatı və ya 31,5 faizi əsaslı xərclərə (2019-cu illə müqayisədə 1 milyard 46,1 milyon manat və ya 11,2 faiz az), 1 milyard 726,2 milyon manatı və ya 6,5 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə (2019-cu illə müqayisədə 201,4 milyon manat və ya 13,2 faiz çox) yönəldilib. 2020-ci ildə 2019-cu illə müqayisədə səhiyyə xərclərinə 1,9 dəfə və ya 814 milyon manat, sosial müdafiə və sosial təminat xərclərinə 36,2 faiz və ya 828,1 milyon manat, müdafiə və milli təhlükəsizlik xərclərinə (cari xərclər, dövlət investisiya qoyuluşu və ehtiyat fondlarından ayrılan vəsaitlərin cəmi) 36,1 faiz və ya 1 milyard 72,6 milyon manat, təhsil xərclərinə 26,4 faiz və ya 579,9 milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə xərclərə 21 faiz və ya 317,1 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 7,3 faiz və ya 23,2 milyon manat, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 2,1 faiz və ya 22,7 milyon manat çox vəsait yönəldilib.

Dövlət büdcəsi xərclərinin 36,5 faizi və ya 9 milyard 652 milyon manatı sosial təyinatlı xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 890,7 milyon manat və ya 24,4 faiz çoxdur.

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə 2020-ci ilin dövlət büdcəsində təsdiq edilmiş 3 milyard 787,5 milyon manat müdafiə xərclərinə qarşı (cari xərclər, investisiya qoyuluşu və ehtiyat fondlarından ayrılan vəsaitlərin cəmi) 4 milyard 426,8 milyon manat vəsait ayrılıb ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 72,6 milyon manat və ya 36,1 faiz çoxdur.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına müvafiq olaraq, dövlət büdcəsindən müdafiə xərclərinə əlavə ayrılmış vəsait hesabına yeni hərbi texnikanın alınması, ön cəbhəyə ezam olunmuş hərbi qulluqçuların və səfərbərliklə hərbi xidmətə çağırılmış zabit və gizir vəzifələrinə təyin edilmiş heyətin əlavə pul təminatı, Silahlı Qüvvələrə səfərbərliklə çağırılmış əsgər vəzifələrinə təyin edilmiş heyətə xidmət etdiyi müddətdə aylıq vəzifə maaşı və ona müəyyən edilmiş aylıq əlavənin ödənilməsi qarşılanıb.

Koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən 1 milyard 985,6 milyon manat vəsait istifadə olunub. Həmin vəsaitdən 612,5 milyon manatı koronavirusla mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə əlavənin ödənilməsinə, zəruri tibbi ləvazimatların və avadanlıqların, dərman vasitələrinin alınmasına, çarpayı fondunun artırılması və ixtisaslaşmış xəstəxanaların fəaliyyətlərinin təmin edilməsinə, karantin nəzarətinə götürülmüş şəxslərə karantin müəssisələrində göstərilən xidmətlərlə bağlı xərclərin ödənilməsinə yönəldilib.

Bununla yanaşı, qlobal pandemiya ilə bağlı dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 1 milyard 334,1 milyon manat vəsait sərf olunub.

Qeyd olunan vəsait hesabına pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək məqsədilə özəl sektorda çalışan 243 min nəfərdən çox işçinin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi, 107 mindən çox fərdi (mikro) sahibkara maliyyə dəstəyinin göstərilməsi, sahibkarlıq subyektlərinə bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, sahibkarlığın inkişafına əlavə dövlət dəstəyinin göstərilməsi, xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydasına uyğun olaraq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi, əhalinin məşğulluq imkanlarının artırılması məqsədilə əlavə ödənişli ictimai iş yerlərinin yaradılması, həyati vacib sərnişindaşıma və digər sərnişindaşıma fəaliyyəti göstərən hüquqi şəxslərə maliyyə dəstəyinin verilməsi, güzəştli ipoteka kreditləri üzrə ayrılan vəsaitin artırılması, respublikanın təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərclərinin ödənilməsi, əhaliyə güzəştli işıq limitinin 2020-ci ilin aprel-may aylarında 100 kvts. həcmində artırılması ilə bağlı xərclər maliyyələşdirilib.



2020-ci il ərzində koronavirus pandemiyası ilə bağlı beynəlxalq miqyasda tədbirlərin dəstəklənməsi məqsədilə 39,3 milyon manat məbləğində, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 17 milyon manat, UNESCO və ICESCO təşkilatlarına 3,4 milyon manat və 18 xarici ölkəyə 18,9 milyon manat beynəlxalq yardımlar göstərilib.

Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri üçün 143,9 milyon manat vəsait yönəldilib. Həmin vəsaitin 72,9 milyon manatı vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi məqsədilə sosial mənzillərin tikintisinə, 71 milyon manatı isə ipoteka layihələrinin maliyyələşdirilməsinə sərf edilib.

Dövlət büdcəsindən hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 milyon manat vəsait ayrılıb və həmin vəsait hesabına Mənzil İnşaatı Dövlət Agentliyinin sifarişi ilə inşa edilən Bakı və Naxçıvan şəhərlərində 485 ədəd tam təmirli mənzil alınmış və hərbi qulluqçuların mülkiyyətinə verilməsi rəsmiləşdirilib.

Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2020-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 765,6 milyon manat vəsait yönəldilib ki, onun da 565,6 milyon manatının dövlət büdcəsindən, 200 milyon manatının isə Dövlət Neft Fondunun büdcəsindən ayrılmış vəsait təşkil edir. Qeyd olunan vəsaitin 360,2 milyon manatı qaçqın və məcburi köçkünlərə verilən müavinətlərə (331,5 milyon manat), bəzi kommunal xidmətlərin dəyərinin ödənilməsinə (17,1 milyon manat), qeyri-maddi aktivlərin, maşın və avadanlıqların alınmasına (4,4 milyon manat), cari təmir, bank xidmətləri xərclərinin ödənilməsi, digər xidmətlərin və ödənişlərin maliyyələşdirilməsinə (5,2 milyon manat) yönəldilib, 407,4 milyon manatı isə məcburi köçkünlər üçün mənzillərin və evlərin tikintisinə istifadə olunub.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 402,7 milyon manat vəsait yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çoxdur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilmiş yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiya, o cümlədən əkin, məhsul, toxum, heyvan, arı və barama subsidiyaları verilməsinə başlanılıb. Bundan başqa, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən lizinqə götürülən və satınalınan kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20 faizi ödənildikdə, dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilib. Qeyri-neft məhsullarının ixracının təşviqi üçün 2020-ci ilin dövlət büdcəsindən 12,7 milyon manat vəsait sərf olunub.

2020-ci ildə dövlət büdcəsindən siyasi partiyalara 3,6 milyon manat maliyyə yardımı ayrılıb.

Kütləvi informasiya vasitələrinin ("Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu) fəaliyyətinin təmin olunması məqsədilə 2020-ci ilin dövlət büdcəsindən üst-üstə 50,6 milyon manat vəsait yönəldilib.

Vətəndaş cəmiyyətinin möhkəmlənməsinə və davamlı inkişafına nail olunması, ictimai əhəmiyyətli problemlərin həlli ilə bağlı qeyri-hökumət təşkilatlarına maliyyə yardımının göstərilməsi üçün 2020-ci ilin dövlət büdcəsindən 5,4 milyon manat vəsait ayrılıb.

2020-ci ilin dövlət büdcəsindən investisiya xərclərinə 4 milyard 751,7 milyon manat vəsait yönəldilib. Bu mənbədən elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 648,4 milyon manat, müdafiə və hüquq-mühafizə, inzibati, idarəetmə və digər təyinatlı obyektlərin tikintisi, əsaslı təmiri və yenidən qurulması üçün dövlət əsaslı vəsait qoyuluşu xərclərindən 755,1 milyon manat vəsait istifadə olunub.



# Yarımçıq ömrün qəhrəmanlıq simfoniyası

***İkinci Qarabağ müharibəsində Vətən, millət yolunda canından keçib tarix yazan Murad Ocaqdurdu oğlu Nefesov Masallı şəhərində boya-başa çatmışdı. Onun qəlbində Vətənə, üstündə qürurla gəzdiyi doğma torpağa bağlılıq, məhəbbət doğulduğu gündən yuva salmışdı. Azərbaycanın müqəddəs parçası olan Qarabağın azadlığı uğrunda şanlı zəfərimizə doğru gedən yolda torpağa axıtdığı qızıl qanla bu ilahi sevgiyə bir ölməzlik qatdı.***

Murad doğma Azərbaycana ləyaqətli oğul olmaq üçün təmiz, ulu duyğularla müstəqil həyatını başlayır. Ürəyi sevdalı gəncin ilk qurub-yaratdıqları da gözəl alınır. İnsanlara gərək olması, fayda verməsi Murada yaşına uyuşmayan hörmət, ehtiram gətirir. 2019-cu ildə həqiqi hərbi xidmətə yola düşəndə mərdliyi, mənliyi, nəcib həyat amalı yaşadığı cəmiyyətdə hamıya bəlli idi. Xidmət etdiyi hərbi hissədə mənəvi aləmində qərar tutan insanlığın zinəti sayılan saf, munis dəyərlərə görə əsgər yoldaşları onun başına and içirlər. Murad da öz növbəsində komandirlərin verilən bütün tapşırıqlara vicdanla yanaşır, erməni dığaların tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə hərbi sirlərinə mükəmməl yiyələnir. Təlimlər zamanı yaxşı tankçı- tuşlayıcı kimi fərqlənir.

Nəhayət, bütün Azərbaycan xalqın 30 il həsrətlə gözlədiyi gün gəlib çatır. Ali Baş Komandan 2020-ci il sentyabrın 27-də təcavüzkar erməni dığalarına yerini göstərməyə döyüş əmrini verir. Vətən torpaqları uğrunda başlanan müharibəyə birinci qatılan qeyrətli oğullardan biri də 19 yaşlı Murad olur.

İgid əsgər Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xocavəndin alınmasında əsl qəhrəman tək döyüşür. Ölümlə üzüzə gələn anlarda belə ürəyi Vətən eşqi ilə döyünür, yalnız qələbəyə can atır. Azərbaycanın hər qarışı azad olsun deyə, polad sinəsini irəli verib sanki qartal tək dığaların üstünə şığıyır. Muradın hər hücumu onlara matəm libasını geyindirir. Düşmənə çəkdiyi dağla çiyin-çiyinə döyüşdüyü silahdaşların gözündə cəsurluq, igidlik, mərdlik simvoluna dönür.

Şuşanın alınmasında da Murad xüsusi şücaət göstərir. Qaldı ki, lap məktəb illərində arzusunda olduğu qələbəni görə bilmir. Ağır müharibə getdiyi 7 noyabr 2020-ci ildə Şuşanın alınmasında şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşur. Onun ləyaqətli, şərəfli həyat yolu isə Vətəni sevmək, yaşatmaq naminə daim minlərin ürəyində çiçəklənər.

Muradın qəhrəmanlığı ölümündən sonra " Vətən uğrunda", " Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***



# "Atam dedi ki, Polad Həşimovun nəşi çatanda hərbi salam ver" - Şəhid polkovnikin qızı

***Qəbələ şəhəri Vətən Müharibəsində 38 şəhid verib. Onlardan biri Vətən Müharibəsi Qəhrəmanıdır. Söhbət 44 yaşında şəhidlik zirvəsinə ucalan polkovnik-leytenant Abdurahmanov Əfqan Ağasəf oğlundan gedir.***

Əfqan Abdurahmanov bu yüksək fəxri adla təltif olunan altı polkovnik-leytenantdan biridir. Silahlı Qüvvələrimizin ən peşəkar zabitlərindən biri olmuş şəhidimiz 2001-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Elə həmin ildə Rəqinə adlı xanımla ailə həyatı qurub.

"Qafqazinfo"ya danışan şəhidin həyat yoldaşı əvvəlcə hərbçi xanımı olmağın çətinliklərindən söz açıb: "Əfqanla uzaq qohum olmuşuq. Əvvəldən də gördüyüm, bildiyim adam idi. 1999-cu ildə nişanlandıq, iki il sonra da ailə həyatı qurduq. Onda Əfqan ikinci kursda oxuyurdu, 1997-ci ildə hərbi akademiyaya qəbul olmuşdu. 19 il birlikdə ömür sürmüşük. Əfqanın 15 ili ön cəbhədə keçib. Onun kimi, bizim də çətinliyimiz olub. O qədər ayrı qalmışıq ki...

Biz Qəbələdə yaşayırıq, o da Tərtərdə xidmət edirdi. Əfqan müharibə olmayan vaxtda da erməni ilə üz-üzə xidmət edib. Aylarla üzünü görmürdük. 14 gün döyüşdə iştirak edib, 15-ci gün şəhid oldu. O 14 gün ərzində nə gecəmiz oldu, nə də gündüzümüz. Şəhid olan günü səhər tezdən zəng etmişdi. Uşaqları soruşdu. Dedim, sən nə edirsən? Güldü, qayıtdı ki, heç nə, oturub gözləyirik".



Şəhidimizin döyüş yoluna gəlincə, Aprel döyüşlərində də ön cəbhədə olan Əfqan Abdurahmanov Vətən Müharibəsi zamanı Murov dağı silsiləsindəki zirvələrdən birinin azad olunmasına rəhbərlik edib. Bu əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də, atıcı silahların və artilleriya vasitələrinin atəş nöqtələri nəzarətə götürülüb. Bundan başqa, Əfqan Abdurahmanov Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhid olduğu postun azad olunmasına rəhbərlik edib.

Oktyabrın 10-da Əfqan Abdurahmanovun rəhbərliyi ilə hərbçilərimiz Ağdərə ətrafında yerləşən yüksəkliklərdən birinin düşməndən təmizlənməsi əməliyyatını həyata keçirən zaman ona bildirilir ki, 20 dəqiqədən sonra humanitar atəşkəs qüvvəyə minir, hücum əməliyyatı dayandırılsın. Əfqan Abdurahmanov əmrə tabe olur və hücumu dayandırır. Düşmən isə humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq, hərbçilərimizin olduğu 951-ci yüksəkliyi tankla atəşə tutur. O, partlayış dalğası nəticəsində şəhid olur.

Rəqinə xanım həyat yoldaşının şəhid olmasını bibisindən eşitdiyini deyir: "Əfqanın şəhid olmasını Bakıda yaşayan bibisindən eşitdim. Saat 11-12 arası idi. Kimsə bizə deyə də bilməyib, çətinlik çəkib. Sonra qayınanam zəng etdi. Soruşdu ki, sənə kimsə zəng edib? Dedim, yox, nə olub ki? Qayıtdı ki, Əfqanın bibisi zəng edib, deyir, hazırlaşın, Qəbələyə gedirik. Həmin an bibisinə zəng etdim, dedim, nə olub, niyə Qəbələyə gəlirsiniz? Dedi, vallah, mən də bilmirəm.

Dedi ki, bibisi oğlu Rüfətə zəng ediblər. Deyiblər, Asəf dayı, Nərgiz xalanı da götürüb kəndə gəlin. Elə deyəndə artıq mən hər şeyi başa düşdüm. Həmişə əziz tutduğum telefonu tulladım. Telefonu da ona görə əziz tuturdum ki, həmişə səsini onunla eşidirdik. Uşaqlar yanımda idi, onlar da hər şeyi başa düşdülər. Axşam olanda bizə zəng edib "Gecəniz xeyrə qalsın" deməmiş yatan deyildi Əfqan... Elə bir atanı itirmək, bununla barışmaq çox çətindir".

Maraqlıdır ki, Rəqinə xanım Əfqan Abdurahmanova Vətən Müharibəsi Qəhrəmanı adının verilməsini də həyat yoldaşının bibisindən öyrənib: "Əfqana Vətən Müharibəsi Qəhrəmanı adının verilməsini də bibisindən eşitdim. Biz Bakıya Zəfər paradına gedirdik, yolda idik. Çünki ataları uşaqlara demişdi ki, qələbə olacaq, atanız sizi parada aparacaq. Onun sözünü tutmaq üçün uşaqları Bakıya aparırdım. Onun şəhidliyinin bir ayının tamamında qələbə qazandıq, iki ayının tamamında isə fəxri adla təltif olundu".

Şəhid polkovnik-leytenantın birinci kursda oxuyan qızı Hilalə Abdurahmanova isə bizə igid, Vətən Müharibəsi Qəhrəmanı olan atanın övladı olmağın qürurundan danışır:

"Zəfər paradını atamın əsəri imiş kimi izlədim. Bilirdim ki, o da bu qələbədə böyük pay sahibi olub. Paradı izlədikcə elə bilirdim ki, düşmənin vurulmuş tanklarının hamısını atam sıradan çıxarıb. Yaşayanda da qürur duyurdum, indi də qürur duyuram. Atam evin qapısını fərqli döyürdü. Bir dəfə babam qapını atam kimi döydü. Mən də elə bildim, atamdır. Getdim, qapını açdım ki, babamdır. Nə qədər əsəbiləşmişdim... Poçta pul göndərirdi. Ağlım kəsmirdi, pulu iyləyirdim ki, atanın iyi gəlir. Daha bilmirdim ki, o pul atanın göndərdiyi pulun özü deyil. Həmişə elə şeylərdə axtarırdım atamı... Ata özünə ətir alanda, deyirdim, eynisindən mənə də al. O da alırdı".

Əfqan Abdurahmanov Tovuz döyüşlərində şəhid olan general-mayor Polad Həşimovu yaxından tanıyırdı. Abdurahmanova eyni rayondan olan zabit yoldaşının şəhadətə yüksəlməsi ona çox pis təsir edib.

Abdurahmanovun xanımı: "Polad Həşimovu əvvəldən tanıyırdı. Polad Həşimov şəhid olanda Əfqan məzuniyyətdə idi. Səhər evdən çıxdı. Sonra qayıdıb gəldi ki, heç bilirsən nə olub? Rəngi qaralmışdı. Dedi ki, Poladı vurublar. Mən də çaşıb qaldım, öz-özümə dedim ki, Polad kimdir? Ağlıma da gəlməzdi ki, söhbət Polad Həşimovdan gedir. Polad Həşimovdan üç ay sonra da özü şəhid oldu. Generalın vurulmasını heç cür qəbul edə bilmirdi".

Polad Həşimovla bağlı söhbətə şəhidimizin qızı Hilalə əlavə edir: "Həmin gün atam məni hazırlığa aparırdı. Polad Həşimovun nəşini Qəbələyə gətirirdilər. Mən də dedim ki, getmirəm, səninlə birgə gözləyirəm. Rayonun girişində iki saatdan çox gözlədik. Atam çox kefsiz, sakit idi. Polad Həşimovun nəşi çatana yaxın maşından düşdüm. Atam dedi ki, yanımızdan keçəndə hərbi salam verərsən. Atam hər dəfə yoldan keçəndə, Polad Həşimovun şəklini harada görürdü, hərbi salam verirdi".

İndi Əfqan Abdurahmanovun şəhidlik zirvəsinə ucalmasından dörd ay ötür. Onun ailəsinin yaşadığı mənzildə, hər şəhid ailəsində olduğu kimi, bir guşə yaradılıb. Forması divardan asılıb, şəxsi əşyaları, bir də şəhid olarkən cibində qalan 17 manat pul xatirə kimi o guşəyə düzülüb...

Qalanı xatirədir...

***Emin Səfərov***

# Sevgi və xəyanət burulğanı, güllərə qərq edilən tabut, dəfn qadağası... - HƏYAT HEKAYƏTİ

***Dünyadan vaxtsız köçən insanların həyatı elə bil sürət qatarına yüklənmiş olur. Hər dayanacaqda dayanmayan, sürətlə, üz tutduğu yolun sonuna tələsən qatara.***

Sovet aktyoru Andrey Mironovu da taleyi surət qatarına mindirmişdi, gedirdi. Nə etmişdisə, surətlə, daha çox etməyə çalışmışdı elə bil. Daha çox film, daha çox obraz və daha tez tanınıb sevilmək...

Lent.az-ın məlumatına görə, Andrey Mironov 1941-ci ildə martın 7-də Moskvada dünyaya gəlib. Valideynləri martın 8-nə yazdırıblar ki, doğum günü bayram gününə düşsün.

Anası Mariya Mironova, atası Aleksandr Menaker Rostovda qastrolda rastlaşanda hər iksi ailəli olublar. Sevgiləri o qədər alovlu olub ki, hər ikisi ailəsindən ayrılıb və birləşiblər. Moskvada estrada teatrında işləyirdilər. Mironova və Menaker adlı yumoristik və musiqili duetlə çıxış edirdilər.

Andrey, demək olar ki, teatrda dünyaya gəlib, anasının sancıları səhnədə başlayıb.

Uşaqlıqdan teatrda böyüyüb, kulisdən səhnədəki valideynlərini izləyirdi. İlk dəfə səhnəyə 5 yaşında olarkən çıxıb. Anası danışır ki, tamaşanın ortasında tamaşaçılardan gurultulu gülüş və alqış sədası yüksəldi: "Dönüb gördüm ki, Andrey düz səhnənin ortasında əlini əlinə vurub gülür. Necə aludə olubsa, tamaşaya çıxıb səhnəyə".

Evlərinə gələn bütün aktyorları parodiya edərmiş Andrey. Hamı anlayırmış ki, bu uşaq aktyor olacaq.

1948-ci ildə Andrey Moskvada 170 saylı məktəbə gedib.

Uşaqlığı çox qayğısız keçib. Futbol oynayır, döş nişanlarının kolleksiyasını toplayır, çoxlu filmə baxırdı. Həm də sinifdə avtoritet sayılırdı.

Üçüncü sinfə qədər Andrey atasının soyadını daşıyıb - Menaker. 40-cı illərin sonunda SSRİ-də yəhudilərə qarşı "kosmopolitizmlə mübarizə" siyasi kompaniyası başlayır, Aleksandr Menakeri teatrdan xaric edirlər. 1950-ci ildə ata oğlunu ana soyadına keçirir ki, uşağın problemi olmasın.

1952-ci ildə Andrey ilk dəfə filmə çəkiləcəkdi, amma çəkiliş vaxtı meydançadan qovulub.

Kasıb uşaq rolunda çəkilməli idi, cındır köynək geyinməkdən imtina edir, nə qədər çalışırlarsa alınmır, neçə kadr məhv olandan sonra Ptuşko onu çəkiliş meydançasından qovur.

7-ci sinifdə oxuyanda Andrey teatr studiyasına yazılıb, uşaq tamaşalarında oynayırdı. Valideynləri onun aktyor olmasını istəmirdilər.

Anası Andreyi diplomat görmək istəyirdi. Ata-anası qastrolda olanda Andrey gizlicə sənədlərini Şukin adına teatr məktəbinə verir. İmtahanlarda necə həyəcanlanıbsa, burnundan qan açılıb. Ona görə də təmsili dəfələrlə təkrar deməli olub, nəticədə əla qiymətlə çıxıb imtahandan. İosif Rapoportun sinfinə düşən gələcək aktyor əla qiymətlərlə oxuyurdu.

Tələbələrə dərs vaxtı filmə çəkilmək qadağan edilmişdi. Sonuncu kursda Andrey kino sınaqlarına getməyə başlayıb. Hətta bir filmə çəkilib, o qədər maraqlı obraz yaradıb ki, müəllimi onu bağışlayıb.

Andrey 1962-ci ildə teatr məktəbini əla bitirir, onu Satira teatrına işə qəbul edirlər.

25 il həmin teatrda çalışıb. Teatrın baş rejissoru Valentin Pluçek idi, aktyor tezliklə onun favoriti olub. Rejissor - bu gəncin qeyri-adi temperamenti və talantı var - deyib.

Tezliklə Satira teatrına bilet tapmaq qəhrəmanlığa dönür. Mironovun oyununda nə isə maqnit kimi çəkirdi tamaşaçını.

Andreyin kino fəaliyyəti rejissor Aleksandr Zarxinin "Mənim kiçik qardaşım" filmi ilə başlayır. Bu, onun kinoda ilk ciddi işi idi.

Onun ardınca "Üç üstəgəl iki" komediyası uğurla nümayiş olundu. Andrey üç məzəli dostun birini oynayırdı.

1965-ci ildə Mironov Andrey Ryazanovun "Avtomobildən qorunun" əfsanəvi filmində rol alır. Onun ifası kinotənqidçilərin tərifindən düşmürdü.

Bundan sonra Andrey Mironovun çəkildiyi filmlər ardıcıllıq təşkil edir və sadəcə uğura məhkumdur. Rejissorlar məhz onu filmlərinə çəkmək üçün növbələşirlər.

"Ədəbiyyat dərsi", "Həyata bərabər il", "Brilyant əl". Sonuncu filmdə aktyorun daha bir istedadı açılır - ifası. Oxuduğu "Talesizlik adası" mahnısı hitə çevrilir.

Ondan sonra çəkildiyi bütün filmlərdə həm də mahnı oxuyurdu.

Eldar Ryazanovun "Qoca quldurlar" və İtalyanların Rusiyada qeyri-adi sərgüzəştləri" filmlərində çəkiləndən sonra aktyora əməkdar artist fəxri adı verilib.

Sonuncu adıçəkilən filmdə çəkilişlərdə italyan aktyorları heyrətə gəliblər ki, belə də aktyor olar, bütün tryuklarda özü çəkilir.

Ən çox uğur qazandığı muziklar idi, kinematoqraf onun sayəsində qazanırdı.

Qızıl fonda daxil olan daha bir film onun iştirakı ilə "12 stul" filmi idi.

Çoxseriyalı filmdə Andrey Mironov Ostap Bender roluna çəkilib.

1981-ci ildə populyarlığı o həddə çatmışdı ki, baş rola tərəf müqabilini özü seçirdi, rejissor yox. "Mənim ərim olun" filminə Yelena Proklova belə seçilmişdi.



Filmin çəkilişləri vaxtı şayiə yayılmışdı ki, onlar həqiqətən sevgilidir. Sonralar həqiqətən də Mironov belə fikrə düşmüşdü, amma aktrisa yox. Çəkilişlərin sonunda aktrisa dekorator Aleksandr Adamoviçlə sevgili çıxdı.

Tənqidçilərin fikrincə, aktyorun əsil istedadı "Mənim dostum İvan Lapşin" filmində açılıb. Andrey Mironovun qəhrəmanı filmdə vanna otağında özünü güllələməyə cəhd etməsini necə yaradıbsa, indiyə qədər teatr və kinoaktyorluq fakültələrində o epizod tədris olunur.

Andrey Mironovun şəxsi həyatında sevgi romanı çox olub. Qadınlar onun dərdindən dəli olurdular. Heç özü də az qadınpərəst deyildi. 1971-ci ildə ilk dəfə Yekatrina Qradova ilə evlənib - "Baharın on yeddi anı" filminin Keti. (https://lent.az/xeber/heyat-hekayeti/meshur-aktyoru-seven-professor-qizi-sohretin-zirvesinden-keci-saxlamaga-enen-rabiteci-colorred-heyat-hekayeticolor-353812)

Bir qızları da dünyaya gəlir - Mariya Mironova, indi aktrisadır. Cəmi üç il sonra ayrılırlar, Mironovun xəyanəti ucbatından.

İkinci arvadı aktrisa Larisa Qolubkina olub. 10 il sevgili olandan sonra evləniblər, aktrisa ona ərə getməyə razılığı belə gec verib.

Mironov onun qızı, aktrisa Mariya Qolubkinanı öz adına yazdırıb.

Evli olduğu halda da sevgililəri olub. İndiyə qədər onun əsil sevgisinin Tatyana Yeqorova olduğu dillərdə danışılır.

İllər sonra Tatyana "Andrey Mironov və mən" adlı avtobioqrafik roman yazıb. Aktrisa yalnız sevgilərindən deyil, teatr həyatı, həmkarlarının Mironovun parlaq istedadını qəbul edə bilmədikləri barədə çox həqiqətləri qələmə alıb.

İlk dəfə Mironovun səhhətində problem özünün 1978-ci ildə büruzə verib, Daşkənddə qastrol vaxtı.

Beyninə qan sızmışdı, həkimlər meningitdən olduğunu deyiblər. İki aya müalicə olunub teatra qayıdan aktyoru tamaşaçıları gül yağışına tutmuşdular.

80-ci illər onun üçün ağır illər oldu. Bütün bədəni ağırlaşıb ağrıyırdı, beynində ağır əməliyyat keçirməli oldu.

Xəstəlik onu nə filmdən, nə də səhnədən ayıra bilməmişdi.

1987-ci il avqustun 5-də Andrey Mironovun ən yaxın dostu , aktyor Anatoliy Papanov mənzilində ölmüş vəziyyətdə tapılır. Papanov hamam vannasında ürək tutmasından ölmüşdü. Ondan əvvəl aktyor onu kiminsə boğmağa cəhd etdiyini dəfələrlə dilə gətiribmiş. Hətta buna görə baxıcıya da gedib.

Andrey Mironov yaxın dostunun bu şikayətinə səhlənkar yanaşmaqda günahlandırırdı özünü, özünə bağışlaya bilmirdi.

Məzarının başında mən indi sənsiz necə qalacam, necə oynayacam? - deyib: "Xahiş edirəm məni də apar özünlə".

Pərəstişkarları da bu xahişini aktyora bağışlaya bilmirlər ki, özü ölümünü xahişlə alıb.

1987-ci ilin yayında Mironov teatrla Riqaya qastrola getmişdi.

Avqustun 14-də səhər oteldə yaxşı səhər yeməyi yeyir-kolbasa, pendir, üstündən kofe. Kökəlməkdən çox qorxduğu üçün həmişə belə yeməzdi. Sonra da gedib tennis oynayır. Riqada hava çox isti imiş həmin gün. Bu da azmış kimi, tərləməsi üçün xüsusi kombinzonla düşüb parkda qaçır.

Axşam tamaşada səhnənin ortasında huşunu itirib yıxılır. Moskva teatrının bədii rəhbəri dərhal onu səhnənin arxasına aparıb, süni nəfəs verməyə başlayır. Özünə gəlmədiyini görüb, səhnəyə çıxır, tamaşaçılara biletlərini qaytarıb getməyi xahiş edir.

Kiminsə təşviş içində özünə gəlməsi üçün ona verdiyi nitroqliserin, vəziyyətə əks effekt göstərib, arteriya damarı partlayıb. Tamaşaçılar arasında həmin vaxt təsadüfən Riqada olan tanınmış neyrocərrah Eduard Kandel də olur. Həkim onu ayıldıb, xəstəxanaya götürür.

Həkimin həmkarları ilə məsləhətləşmə uzun çəkir. Onların otaqdan çıxanda simalarında ölüm ifadəsi olub. Diaqnoz qorxulu idi - beyin damarlarının partlaması nəticəsində beyinə qan sızması.

İki gün sonra - 1987-ci il avqustun 16-da 46 yaşlı Andrey Mironov dünyayla vidalaşır. Daha doğrusu, onu zorla "yaşadan" aparatdan ayırmağa qərar verilir.

Həmin axşam Mironov yenə səhnəyə çıxmalı idi. Tamaşaçılara biletləri qaytarıb, pullarını geri almağı xahiş etdilər. Lakin heç kim kassaya yaxınlaşıb bileti qaytarmadı.

Aktyorun nəşini Riqadan Moskvaya gətirdikləri yol boyu əhali küçələrə çıxıb, ehtiramla onu müşayiət edirdilər. Onu gətirən maşın güllərə qərq edilmişdi.

Avqustun 20-də onu dəfn etdilər, dəfndə həmkarlarından heç kim iştirak etmirdi, rəhbərlik qastrolu pozmağa heç kimə icazə verməmişdi...

***Ramilə Qurbanlı***



# Dolanışığı çəkdiyi şəkillərdən çıxan Adolf Hitlerin əsərləri

***Bəşər tarixində əksər liderlər, dövlət başçıları digər bacarıqları ilə də seçilib. Onlar yalnız mahir siyasətçi kimi deyil, eyni zamanda fitri istedada malik şəxslər kimi də özlərini tanıtmışlar.***

Lent.az-ın haqqında bəhs edəcəyi məşhur dövlət başçısının istedadı hər kəsi təəccübləndirəcək.

Söhbət əlbəttə ki, qəddar diktatordan deyil, rəssam Adolf Hitlerdən gedəcək.

Onun çəkdiyi rəsm əsərlərinə tamaşa etdikcə, müəllifin sanki son dərəcə alicənab, insanlığın ən ali pilləsində yer alan kəslərdən biri olduğunu düşünürsən. Ağlına belə gətirə bilmərsən ki, bu əsərlər nasist təfəkkürlü, şovinist bir şəxsin fırçasından ərsəyə gəlib.

Belə bir fakt da var ki, Hitler Alman Fəhlə Partiyasına üzv olarkən qeydiyyat formasının peşə xanasına "rəssam" yazmışdı. Hitler hətta siyasi mübarizəyə qoşulmamışdan əvvəl əsərlərini sataraq dolanışığını təmin edirdi.

Qeyd edək ki, onun çəkdiyi rəsm əsərləri hazırda Rusiya Dövlət Arxivi, Berlindəki Alman Dövlət Arxivi, və Vaşinqtondakı Hərbi Tarix Muzeyində saxlanılmaqdadır.

Nə qədər inandırıcı olmasa da, təqdim edəcəyimiz rəsm əsərlərinin müəllifi tarixin qəddar şəxslərindən biri Adolf Hitlerdi...

# 40 yaşlı kişilər, 30 yaşlı qadınlar: hər an ölə bilərsiniz



***Alimlər bir insanın ölmə şansının maksimum olduğu yaşını təyin ediblər.***

Lent.az-ın xarixi mediaya istinadla verdiyi xəbərə görə, tədqiqatı Helsinki Universiteti Mərkəzi Xəstəxanası və Texas Sağlamlıq Mərkəzinin mütəxəssisləri aparıb.

Mütəxəssislər, müxtəlif ölkələrdən gəlmiş xəstəxana pasiyentlərinin minlərlə hadisə tarixini təhlil edərək, kişilərin həyatında ən təhlükəli yaşın 40 il olduğu qənaətinə gəliblər. Qadınlar üçün bu təhlükə 10 il daha azdır - 30 il.

Bu yaş həddindən sonra elm adamları kişilərə və qadınlara vəziyyətlərini yaxından izləmələrini, içməyi və siqaret çəkməməyi, stresdən çəkinməyə və düzgün yeməyə başlamalarını tövsiyə ediblər.

Ekspertlər pis vərdişlərdən əl çəkməyən insanların sağlam həyat tərzi sürənlərdən 10 il az yaşayacaqlarına hazırlaşmalı olduqlarını qeyd edirlər.

Siqaret və alkoqol və fast-food istifadəsi, habelə oturaq həyat tərzi kimi zərərli vərdişlər bir sıra şiş, diabet və ürək-damar xəstəlikləri ehtimalını artırır.

Statistikaya görə, dünyada hər il 18 milyondan çox insan ürək və qan damar problemlərindən ölür.

# Şeyxin qorxunc duası, Misir prezidentinin heyrəti, Şamaxıda qeybə çəkilən cəsəd...

***- Şeyx doğrudan tarixi şəxsiyyət olub, yoxsa bu, bir əfsanədi?***

...Deyəsən, sualım xoşuna gəlmədi Nahidin. Necə yəni əfsanə? Belə əfsanə olarmı? Sussa da, sanki belə demək istəyirdi Nahid.

Necə yəni əfsanə? Axı buranı şəxsən o, məhz o özü tikdirib: Şirvanşah Şeyx İbrahim Əvvəl! I İbrahim. 1402-ci ildə, elə bu yerdə.

Necə adlandırmışdı Peterburqdan gələn şərqşünas Yohan Dorn oranı? Hə, "qartal yuvası"na bənzətmişdi. Və üstündən 619 il keçməsinə baxmayaraq, hələ də öz qartal əzəmətini qoruyub saxlaya bilib...

***

1965-ci ildə Misir Ərəb Respublikasının Prezidenti Camal Əbdül Nasir SSRİ-ə səfərə gəlir. Səfərin proqramına uyğun Əbdül Nasirin müsəlman respublikalarının birinə, Azərbaycana dəvət olunur. Azərbaycan səfərində isə onun proqramına isə bir neçə dini abidənin ziyarətini də daxil edirlər. Bakıda görməli yerləri gəzən Misir prezidentinin paytaxtdan sonra ilk getdiyi yer Şamaxı olur. Şamaxıda isə onu əvvəlcə bir türbəni göstərirlər. Sal qayaların üzərində inşa edilmiş əzəmətli bir türbəni. Misir ehramlarının yanından gəlmiş Misir prezidenti, elə həmin o piramidalarının bəlkə yüzdə bir boyda olan bu möhtəşəm tikiliyə heyranlıqla baxır.

***- Bu nədi belə?***

"Diri Baba"nın türbəsidir - deyirlər. Əbdül Nasir sınıb-dağılmaqda olan pilləkənlərlə bir təhər türbəyə qalxır. İçəri girir. Ziyarətini edir. Vəg onu müşayiət edən sovet rəsmilərinə deyir:

***- Mən bir xahiş edə bilərəmmi?***

Xahişmi? Hamı heyranlıq içindədi. Görəsən, nə xahiş edəcək dünyanın ən qədim dövlətinin başçısı?

***- Cənab Brejnevə mənim xahişimi çatdırın. Bu türbə mütləq təmir edilsin.***

Xahişin SSRİ-nin ali rəhbərinə çatdırılıb-çatdırılmadığı məlum deyil. Amma məlum olan budur ki, el arasında "Diri Baba" kimi tanınan bu türbə hələ də məğrurcasına dayanıb durur. Bayaq dediyim kimi: üstündən 619 il keçsə belə...

***

Rəvayət olunur ki, "Diri Baba"nın əsil adı Pirməhəmməd olub. Şeyx Pirməhəmməd xəlvəti təriqətinin yolçusu imiş. Başqa bir rəvayətə görə, Şeyx ömrünün son günlərini hücrəyə çəkilərək, ibadət etməklə keçirir. Hücrəsində müqəddəs kitabdan ilahi kəlamları oxuyarkən haqq dünyasına qovuşur. Amma müridləri onun öldüyündən bir neçə gün sonra xəbər tuturlar. Bu hələ harasıdır?! Şeyx öləndən 300 il sonra belə onun bədəni çürüməmiş, olduğu kimi qalıbmış. Bir gün müridləri yenidən həmin yerə gələndə, Şeyxin cəsədinin qeybə çəkildiyini görüblərmiş. Və bundan sonra şeyx Pirməhəmmədin hələ də haradasa olduğunu özlərinə təlqin ediblər. Bu səbəbdən həmin yerdə türbə tikiləndən sonra buraya "Diri Baba" adı verilib.

1647-ci ildə məşhur türk səyyahı Övliya Çələbi bu yerlərə, daha dəqiqi, keçmiş Mərəzə qəsəbəsinin yerləşdiyi əraziyə çatanda türbəni də ziyarət edir. Mərəzəyə səyahətdən sonra isə "Diri Baba" haqqında yazır:

"Şirvana çatmamış məlum oldu ki, hündür bir mağarada mübarək bir zat yatırmış. Hətta ağ əbası var imiş, üstünə bir parça toz da qonmurmuş. Uzun müddətə çürüməməsinə baxmayaraq, ətrafı gözəl qoxu saçarmış. Cəsədindən gözəl qoxu gələrmiş".

Şirvanı qonşu ölkələrə bağlayan karvan yolunun yaxınlığında yerləşən "Diri Baba" digər səyyahların da diqqətini özünə cəlb edib. Fransanın İran şahlığından elçisi Adam Oleari, holland səyyahı Kornelius Devrin və digər səyyahlar yol qeydlərində bu abidədən yazıb və hətta türbənin rəsmini də çəkiblər. Yeri gəlmişkən, vaxtı ilə məşhur alim Məşədixanım Nemətova bu türbədə tədqiqat işi aparıb. Məşədixanım Nemətova yazır ki, türbənin daş kitabəsi Peterburqda Ermitajda saxlanılır. Türbədə dəfn olunan müqəddəsin kimliyi haqda isə heç bir məlumat yoxdur.



"Diri Baba" türbəsi günbəz formasındadır. Birinci mərtəbədə ikitağlı pəncərə və qapısı olan otaq var. Abidənin əsas hissəsi ikinci mərtəbə sayılır, bura geniş salon və əsas mağara hissədən ibarətdir. Həmin mağarada Diri Babanın hücrəsi yerləşir. Ehtimal edilir ki, hücrədə məzar var. Amma içərisində kimin yatdığı bəlli deyil. Həmin Şeyx Pirməhəmmədin, ümumiyyətlə, burada dəfn edilib-edilmədiyi də sual altındadır.

Nahidin dediyinə görə, Şeyx Pirməhəmmədi başqa bir müqəddəs övliya, Şirvanda and yeri olan müqəddəs Şeyx Əyyub Baba dəfn edib. Bir maralı məqama fikir verin; Şeyx Əyyub Baba 1730-1796-cı illərdə yaşayıb. Buna tarixi mənbələrdə də rast gəlmək olur. O, Azərbaycanın tanınmış sufi şeyxlərindən, övliyalarından biri olub. Şeyx Əyyub bir övliya kimi Şərq təsəvvüf tarixinə adını yazdıranlardandı. Fikir verin, "Diri Baba"nın cəsədinin 300 il çürüməməsi və qəfildən yoxa çıxması barədə fərziyyələrlə, onun Şeyx Əyyub baba tərəfindən dəfn edilməsi, sonuncunun yaşadığı illərlə üst-üstə düşür.

Türbənin ətrafındakı gizli mağaralar haqqında da xeyli fərziyyələr var. Məsələn, həmin mağaraların Gülüstan qalasına aparıb çıxarması barədə də rəvayətlər dolaşır. Nahid deyir ki, həmin mağaraların arasında gizli keçidlər olub. Sonralar bu keçidlər uçqunlar nəticəsində bağlanıb. Ya da torpaq onları basıb. Hazırda bu mağarlarda geniş arxeoloji tədqiqatlara ehtiyac var. Bu gün türbə ətrafında aşkar edilmiş mağaralardan isə yalnız ikisinə girmək mümkündür.

Qayanın içərisində yonulmuş türbənin birinci mərtəbəsi dəhlizdən və türbə xidmətçisi üçün ayrılmış otaqdan, ikinci mərtəbəsi isə böyük salondan ibarətdir. Birinci mərtəbə ilə ikinci mərtəbə arasında səliqə ilə düzəldilmiş daş pilləkən mövcuddu. Qayanın içərisində yonulub tikildiyinə görə, binanın ancaq cənub tərəfə doğru bir fasadı var. Həmin fasadın quruluşunda Şirvan abidələrində olan memarlıq əlamətləri ilə yanaşı, fərqli detallar da mövcuddur. Elə bu məqamın özü də araşdırılmalıdır.

Yeri gəlmişkən, Mərəzə dünyada yeganə yerdir ki, burada 72 müqəddəs dini obyekt var. Hər biri də ayrı-ayrı şəfa ocağı, müqəddəs kimi qəbul edilir. Bir əhvalat da danışırlar. Deyilənə görə, Mərəzənin axundu Abdulvahid Türkiyədə təhsil alarkən yerli Şeyxlərdən belə bir söz eşidir: Osmanlıya gələn bəla Mərəzəyə getsin!

Abdulvahid bu sözdən pis olur. Şeyxdən soruşur ki, niyə mənim elimə-obama qarğıyırsan? Şeyx isə cavabında deyir: "Mərəzənin 72 övliyası, "Diri Baba"sı var. Bütün dərd-bəlanı məhv edəcək!

Dərd-bəladan uzaq olmaq arzusuyla...

***Səbuhi Məmmədli, Mərəzə***

# Bəstəkarlar İttifaqı Nizami Gəncəvinin 880 illiyi münasibətilə müsabiqə elan edib

***Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. 2021-ci ildə Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ili "Nizami Gəncəvi İli" elan edib. Azərbaycan Bəstəkarlar İttifaqı "Nizami Gəncəvi İli"nə həsr olunmuş qəzəl-romans müsabiqəsi elan edib.***

İttifaqdan bildirilib ki, müsabiqənin keçirilməsində əsas məqsəd görkəmli bəstəkar, musiqişünas-alim, Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin "Sənsiz" və "Sevgili canan" əsərləri ilə təməlini qoyduğu qəzəl-romans janrının ənənələrinin davam və inkişaf etdirilməsi, Nizami Gəncəvinin zəngin yaradıcılığının müasir dövrdə vokal əsərlərdə musiqi və mətnlərin vəhdəti ilə ədəbi-bədii meyarlara cavab verən yeni qəzəl-romansların aşkar edilməsidir.



Müsabiqəyə heç bir yerdə səslənməmiş və nəşr olunmamış yeni qəzəl-romanslar təqdim edilməlidir. Təqdim ediləcək əsərlər vokal ilə müxtəlif tərkibli instrumental ansambllar (2-3 alət) üçün nəzərdə tutularaq, 7-10 dəqiqəlik vaxt həcmində olmalıdır.

Müsabiqə iştirakçıları əsərin klavirini PDF formatında (və ya partiturasını) və yüksək formatda yazılmış CD audio versiyasını, romansın mətnini və müəllif haqqında məlumatları (ad, soyad, təhsil, ünvan, telefon) Azərbaycan Bəstəkarlar İttifaqının music0306@mail.ru və azcomposersunion@gmail.com elektron ünvanına təqdim etməlidirlər. Əsərlər səs və fortepiano ifasında və ya səsyazma şəklində təqdim olunmalıdır. Müsabiqədə peşəkar bəstəkarlar iştirak edə bilərlər.

Müsabiqənin qalibləri 18 sentyabr - Milli Musiqi Günündə elan ediləcək.

Müsabiqənin qalibləri üçün aşağıdakı mükafatlar nəzərdə tutulur:

I yer - 1000 manat
II yer - 700 manat
III yer - 500 manat
Fəxri diplom - 300 manat

Təqdim olunmuş işlər bu il iyunun 15-dək Azərbaycan Bəstəkarlar İttifaqında onlayn qəbul ediləcək. Əsərlər Bəstəkarlar İttifaqının tərtib etdiyi münsiflər heyəti tərəfindən qiymətləndiriləcək.

# Mədəniyyət Nazirliyi 2021-ci il üçün əsas hədəflərini elan edib

***Azərbaycan xalqı özünün tarixi-mədəni irsi, folkloru, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Mədəniyyətimiz xalqımızın minilliklər boyu yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi dəyərləri özündə ehtiva edir.***

Mədəniyyət Nazirliyi xalqımızın yaratdığı zəngin mədəniyyəti və maddi-mənəvi irsi qorumaq, inkişaf etdirmək, məzmununu zənginləşdirmək və gələcək nəsillərə layiqincə çatdırmaq, eləcə də dünya miqyasında onu təbliğ etmək, habelə bu sahədə dövlət siyasətini səmərəli şəkildə həyata keçirmək məqsədilə 2021-ci il üçün əsas hədəflərini elan edir:

Mədəniyyət sahəsində və idarəetmə sistemində islahatların aparılması

Mədəniyyət və yaradıcılığın inkişafı və məzmununun zənginləşdirilməsi

Yeni mədəni dəyərlərin yaradılması, yaradıcı sənayelərin inkişafı

Mədəni irsin qorunması, bərpası və inkişafı

Mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası

"Nizami Gəncəvi ili" ilə bağlı yerli və beynəlxalq səviyyədə tədbir və layihələrin həyata keçirilməsi

Azərbaycan mədəniyyətinin dünyada təbliğinin gücləndirilməsi, beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi




Azərbaycan mədəniyyətinin ölkə daxilində təbliği məqsədilə layihə və tədbirlərin həyata keçirilməsi

Covid-19 pandemiyası ilə əlaqədar mədəniyyət sahəsində yaranan çağırışların həll edilməsi.

# "Ümid 2021" - Qeydiyyat dayandırılıb - Münsiflər heyəti işə başlayır

***Azərbaycan Gənclər İttifaqının təşkilatçılığı ilə "Ümid 2021" Beynəlxalq İncəsənət Müsabiqəsi keçirilir.***

Turnir əvvəlki kimi beynəlxalq statusa malikdir. 8 fevraldan etibarən müsabiqəyə qeydiyyat dayandırılmışdır. 12 nəfər münsiflər heyətindən ibarət olan müsabiqəyə, bu günə qədər 8 ölkədən olan iştirakçılarla birlikdə 464 nəfər qeydiyyatdan keçib. Yarışma tam şəffaf formada keçirildiyi üçün münsiflər heyətinin adları açıqlanmır. Ən sonda yerlər açıqlanan zaman, münsiflərin də adları açıqlanacaq.

Müsabiqə solo və duet nominasiyaları üzrə keçirilir. İncəsənət növləri: musiqi (klaviatura, nəfəs və zərb alətləri), vokal, vizual sənətlər, teatr və bədii qiraət, rəqs, dizayn və modelləşdirmə. Sənətin bütün sahələri xalq, müasir və klassik (akademik) janrlarda təqdim olunur.

"Bu il "Ümid 2021" yarışması simvolik xarakter alır. Yeni ilin ilk günlərindən hamımız möcüzə, insan ruhunun gücünün qələbəsinə inam və insanlığın ən pis düşməni olan virus üzərində inamla yaşayırıq. Hamımız torpaqlarımızda uzunmüddətli sülh olacağına ümid edirik. Ölkəmizin çiçəklənməsi və övladlarımızın uzun sevinci və xoşbəxtliyi üçün ümidlə yaşayırıq. Düşünürəm ki, iştirakçılar da bunu hiss edirlər və şöhrətlə təsvir edilə bilməyən hər şeyi əsərlərində ifadə edəcəklər. Bütün iştirakçılara uğurlar və özlərinə inam diləyirik! " - Azərbaycan Gənclər İttifaqının İdarə Heyətinin üzvü, yarışın əsas təşkilatçısı - Əziz Əzizov dedi.

Turnir növbəti yaş kateqoriyalarında aparılır: körpə - 7 yaşa qədər, uşaqlar 1 (7-8 yaş), uşaqlar 2 (9-10 yaş), gənclər 1 (11-12 yaş), gənclər 2 (13-15 yaş) və böyüklər ( 16 yaş və yuxarı).

Təşkilatçılarla əlaqə yaratmaq üçün zəhmət olmasa bu nömrələrlə əlaqə saxlayın:

az.gencler@mail.ru
tel & wp: +99450 250 22 93/96.

# Bu qala daşlı qala...

***Şuşa qalasının və Şuşa şəhərinin salınması Qarabağ xanlığının ən möhtəşəm səhifəsidir. Pənahəli xan Bayat qalası və Şahbulaq qalasının müdafiə məqsədi üçün əlverişsiz mövqeyini nəzərə alaraq xanlığın mərkəzini strateji cəhətdən daha əlverişli yerə köçürməyi qərar alıb. O, bu məqsədlə hündür dağlar qoynundakı yaylanı seçib. Həmin ərazinin şərq hissəsində İrandan dəvət edilən kənkanlara bir neçə yerdə quyu qazdırıb. Həmin quyulardan su çıxandan sonra orada qala salınması barədə qərara gəlib. Bu qala ilk növbədə Pənahəli xanın yaradıcılıq dühasının məhsuludur.***

Qarabağda yetişən nadir tarixi şəxsiyyətlər, ailələr, nəsillər, şəcərələr, sənətkarlar, konkret tarixi hadisələr, eləcə də qədim diyarın etnoqrafiyası barədə 20-dən çox kitabın müəllifi, "Şuşa" qəzetinin redaktoru Vasif Quliyev bu sözləri AZƏRTAC-ın müxbirinə deyib.

Qarabağ tarixinin tanınmış tədqiqatçısı qala divarları barədə söhbətinə davam edərək bildirib: "Şuşa qalasının inşa edildiyi sahə çoxlu təpə və yarğanlara malik, qərbdən amfiteatr formasına malik yayladır. Qalanın inşası üçün seçilmiş məkan çox uğurlu idi. Qala ərazisi bir çox yerlərdə dərələrlə tamamlanan sıldırım qayalar, yarğanlar və meşələrdən ibarət idi. Yarğanların olması təbii suların qala ərazindən axıdılmasına imkan verirdi və bu, tez-tez yağışlı və dumanlı havanın xarakterik olduğu Şuşanın subasma ilə üzləşməməsi demək idi. Şuşa qalası dəniz səviyyəsindən 1400-1800 metr hündürlükdə yerləşir. Qala ilk növbədə strateji əhəmiyyət daşıyan müdafiə məqsədi daşıyırdı və onun tikintisində döyüş zamanı ən az itki vermək də nəzərə alınıb.

Qalanın ətrafı yaxşı yonulan sal daşlarla zəngin idi. Daşyonanlar və bənnalar həmin daşları yonaraq hörgü üçün yararlı hala gətiriblər. 1750-ci il iyunun 21-də Şuşa qalasının ilk bünövrə daşları düzülüb. Pənahəli xan öz əlləri ilə qalanın bünövrəsinə ilk daşları atıb və onun tikintisində fəhlə kimi işləyib. Azərbaycan memarlığının ən gözəl incilərindən biri olan Şuşa qalası Şərq memarlıq məktəbi üslubunda inşa edilib. Qala dairəvi mühafizə bürclərinə malikdir və yüksək memarlıq xüsusiyyətləri ilə seçilir.

Şuşa qalasının tikintisində feodal dövrü memarlığının əsas şəhərsalma prinsipləri, həm şəhər yerinin seçilməsi, həm struktur planlaşdırması, həm də qalanın xarici bədii siması özünü büruzə verir. Qala divarlarında hər 50 metrdən bir dairəvi və düzbucaqlı bürclər, müşahidə məntəqələri, xəbərdarlıq üçün qalaçalar inşa edilib. Divarlarda oval şəklində atəş nöqtələri - mazğallar qoyulub".

"1753-cü ildə şəhərin bir neçə yaşayış məhəlləsi salınıb və qala divarlarının böyük bir hissəsi inşa ediləndən sonra xanlığın sarayı Şahbulaqdan Şuşaya köçürülüb. Qala əhalisinin suya olan tələbatının ödənilməsi üçün çoxlu quyular qazılıb. Əvvəlcə qalanın içərisində ilk məhəllələr salınıb. 1763-cü ildə Pənahəli xanın ölümündən sonra qalanın tikintisi oğlu İbrahimxəlil tərəfindən davam etdirilib və başa çatdırılıb. Qalanın sahəsi 5,5 kvadratkilometr, divarlarının uzunluğu 3,7 kilometr, divarların eni 2,2 metr, hündürlüyü 8 metr olub", - deyə tanınmış tədqiqatçı fikrinə yekun vurub.

# Bəlğəmin müayinəsi



***Ağ ciyər xəstəlikləri zamanı xəstəliklərə düzgün diaqnoz qoymaq üçün müxtəlif müayinə metodlarından istifadə olunur.Bu müayinə metodlarından biri də bəlğəmin müayinəsidir. Bəlğəmin müayinəsi ağ ciyər xəstəliklərinin əmələ gəlməsinə səbəb olan mikrobların və bakteriyalarını növünü müəyyən etməkdə çox yardımçı olur.Xəstəliyi əmələ gətirən mikroorqanizmin tapılması xəstəliyin müalicəsini asanlaşdırır və ağırlaşmaların qarşısını alır.***

Bəlğəmin müayinəsi aşağıdakı xəstəliklərin müayinəsi zamanı tətbiq edilir:

- pnevmoniya
- bronxhektaziya
- ağ ciyər absesi
- plevrit
- vərəm və s.

Müayinə zamanı bəlğəmdə olan anaeroblar,mikoplazmalar,xlamidiyalar,pnevmosistlər,mikrobakteriyalar,göbələklər,legionellalar aşkar edilir.Bunun üçün aşağıdakılara əməl olunur.

* Bəlğəmin qrama görə boyanmış nümunələri materialın qopmuş epitel hüceyrələri ilə çirklənmə dərəcəsini qiymətləndirmək üçün kiçik böyümə cihazında baxılır.Qram sınağına görə boyanmış bəlğəmin həssaslığı xəstəliyə diaqnozun qoyulmasına yardım edir.

* Qram sınağına görə boyanmış çirklənməmiş bəlğəmdə qarışıq floranın tapılması anaereob infeksiyanın olmasını göstərir.

* Bəlğəmin müayinəsi nəticəsində vərəm xəstəliyinin diaqnozu təsdiqlənir.

* Boyanmış bəlğəm vasitəsilə pnevmositlər müəyyən edilir.

# Herpetik stomatit



***Herpetik stomatit ağız boşluğunun xəstəliyi olub özünü dildə, diş ətlərində,damaqda,dodaqlarda əmələ gələn yaralarla biruzə verir.Yaralar ağrılı olur,əvvəlcə bir-neçə,sonra isə çoxlu sayda olmaqla xəstəliyin əlamətlərini kəskinləşdirir.Herpetik stomatitin əmələ gəlməsinə herpes virusları səbəb olur.***

Xəstəliyə ilk dəfə insan həyata gəldiyi ilk günlərdə yaxalanır.Bu zaman körpələrdə birincili herpetik stomatit baş verir ki,diaqnoza adi gözlə baxdıqda təyin etmək mümkün olur.Belə ki,bu zaman körpənin bütün ağız boşluğu olmaqla dodaqları da ağ səpgilərlə örtülür.Bu zaman yüksək temprattur və limfa düyünlərində böyümə müşahidə edilir.Əksər hallarda yüngül müalicə ilə qısa bir zamandan bu cür herpetik stomatiti sağaltmaq mümkün olur.Xəstəliyin kəskinləşməməsi üçün körpənin ağzında ilk əmələ gələn ağ səpgilər nə qədər tez müalicə olunsa xəstəlik bir o qədər tez sağalır.Adətən,körpə uşaqlarda əmələ gələn herpetik stomatiti nistatin tozu vasitəsilə qısa müddət ərzində sağaltmaq mümkün olur.Qeyd etmək lazımdır ki,körpə vaxtı herpetik stomatit keçirən uşaqlar böyüdükləri zaman yenidən bu xəstəliyə yaxalandıqda xəstəliyin əlamətləri yüngül keçir.Amma,körpə vaxtı bu xəstəliyi keçirməyənlər yaşlandıqda herpetik stomatitlə xəstələndikdə xəstəliyin gedişatı çox ağır formada olur.

Böyüklərdə herpetik stomatit aşağıdakı hallarda baş verir:

- orqanizmin tempraturu yüksəldikdə
- günəş altında həddindən çox qaldıqda
- orqanizm soyuqladıqda
- qida allergiyaları zamanı
- ağız boşluğunun travmaları zamanı
- stresslər zamanı
- stomatoloqun müalicəsindən sonra

Böyüklərdə herpetik stomatit ağrılı qabarcıqlarla müşayət olunur.Qabarcıqlardakı maye sorulduğu zaman isə yerində yara əmələ gəlir və 5-7 gün müddətinə sağalma baş verir.

Xəstəliyə diaqnozun qoyulması çətinlik törətmir.

Müalicədə ağrıkəsicilərdən,qızdırma əleyhinə preparatlardan istifadə edilir.Yaraya asiklovir,solkoseril mazları sürtülür,brilliant abısı çəkilir.Xəstəliyin ağır formaları zamanı hormonal terapiya aparılır.

# Soyuq havaların ürək xəstələrinə təsiri

***Havaların soyuq keçməsi ürək xəstələri üçün risk faktoru hesab edilir. Orqanizm soyuduğu zaman ürək daha çox qan vurmağa çalışdığı üçün soyuq havalarda ürəyin işi artır.***

Soyuq havalarda, əsasən də payız və qış mövsümündə temperatur aşağı düşdükcə beyin orqanizmin temperaturunu sabit saxlamağa çalışır. Bu səbəbdən də ürək daha çox döyünməyə başlayır. Bu da dolayısıyla ürək əzələlərinin və damarların işini artırır. Əzələ və damarlarda soyuq hava səbəbindən əmələ gələn gərginlik ürək xəstələrinin kriz keçirmə riskini artırır.

Qış fəslində infeksion xəstəliklərin artmasının da ürək xəstələrinə mənfi təsiri böyükdür. Havanın dəyişməsi və temperaturun birdən-birə düşməsi ağciyər infeksiyalarının yayılmasına səbəb olur ki, bu da ürək xəstələrinin işini daha da çətinləşdirir. Bu səbəbdən də mütəxəssislər



ürək xəstələrinin infeksiyaya yoluxmuş insanlardan uzaq durmalarını tövsiyə edir. Mütəxəssislər ürək xəstələrinin küləkli havalarda az gəzmələrini və ictimai ortamlardan uzaq durmağı məsləhət bilir. Çünki ətrafdakılardan infeksiyaya yoluxmaq təhlükəsi onların vəziyyətini ağırlaşdırır. Soyuq havalar aşağıdakı ürək xəstəliklərindən əziyyət çəkən adamlar üçün daha təhlükəli sayılır:

- koronar arteriya damarlarında patologiya olan
- ürək-damar çatışmazlığından əziyyət çəkən
- baypas əməliyyatı keçirən
- infarkt keçirən.

Yuxarıda adları çəkilən xəstəliklərin soyuq havalarda kəskinləşmə riski 2 dəfə artıq olur.

Həkimlər ürək xəstələrinin soyuq qış aylarında öz sağlamlıqlarına qarşı daha diqqətli olmalarını qeyd edir. Əgər ürək xəstəsi siqaret çəkirsə, həkimlər ən azından soyuq havalar zamanı onu atmağı məsləhət bilirlər. Ürək xəstələrinin həkimin təyin etdiyi dərmanları vaxtlı-vaxtında qəbul eləməsi də əsas şərtlərdən biri hesab edilir. Bunlardan başqa ürək xəstələri soyuq havalarda idmanla məşğul olmamaı, şaxtalı havalarda bayırda çox gəzməməlidirlər. Əgər bayıra çıxsalar mütləq isti geyinməli, sinə və baş hissələrini daha isti saxlamalıdırlar.

# Bu şəxslərin koronavirusun yeni ştammına yoluxma riski çox azdır

***COVİD-19-a yoluxub sağalanlar və peyvənd olunanlar üçün virusun yeni ştammına yoluxma riski çox az olur.***

"Unikal" bildirir ki, bunu Trend-ə həkim infeksionist Fərrux Sədirov deyib.

Onun sözlərinə görə, virus mutasiya olunsa belə, onun bu strukturu COVİD-19-un ana strukturuna, hətta 50 il əvvəlki virusun ana strukturuna bənzəyir:

"Hər hansı bir koronavirus növünə yoluxmuş insanlarda xəstəliyə yoluxma ehtimalı nisbətən azdır. Həmin şəxslər virusa yoluxsa belə, onun xəstəliyi ağır keçirmə ehtimalı daha azdır. Bu səbəbdən xəstəliyi keçirənlər, peyvənd olunanlar virusun yeni ştammına yoluxsalar da, orqanizmlərində əmələ gələn immunitet sayəsində onların xəstəliyi yüngül keçirəcəklərini düşünmək olar".

F.Sədirov əlavə edib ki, orqanizmdəki antitellərin 3-6 ay ərzində qoruyuculuğunun olması barədə məlumatlar var. Bu müddətdən sonra anticisimlərin sayı azalmağa başlayır və təkrar



yoluxma mümkündür.

F.Sədirov qeyd edib ki, uşaqlar risk qrupuna daxil olmadığından onların hələki peyvəndlənməsi lazım deyil.

# Birləşdirici toxumanın diffuz xəstəlikləri

***Biirləşdirici toxumanı diffuz xəstəlikləri xəstəliklər qrupu olub,birləşdirici toxumanın və onun törəmələrinin sistem immun-iltihabi zədələnməsidir.Bu xəstəliklər qrupu kifayət qədər çoxsaylı xəstəlikləri əhatə edir.Bu xəstəliklərdən ən çox rast gəlinəni aşağıdakılardır:***

* qırmızı qurd eşənəyi
* sistem sklerodermiya
* dermatomiazid
* revmatik qızdırma
* revmatizm

Birləşdirici toxumanın diffuz xəstəlikləri zamanı autoimmun prosesin inkişafı ilə təzahür olunan homeostazın dərindən pozulması baş verir.

Autoimmun patologiyanın əsasında immun tənzimləmənin əsası durur.Bu zaman suressor limfositlərin fəallığı azalır,helper limfositlərinin fəallığı artır.Bu da müxtəlif spesifikli autoantitellərin ifrazı hasilatı ilə müşayət olunur.

Birləşdirici toxumanın diffuz xəstəliklərinin ümumi cəhətləri aşağıdakılardır:

* Patogenezin ümumiliyi

Buraya autoantitellərin nəzarətdən çıxmış hasilatı və antigen-antitel immun komplekslərin yaranması,onların qanda sirkulyasiyası və toxumalarda fiksə olunması,nəticədə ağır iltihabi reaksiyanın inkişaf etməsi aiddir.Bu patologiyalar adətən mikrosirkulyator hövzədə,böyrəklərdə,oynaqlarda



baş verir.

* Morfoloji dəyişikliklərin oxşarlığı

Buna birləşdirici toxumanın əsas maddəsinin fibrinoid dəyişikliyi,vaskulitlər,limfoid və plazmoid hüceyrəli infiltrat daxildir.

* Kəskinləşmə və remissiyalarla müşayət olunan xroniki gediş.

* Qeyri-spesifik təsirlərdən kəskinləşmə.

Bunlara infeksiya,insolyasiya,vaksinasiya aiddir.

* Zədələnmənin çoxsistemlı xarakteri

Dəri,oynaq,seroz qişalar,böyrək,ürək,ağ ciyərlər və s.də baş verən zədələnmələri.

Birləşdirici toxumanın diffuz xəstəlikləri qrupuna aid olan xəstəliklərin hamısı müstəqil klinik və morfoloji əlamətlərinə görə bir-birindən çox fərqlənir.Ona görə də hər bir xəstəliyə diaqnoz qoyularkən həkimdən daha diqqəti olmaq tələb olunur.

# “Qələbəyə görə özümü yaxşı hiss etmirəm- Teymur Rəcəbov

***Çempionlar Turunun “Opera Euro Rapid” adlanan üçüncü mərhələsinin 1/4 finalında niderlandlı Aniş Girini mübarizədən kənarlaşdıran Teymur Rəcəbov açıqlama verib.***

”Unikal” qəzeti xəbər verir ki, turnirin mətbuat xidmətinə danışan Azərbaycan şahmatçısı, Girini məğlub etdiyi üçün sevinmədiyini bildirib:

“Düzünü desəm, qələbəyə görə özümü yaxşı hiss etmirəm. Aniş Giri ilə yaxşı münasibətim var və biz dostuq. Qələbə qazanmaq xoşdur, ancaq digər oyunçulara qarşı qazandığım qələbədən sonra keçirdiyim hisslərlə eyni deyil”.



Teymur Rəcəbov yarımfinalda ABŞ təmsilçisi Uesli So ilə qarşılaşacaq. Bu raundun digər görüşü norveçli Maqnus Karlsenlə fransalı Maksim Vaşye-Laqrav arasında keçiriləcək.

Yarımfinal qarşılaşmaları fevralın 11-12-də keçiriləcək.

# AFFA Nuriyev və Əhmədzadəyə görə danışıqlara başlayıb

***AFFA Ukrayna Premyer Liqa təmsilçisi ”Minay” klubunun üzvləri Anatoli Nuriyev (yarımmüdafiəçi, 24 yaş) və Rüstəm Əhmədzadənin (hücumçu, 20 yaş) milliləşdirilməsi məqsədi ilə danışıqlara başlayıb.***

Qurumun mətbuat xidmətinin Firuz Abdulla mətbuata açıqlamasında bildirib ki, hazırda AFFA ilə Ukrayna Futbol Federasiyası bununla bağlı məktublaşma aparılır:

”Millimizin baş məşqçisi Canni de Byazi də demişdi ki, Ukraynada çıxış edən iki azərbaycanlı futbolçunu bəyənib. Onların qarşıdakı təlim-məşq toplanışına cəlb olunması hüquqi prosedurların sürətindən asılıdır. Hazırda federasiyalar arasında məktublaşmalar gedir. Bu, başa çatmalıdır ki, hüquqi prosedura start verilsin. Futbolçuların milliləşdirilməsi ilə bağlı hələlik rəsmi bir şey yoxdur. Bu barədə gələn həftə danışsaq, yaxşıdır”.



# Sabiq futbolçu "Tokio-2020"nin Təşkilat Komitəsinə rəhbərlik edəcək

***Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsinin rəhbəri Yosiro Mori istefa verəcək.***

”Unikal” qəzeti yerli TBS telekanalına istinadən xəbər verir ki, Morini bu postda sabiq futbolçu Saburo Kavabuti əvəzləyəcək.

84 yaşlı funksioner hazırda Yaponiya Futbol Assosiasiyasında məsləhətçi kimi fəaliyyət göstərir. O, Tokiodakı Olimpiya kəndinin meridir. Təşkilat Komitəsinin növbəti iclası fevralın 12-də olacaq. Həmin gün qərarın açıqlanacağı gözlənilir.

Qeyd edək ki, Yosiro Morinin qadınlar haqqında işlətdiyi ifadələr tənqiqlərə səbəb olub. Saburo Kavabuti 1958 - 1965-ci illərdə Yaponiya yığmasının formasını geyinib. O, 1980 - 1981-ci illərdə millidə baş məşqçi vəzifəsində çalışıb.

Tokio Yay Olimpiya Oyunları koronavirus pandemiyası ilə əlaqədar 2020-ci il 24 iyul - 9 avqustdan bu il 23 iyul - 8 avqusta təxirə salınıb.



# Neymar “Barselona” ilə oyunu buraxacaq

***Fransanın PSJ klubunun hücumçusu Neymarın durumuna aydınlıq gəlib.***

”Unikal” qəzetinin L’Equipe nəşrinə istinadən məlumatına görə, braziliyalı forvardın Çempionlar Liqasının 1/8 final mərhələsində İspaniya təmsilçisi “Barselona” ilə ilk oyunu buraxacağı dəqiqləşib. 29 yaşlı superulduz Fransa kubokunun 1/32 final mərhələsində “Kan”la görüşün 60-cı dəqiqəsində sol ayaq əzələsindən zədələnərək əvəzlənib. Paris təmsilçisi tibbi müayinənin nəticəsini hələ açıqlamayıb. Onunla yanaşı, bir müddət əvvəl zədələnən argentinalı yarımmüdafiəçi Anxel Di Mariya da Barselona səfərinə aparılmayacaq. Qeyd edək ki, “Barselona” ilə PSJ arasında ilk oyun fevralın 16-da İspaniyada, cavab qarşılaşması isə martın 10-da Parisdə keçiriləcək.

# Azərbaycan millisi irəliləyəcək - Zimbabvenin hesabına

***Milli komandaların FİFA reytinqi ilə bağlı ehtimallar cədvəli açıqlanıb.***

”Unikal” qəzetinin məlumatına görə, fevralın 18-də dərc olunacaq 2021-ci ilin ilk siyahısında bir sıra dəyişikliklər olacaq.

Bu, Azərbaycan yığmasından da yan ötməyəcək. Hesabat dövründə heç bir matça çıxmayan millimizin mövqeyi dəyişəcək.

İtaliyalı baş məşqçi Canni de Byazinin yetirmələri 1180 xalla 108-ci yerdə qərarlaşacaq. Komandamız bu pilləni eyni xala malik Estoniya ilə bölüşəcək.

Milli ötən cədvəllə müqayisədə bir pillə irəliləyəcək. Buna səbəb Zimbabvenin geriləməsidir. Afrika təmsilçisi 4 pillə geriləməklə 108-ci yerdən 112-ci sıraya yuvarlanacaq. Nəticədə Azərbaycan, Estoniya, Tailand və Liviya irəliləyəcək.

Qeyd edək ki, 1489 xala malik Türkiyə millisi 32-ci pillədə qalacaq. İlk “üçlük”də də dəyişiklik olmayacaq. Belçika (1780), Fransa (1755) və Braziliya (1743) xala malik olacaq.

# Feysbuk hesablarını donduracaq - futbolçulara qarşı irqçi ifadələr yazanların

***İngiltərə Premyer Liqasında çıxış edən futbolçuların son vaxtlar sosial şəbəkələr vasitəsilə irqçi təzyiqlərə məruz qalması feysbuk rəhbərliyini hərəkətə gətirib.***

”Unikal” qəzetinin məlumatına görə, şirkət buna yol verən şəxslərə xəbərdarlıq edib.

“Mançester Yunayted”in oyunçuları Markus Reşford, Entoni Marsyal, Aksel Tuanzebe, “Vest Bromviç”dən Romeyn Rouyers, “Çelsi”dən Riis Ceyms və “Mançester Yunayted”in qadın komandasında çıxış edən Loren Ceymsin ünvanına irqçi ifadələr işlədilməsini əsas götürən feysbuk rəhbərliyi bundan sonra analoji addımı əl atan şəxslərlə bağlı tədbir görüləcəyini bəyan edib. Konkret olaraq bu tip status yazanların hesabları qeyri-müəyyən müddətə qədər dondurulacaq.

Feysbukun sahibi olduğu instaqramda isə irqçi fikirlər yazan şəxslərin hesabları silinəcək.

# Messi nə qədər vergi ödəyir?

***”Barselona”nın kapitanı Lionel Messi İspaniya dövlət büdcəsinə ən çox vergi ödəyən şəxslərdən biridir.***

”Unikal” qəzeti ”Marca”ya istinadən xəbər verir ki, 33 yaşlı hücumçunun 2017-ci ildə imzaladığı müqaviləyə görə, o, 4 il ərzində ümumilikdə 370 milyon avrodan çox vergi ödəyib. Bunun təxminən 275 milyon avrosu şəxsi gəlir vergisidir.

O, hər il təxminən 70 milyon avro məbləğində vergi ödəyir.

Həmçinin bildirilir ki, bu, hər il əldə edilən gəlirə əsasən, faiz nisbətində dəyişən bir rəqəmdir.

Qeyd edək ki, Messinin müqaviləsinə görə o, 4 ildə ümumilikdə 555 milyon avro qazanır.

# Lisenziya yarışları dayandırıldı - triatlonda

***Ümumdünya Triantlonunun (World Triathlon) İcraiyyə Şurasının iclası keçirilib.***

”Unikal” qəzetinin məlumatına görə, videokonfrans formatında keçirilən tədbirdə koronavirus pandemiyası ilə əlaqədar mövcud vəziyyət müzakirə olunub.

Tokio Yay Olimpiya və Paralimpiya Oyunlarına lisenziya xarakterli yarışlarla bağlı fikir mübadiləsi aparan Şura üzvləri bütün turnirlərin təxirə salınmasına qərar verib. Yarışlar mayın 1-nə qədər dayandırıb.

Bu addım idmançılar, məşqçilər, tibbi və texnikə komitələrlə müzakirələrdən sonra atılıb. Ötən ilin martında dondurulan Olimpiya reytinq cədvəli, həmçinin lisenziya turnirlərinin taleyi ilə bağlı yekun qərar isə martın 18-də veriləcək.

Şuranın yığıncağında 2021-ci ilin təqvimi də müzakirə olunub. Dünya çempionatının da mayın 1-dən sonra keçirilməsinə qərar verilib. Martın 20-də keçirilməli olan dünya kuboku isə ləğv edilib.

Səhifəni hazırladı: Aygün İlqarqızı